Xalqın qəzeti!

# Xalq qəzeti

№ 82 (30776) 25 aprel 2025-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# Asiya nəhəngi Odlar yurdu ilə ən yüksək səviyyəli tərəfdaşlıq qurur

## Prezident İlham Əliyev Pekində "China Energy Engineering Corporation Limited" şirkətinin sədri ilə görüşüb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 24-də Pekində "China Energy Engineering Corporation Limited" ("Energy China") şirkətinin sədri Sonq Hailianq ilə görüşüb.**

Görüşdə "China Energy Engineering Corporation Limited" şirkətinin Azərbaycanda hazırda bir neçə layihə həyata keçirdiyi vurğulandı. Qeyd edildi ki, şirkət Xəzər dənizində 1 qiqavatlıq külək enerjisi meqalayihəsinin podratçısıdır. "China Energy Engineering Corporation Limited" Füzuli rayonunda Günəş enerjisi və digər layihələrə isə investisiya yatırıb.

Sonq Hailianq rəhbərlik etdiyi şirkət tərəfindən Azərbaycanla birlikdə enerji dəhlizlərində əməkdaşlıqla bağlı təkliflərlə çıxış etdi.

Dövlətimizin başçısı "China Energy Engineering Corporation Limited" şirkəti ilə əməkdaşlığın prioritetliyinə və strateji xarakterinə toxundu.

Söhbət zamanı uzunmüddətli birgə enerji planlaşdırma layihəsi ilə bağlı fikir mübadiləsi aparıldı. Qeyd edək ki, Azərbaycan Prezidentinin Çinə dövlət səfəri çərçivəsində bununla da bağlı sənəd imzalanıb.

Görüşdə Azərbaycanda gələcəkdə enerji tədqiqat mərkəzinin yaradılması ilə bağlı məsələlər müzakirə olundu. Şirkətin suyun idarəedilməsində böyük təcrübəsi nəzərə alınaraq, bu sahədə də əməkdaşlıqla bağlı fikir mübadiləsi aparıldı.

Qeyd edək ki, fəaliyyət dairəsinə bərpaolunan enerji layihələri ilə yanaşı, hidrogen enerjisi, enerjinin saxlanması və iri elektrik şəbəkələrinin tikintisi kimi istiqamətlər daxil olan şirkətin 147 ölkədə 256 filialı var. Hazırda 416 layihəsi icra olunan şirkət Çinin bərpaolunan enerji bazarının 50 faizinə nəzarət edir.

# Bakı–Pekin əməkdaşlıq oxu



**Prezident İlham Əliyev 2025-ci il yanvarın 20-də Davosda Çinin CGTN (China Global Television Network) telekanalına müsahibəsində bildirmişdi ki, Azərbaycanın Orta Dəhlizlə bağlı mövqeyi, sadəcə, tranzit ölkə olmaqdan və tranzitdən ödənişlər almaqdan ibarət deyil: "Bizim hədəfimiz özəl sektora bundan faydalanmağa kömək etmək üçün dəhlizin keçdiyi Azərbaycan ərazisində müəssisələr yaratmaqdır".**

Prezident İlham Əliyevin bildirdikləri Azərbaycanın Çinin böyük önəm verdiyi Orta Dəhlizdə Azərbaycanın mövqeyinin və gözləntisinin vurğulanmasıdır. Heç şübhəsiz, bu mövqeyinin gerçəklik strukturu sözügedən təşəbbüsə real dəstək imkanlarından asılıdır. İmkanlarımız isə vardır. Yəni Azərbaycan ümumi prosesə öz töhfəsini verməyi bacarır. Təsadüfi deyil ki, dövlətimizin başçısı müsahibəsində, həmçinin ölkəmizin Orta Dəhlizin öz seqmentinin infrastrukturunu təkmilləşdirməsindən də söz açmışdı. Əlbəttə, mövzuya geniş yanaşmaqla: "Biz Mərkəzi Asiyada bağlantı layihələrinin də əsasən Çin hökuməti tərəfindən maliyyələşdirildiyini bilirik. Xəzər dənizinə digər bir marşrut Azərbaycana gedən digər marşrutdur və biz buna mütləq hazır olmalıyıq. Əminəm ki, Sədr Si Cinpinin "Bir kəmər, bir yol" təşəbbüsü bütün ölkələr üçün əlavə imkanlar yaradacaq. Bir daha söhbət bağlantıdan, biznes imkanından, sabitlik və təhlükəsizlikdən gedir. Çünki biz hamımız bir-birimizdən asılı oluruq. Bizi birləşdirən vacib infrastruktur layihələri var. Bu, ölkələr arasında həm ikitərəfli, həm də çoxtərəfli əlaqələr istiqamətində bir sıra məsələlərin həlli üçün yaxşı bir mühitdir".

(ardı 4-cü səhifədə)

# Geniş arealın çevik "oyunçusu"

## Çinlə strateji tərəfdaşlıq dünyanın "siyasi tərəzi"sində ölkəmizin çəkisini artırıb



**Beynəlxalq müstəvidə güc və maraqların təsir dairələri, sərhədləri dəyişdiyi indiki reallıqda yeni "güc mərkəzləri" yaranır. Dünyada baş verən siyasi, hərbi, eləcə də ticari-iqtisadi proseslərin gedişatına təsir etmək iqtidarında olan texnoloji liderlər meydana çıxırlar. Bu siyasi "marafonda" Azərbaycan üçün əsas vəzifə geosiyasi xəritəsi dəyişməkdə olan dünyanın yeni düzənində öz yerini tutmaq və maraqlarının nəzərə alınacağı oyunçu statusunu qazanmaqdır. Bu, həm bölgədə, həm də onun hüdudlarından kənarda ölkəmizin iqtisadi, siyasi və texnoloji potensialını fəal şəkildə artırması ilə birbaşa bağlı məsələdir. Müasir texnologiyalar "indi və burada" prinsipi ilə fəaliyyəti və mövcudluğu mümkün sayır. Bu isə məqsəd və resursların düzgün müəyyən edilməsindən asılıdır.**

(ardı 3-cü səhifədə)

## Azərbaycan və Çin "yaşıl enerji" tərəfdaşlığına "yaşıl" işıq yandırır

**Azərbaycanda həyata keçirilən enerji təhlükəsizliyi siyasətinin əsas hədəflərindən biri də bərpa olunan enerji mənbələrinin potensialından səmərəli istifadənin gücləndirilməsidir. Bunun üçün isə ölkəmizin kifayət qədər potensialı var. Son tədqiqatlar Azərbaycanda 27,5 min meqavat həcmində bərpa olunan enerji ehtiyatı olduğunu təsdiqləyib. Bunun 3 min meqavatı külək, 23 min meqavatı Günəş enerjisinin, 380 meqavatı bioenerjinin, 520 meqavatı isə dağ çaylarının payına düşür. Xəzər dənizinin ölkə akvatoriyasında isə 157 qiqavatlıq külək enerjisi imkanları mövcuddur. Bütövlükdə, isə ölkəmizin bərpa olunan enerji sahəsində potensialı 200 qiqavat qiymətləndirilir.**

(ardı 9-cu səhifədə)

# Strateji tərəfdaşlığa ucalan müttəfiqlik

## Azərbaycan–Pakistan qardaşlığı, sadəcə, diplomatiya deyil, həm də geosiyasi manifestdir



**Azərbaycan–Pakistan münasibətləri müasir beynəlxalq münasibətlər sistemində istisna xarakteri daşıyan əməkdaşlıq modellərindən biridir və iki dövlət arasında əlaqələrin kökləri sadəcə, siyasi və diplomatik maraqlarda deyil, eyni zamanda, ortaq tarixi yaddaşda, dini-mədəni yaxınlıqda və sarsılmaz qardaşlıq bağlarında formalaşmışdır. Dövlətlər arasındakı münasibətlər zamanla qarşılıqlı hörmət, etimad və prinsipial mövqelərə əsaslanaraq strateji əməkdaşlıq səviyyəsinə yüksəlib.**

Pakistan Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən biri olmaqla iki ölkə arasında qurulan münasibətlərin başlanğıcında artıq səmimi və prinsipial yanaşmanın təməlini qoymuşdur. Təbii ki, diplomatik tanıma Azərbaycanın beynəlxalq aləmdə legitimliyinə verilmiş mənəvi və siyasi dəstəyin simvolu idi. Müstəqilliyin ilk illərində qarşılaşdığı çətinliklər fonunda Azərbaycanın belə bir strateji tərəfdaş qazanması olduqca önəmli idi, lakin bu münasibətlərin tarixində daha dərin və seçilən məqam, şübhəsiz, Pakistanın Ermənistanla bağlı sərgilədiyi prinsipial və ardıcıl mövqedir.

(ardı 6-cı səhifədə)

## Kaya Kallas Avropa İttifaqının Azərbaycana qərəzini dayandıra biləcəkmi?



Səhifə ⇨ 6

## Şərqdən Qərbə etimad və birgə fəaliyyət körpüsü




Səhifə ⇨ 5

## Xəzər çəkilir geri – yaraya çevrilir yeri

### Dənizin ekoloji problemləri hövzə dövlətlərini ciddi narahat edir



**Son vaxtlar beynəlxalq mediada Xəzərlə bağlı narahatlıq doğuran xəbərlər yayılır. Məsələn, məşhur Lids Universitetinin britaniyalı alimlərinin araşdırmalarına əsaslanılaraq, qlobal istiləşmənin ən əlverişli ssenarisi (+2°C) şəraitində belə, cari əsrin sonunda dənizin səviyyəsinin 5-10 metr aşağı düşə biləcəyi bildirilir. Tədqiqatçılar tərəfindən ən pessimist proqnozun doğru olacağı təqdirdə isə enişin 21 metr olacağı vurğulanır.**

(ardı 12-ci səhifədə)

# Asiya nəhəngi Odlar yurdu ilə ən yüksək səviyyəli tərəfdaşlıq qurur

## Prezident İlham Əliyev Pekində Çinin CGTN telekanalına müsahibə verib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Pekində CGTN (China Global Television Network) telekanalına müsahibə verib.**

## Prezident İlham Əliyevin Çinə dövlət səfəri başa çatıb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasına dövlət səfəri aprelin 24-də başa çatıb.**

Pekin Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı rəsmi şəxslər yola saldılar.

*AZƏRTAC*

# Azərbaycan Prezidentinin Çinə dövlət səfəri dünya mediasında

**Azərbaycan Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasına dövlət səfəri, onun Çin lideri Si Cinpinlə görüşü, iki ölkə arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat da daxil olmaqla əməkdaşlıq sənədlərinin imzalanması dünya mediasının diqqət mərkəzində olub.**

Çinin milli xəbər agentliyi Sinxua, Çin Kommunist Partiyasının rəsmi nəşrlərindən olan "Jenmin Jibao" və "Global Times" qəzetləri, Çin Media Qrupuna daxil olan Çin Mərkəzi Televiziyası (CCTV), Çin Beynəlxalq Radiosu, CGTN telekanalı, habelə nüfuzlu "China Daily" qəzeti, digər qəzet və xəbər saytları Prezident İlham Əliyevin səfəri barədə bir neçə dildə çoxsaylı materiallar yayıb. Çin mediası Prezident İlham Əliyevin Çinin Sinxua agentliyinə məxsusi müsahibəsindən xəbərlər hazırlayaraq oxucularına təqdim edib.

Qardaş ölkə Türkiyənin "Anadolu" agentliyinin "Azərbaycan və Çin arasında hərtərəfli strateji tərəfdaşlıq bəyanatı qəbul edilib" başlıqlı xəbərində dövlətimizin başçısının Çindəki təmasları çərçivəsində iki ölkə arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulmasına dair Birgə Bəyanat və bir sıra sazişlər, o cümlədən vizadan azadolma sənədinin imzalandığı qeyd olunub. DHA-nın "Çin lideri ilə Azərbaycan Prezidentindən strateji tərəfdaşlıq mesajı" adlı xəbərdə Si Cinpinin "Pekin Bakı ilə qarşılıqlı hörmət və ədalətə əsaslanan əməkdaşlıqda maraqlıdır" fikri vurğulanıb. Xəbərdə qeyd olunub ki, Prezident İlham Əliyev Azərbaycanın "Vahid Çin" prinsipinə sadiq olduğunu bildirib, Çinin Qlobal İnkişaf, Qlobal Təhlükəsizlik və Qlobal Sivilizasiya təşəbbüslərinin dünyada sülh, sabitlik və rifah üçün imkanlar yaratdığını vurğulayıb. "CNN Türk" telekanalının Azərbaycan Prezidenti İlham Əliyev Çin Xalq Respublikasının Sədri Si Cinpinin dəvəti ilə Çinə səfəri ilə bağlı xəbərində Si Cinpinin "Çin Azərbaycan ilə münasibətlərə strateji və uzunmüddətli perspektivdən baxır və inkişaf etdirir" fikri vurğulanıb, Pekinin Bakı ilə hərtərəfli əməkdaşlıqda yeni səhifə açmağa hazır olması faktı qabardılıb. "Haber Global" telekanalı, "İhlas" xəbər agentliyi Azərbaycan Prezidentinin Çinə səfərinə dair xəbərlər yayıb.







Azərbaycan Prezidenti İlham Əliyevin Çinə dövlət səfəri Rusiya mətbuatında da geniş işıqlandırılıb. TASS agentliyinin məqaləsində Çin liderinin "tarif və ticarət müharibələri bütün ölkələrin qanuni hüquq və maraqlarına zərər vurur, çoxtərəfli ticarət sistemini sarsıdır və dünya iqtisadi nizamını pozur" sözləri sitat gətirilir. "Nezavisimaya qazeta"nın Prezident İlham Əliyevin Çinə səfərinə həsr olunmuş geniş analitik məqaləsində səfərin iki ölkə arasında strateji tərəfdaşlığın dərinləşdirilməsinə xidmət etdiyi qeyd olunub. Nəşr Prezident İlham Əliyevin Sinxua agentliyinə müsahibəsinə də toxunub. Yazıda Çinlə təmasların gücləndirilməsini Orta Dəhliz layihəsi, regionda nəqliyyat və iqtisadi inteqrasiya imkanları ilə əlaqələndirən ekspertlərin fikirlərinə də yer verilib. "Vestnik Kavkaza" nəşri dövlət başçılarının Pekində keçirilmiş görüşünün yekunu olaraq qəbul edilmiş Birgə Bəyanat barədə ətraflı məqalə dərc edib. Qeyd olunub ki, görüşdə BMT mərkəzli dünya nizamının və BMT Nizamnaməsinin prinsiplərinə əsaslanan beynəlxalq nizamın dəstəklənməsi diqqət mərkəzində olub. "Kommersant" qəzeti Çin Sədri Si Cinpinlə Azərbaycan Prezidenti İlham Əliyev arasında görüşü işıqlandırıb, danışıqların iqtisadi və ticarət aspektlərinə diqqət yetirib. "RİA Novosti" Çinin Sədri Si Cinpinin Azərbaycan Prezidenti İlham Əliyevlə danışıqları zamanı səsləndirdiyi bəyanatlarla bağlı məqalə dərc edib. Bildirilib ki, Çin lideri ticarət müharibələrinin dağıdıcı nəticələri barədə xəbərdarlıq edib. "EADaily" agentliyi Pekində Prezident İlham Əliyev və Çinin Sədri Si Cinpin arasında keçirilən danışıqların yekunları üzrə imzalanmış Birgə Bəyanatın əsas məqamlarını işıqlandırıb. Azərbaycanın təklif etdiyi sülh gündəliyinə Çinin güclü dəstəyi diqqət mərkəzində olub.

"Reuters" agentliyinin "Çin Sədri Si Pekində Azərbaycan lideri ilə görüşür" adlı xəbərində səfərin detallarından söz açılıb.

İtaliyanın "FarodiRoma" nəşri "Azərbaycan və Çin strateji tərəfdaşlıq sazişi və bir çox başqa sənədlər imzalayıb" adlı xəbərdə geniş məqalə dərc olunub. Məqalədə iki ölkə arasında imzalanan sənədlər, o cümlədən Azərbaycan ilə Çin arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat barədə məlumat verilib. "Nova.news" və "4coffshore.com" onlayn nəşrləri Prezident İlham Əliyevin Çin Xalq Respublikasına dövlət səfəri çərçivəsində Azərbaycan ilə Çin şirkətləri arasında enerji sahəsində bir neçə əməkdaşlıq sənədinin imzalandığını yazıb.




Küveytin KUNA agentliyi, Gürcüstanın "Primetime.ge" nəşri, "1tv" və "Ajara tv" kanalları dövlətimizin başçısının Çinə səfəri, xüsusən də iki ölkə arasında imzalanan sənədlər haqqında ətraflı məlumat yayıblar.




İranın "Tasnim" agentliyinin mövzu ilə bağlı xəbərində qeyd olunur ki, səfər çərçivəsində imzalanan çoxsaylı sənədlər Bakı və Pekinin yeni dövrdə münasibətləri daha da inkişaf etdirmək və mövcud potensialdan hərtərəfli strateji tərəfdaşlıq çərçivəsində istifadə etmək əzmindən xəbər verir. ISNA agentliyi isə yazır ki, Çin Sədri Si Cinpin çərşənbə günü Pekində Azərbaycan lideri İlham Əliyevlə görüşüb və tərəflər Bakı ilə Pekin arasında hərtərəfli strateji əməkdaşlığın başlandığını elan ediblər. "Jahannews.com" nəşri Prezident İlham Əliyevin səfər öncəsi Sinxua agentliyinə müsahibəsində səsləndirdiyi fikirlərdən sitatlar gətirərək, Azərbaycan-Çin münasibətlərinin qədim tarixə və yaxşı ənənələrə söykənərək, yüksələn istiqamətdə inkişaf etdiyini vurğulayıb.

Cənubi Koreyanın "newsis.com" nəşri "Associated Press"ə istinadla Azərbaycan Prezidentinin Çində dövlət səfərində olduğunu yazıb.

Ukraynanın "Ukrinform" agentliyi, "Prabdatut", "Kurs Ukraini", "Ekonomiçni novinki" nəşrləri də dövlətimizin başçısının Çinə səfərinə dair bir neçə material yayıb, səfəri ətraflı şərh ediblər.

Rumıniyanın milli xəbər agentliyi AGERPRES, "Mediafax" özəl xəbər agentliyi, "News.ro" xəbər portalı, "Pescurt.ro" xəbər portalı, "Gandul" nəşri və digər nüfuzlu media orqanları, o cümlədən "Pro TV" televiziya kanalı, "Prima TV" televiziya kanalı və başqaları Çin Xalq Respublikasının Sədri Si Cinpin və Azərbaycan Prezidenti İlham Əliyev arasında Pekində keçirilmiş görüşə həsr olunmuş "Ticarət müharibələri və tariflər qlobal iqtisadi nizamı pozur – Azərbaycanla strateji tərəfdaşlıq güclənir" sərlövhəli məqalələr yazılıb.

Bolqarıstanın "Fakti.bg" xəbər portalı, BTA xəbər agentliyi, BNT televiziya kanalı, "News.bg" xəbər portalı, Yunanıstanın "Protothema", "Efsyn", "News24/7" xəbər portalı və digər nüfuzlu media orqanları "Si Cinpin: Gömrük rüsumları və ticarət müharibələri qlobal iqtisadi nizama zərər vurur – Çin və Azərbaycan arasında əməkdaşlıq daha da güclənir" sərlövhəli məqalələr dərc ediblər.

*XQ*

(əvvəli 1-ci səhifədə)

# Geniş arealın çevik "oyunçusu"



Azərbaycan Prezidenti İlham Əliyevin Pekinə səfəri dünyanın ən qüdrətli dövlətlərindən biri olan Çinin ölkəmizlə münasibətlərə müstəsna diqqət yetirdiyini əks etdirir. Bu diqqətin səbəbini Azərbaycan rəhbərliyinin ölkəmizin dünyada yerini və rolunu gücləndirmək, suverenliyini və beynəlxalq subyektivliyini "böyük güclər"ə qəbul etdirmək üçün göstərdiyi səylərin real nəticəsi kimi səciyyələndirmək olar. Bu fəaliyyət, ilk növbədə, ölkəmizin yerləşdiyi coğrafiya və qlobal çağırışlara verdiyi operativ reaksiya ilə özünü göstərirdi. Əminliklə deyə bilərik ki, Bakının yürütdüyü məhz uğurlu xarici siyasəti Pekinlə əlaqələrə əlavə stimul verdi, ona münbit zəmin yaratdı.

Çin dünyada geniş çeşiddə məhsulların ən böyük istehsalçısı və ixracatçısıdır. Azərbaycan isə Çin və Mərkəzi Asiyadan Avropaya gedən əsas yollardan birinin üstündə yerləşən strateji ölkədir. Bu kontekstdən yanaşsaq, həm Azərbaycan, həm də Çin Avrasiyanın intəhasız genişliyində sülhün və sabitliyin davamlı olmasında maraqlıdır və bu amil iki ölkə arasında əməkdaşlığın çoxşaxəliliyini, gündəliyin çeşidini formalaşdıran seqmentə çevrilib. Azərbaycan üçün əsas vəzifə bu yeni xəritədə öz yerini tutmaq və maraqlarının qəbul edildiyi "oyunçu" olmaqdır.

* * *

Aprelin 23-də Pekində Prezident İlham Əliyev və Sədr Si Cinpinin imzaladıqları "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat"ın, bir növ, son 33 ildə iki ölkənin keçdiyi əməkdaşlıq yolunu tamamilə yeni və geniş magistrala çevirdiyini deyə bilərik. ÇXR Sədri Si Cinpin Prezident İlham Əliyevlə danışıqlar zamanı bildirdi ki, ölkələrimiz hərtərəfli strateji tərəfdaşlığın yaradılmasını elan ediblər. Çin liderinin sözlərinə görə, müxtəlif sahələr üzrə əməkdaşlıq sənədlərinin imzalanması ikitərəfli münasibətlərin genişlənməsinə kömək edir. "İnanıram ki, Sizin səfəriniz məhsuldar nəticələr verəcək", – deyə Çin lideri vurğulayıb.

Birgə bəyanatın 2-ci bəndi özünün siyasi tutumu və gələcəyə ünvanlanan mesajları ilə diqqəti dərhal cəlb edir. Həmin bənddə qeyd olunur ki, "Tərəflər strateji oriyentir kimi dövlət başçılarının diplomatiyasını və ən yüksək səviyyədəki mühüm razılaşmaları rəhbər tutacaqlarını, ikitərəfli münasibətlərin davamlı və uzunmüddətli inkişafını təşviq edəcəklərini bəyan edirlər".

Bəli, bu tarixi sənəddə bundan sonrakı yüksək tərəfdaşlıq mərhələsində də məhz dövlət başçılarının diplomatiyasının rəhbər tutulacağının vurğulanması ikitərəfli əlaqələrin gələcək perspektivə yönəlik siyasi mesaj kimi qəbul edilməlidir. Həmin bənddə o da qeyd olunur ki, hər iki tərəf praktiki əməkdaşlığı irəliləmək üçün müntəzəm mexanizmlər çərçivəsində hökumətlər arasında əlaqələrin gücləndirilməsinə hazır olduqlarını təsdiqlədilər. Ardınca isə tərəflərin beynəlxalq və regional təşkilatlarda fəaliyyəti əlaqələndirmək, qanunverici orqanlar xətti üzrə təmasları və mübadilələri dəstəkləmək, Xarici işlər nazirlikləri arasında müntəzəm məsləhətləşmələr keçirmək əzmində olduqları qeyd edilir.

Bəli, əminliklə deyə bilərik ki, Çinə tarixi səfəri ilə Azərbaycan dövlətinin başçısı xarici siyasətin super vəzifəsini – dəyişən dünyada fəal iştirak və sabit mövqelərin formalaşdırılmasını müəyyən etdi. Bu, həm də o deməkdir ki, daha dünyanın siyasi arxitekturası iki-üç "baş dizayner" tərəfindən deyil, geniş tərkibli "orta güclərin" koordinasiyalı memarlığı ilə formalaşacaq. Həmin memar-ölkələr regional təşəbbüslər və yaratdıqları yeni güc mərkəzləri vasitəsilə özlərinin oyun qaydalarını beynəlxalq gündəmə gətirəcəklər.

* * *

Pekində "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində hüquq, "yaşıl inkişaf", rəqəmsal iqtisadiyyat, əqli mülkiyyət hüquqları və aerokosmik sənaye kimi sahələrdə əməkdaşlığa dair 20 sənəd imzalandı. Artıq neçə ildir ki, Azərbaycanı özünün daha geniş Avrasiya iqtisadi strategiyasının əsas oyunçusu qismində görən Çin qeyri-qazıntı enerji iqtisadiyyatının inkişafında, eləcə də qlobal təchizat şəbəkəsində və regional ticarət dəhlizlərində əsas halqa rolunu gücləndirməkdə həyati maraqları olan Bakı üçün yeni imkanlar yaratmaqdadır. Bu, yuxarıda qeyd etdiyimiz kimi, Azərbaycanın özünün xarici siyasətini çoxşaxəliyi sistem kimi qurmasının məntiqi nəticəsidir. Bu uğurlu siyasətin sərhədləri Xəzərdən Afrikaya, Balkanlardan Sakit okeana qədər uzanır. Azərbaycan bu geniş arealda çevik, dəqiq və vaxtında hərəkət edir. Çağdaş dövrün diktə etdiyi modernləşmə yolunu seçmiş digər ölkələrlə birlikdə Azərbaycan dünyanın gələcək siyasi-iqtisadi simasını müəyyən edəcək dövlətlər sırasındadır.

Prezident İlham Əliyevin və Sədr Si Cinpinin səsləndirdikləri bəyanatlar danışıqların uğurla nəticələnməsindən, əməkdaşlığın yeni istiqamətlərinin müəyyənləşdirilməsindən xəbər verir. Hər iki lider münasibətlərin intensiv şəkildə dəyişən beynəlxalq vəziyyətə baxmayaraq, möhkəm və sabit olaraq qaldığını, bundan sonra yeni çalarlar qazanacağını bildirdi. "Hər iki ölkə diplomatik münasibətlərin qurulmasının ilkin niyyətini həmişə xatırlayır. Çin və Azərbaycan qarşılıqlı hörmət, ədalət və qərəzsizlik, eləcə də qarşılıqlı faydalı əməkdaşlıq prinsiplərinə sadiq qalır. Tərəflər siyasi qarşılıqlı etimadı gücləndirməyi, praktiki əməkdaşlığı dərinləşdirməyi, beynəlxalq əməkdaşlığı möhkəmləndirməyi davam etdirməlidirlər. Eyni zamanda, hərtərəfli əməkdaşlığın yeni səhifəsini açmalıdır", – Çin Sədri qeyd edib.

Birgə bəyanatda qeyd olunub ki, diplomatik münasibətlərin qurulmasından ötən 33 il ərzində Azərbaycan–Çin əlaqələrinin inkişafındakı nailiyyətlər yüksək həddədir. Azərbaycan tərəfi dünyada yalnız vahid bir Çinin mövcudluğunu, Tayvanın Çin ərazisinin ayrılmaz tərkib hissəsi olduğunu, Çin Xalq Respublikası hökumətinin bütün Çini təmsil edən yeganə qanuni hökumət olduğunu tanıyır, "Tayvanın müstəqilliyi"nin istənilən formasına qarşı qətiyyətlə çıxır və ölkənin yenidən birləşməsinin həyata keçirilməsində Çin hökumətini dəstəkləyir. Çin də Azərbaycan tərəfinin təklif etdiyi sülh gündəliyini qətiyyətlə dəstəkləyir və qarşıdurmaya yönəlmiş geosiyasi oyunları qeyri-məhsuldar hesab edir.

Dövlətimizin başçısı Çin lideri Si Cinpini hər iki tərəf üçün əlverişli vaxtda Azərbaycana səfərə dəvət etdi. Bu dəvətin özü ikitərəfli əlaqələrin hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsinin bariz təzahürü kimi başa düşülməlidir.

Sonda bir daha qeyd etmək istərdik ki, "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat"ın imzalanması münasibətlərin həm forma, həm də məzmun baxımından yeni mərhələyə keçməsinə zəmin yaradır.

Beləliklə, görünən reallıq ondan ibarətdir ki, Azərbaycan dünya birliyi tərəfindən etibarlı tərəfdaş kimi qəbul edilir. Hazırda qlobal güc mərkəzləri ilə siyasi və iqtisadi əlaqələrin daha da inkişaf etdirilməsi, strateji əməkdaşlığın genişləndirilməsi ölkəmiz üçün böyük əhəmiyyətə malikdir. Bu mənada, Azərbaycanın Çin Xalq Respublikası ilə qarşılıqlı strateji tərəfdaşlığın əhəmiyyəti xüsusilə vurğulanmalıdır.

Prezident İlham Əliyevin Çinin Sinxua agentliyinə müsahibəsində dediyi kimi, qədim tarixə və xeyirxah ənənələrə əsaslanan Azərbaycan–Çin münasibətləri yüksələn xətlə inkişaf edir, strateji tərəfdaşlığımız isə yeni müsbət məzmunla zənginləşir.

*İmran BƏDİRXANLI*
*XQ*

**Ekspert rəyi**



**Fikrət SADIXOV, Qərbi Kaspi Universitetinin professoru, politoloq**

– Çin dünya siyasətində "böyük güclər"dən biri sayılan dövlətdir. Nüvə silahına malik, maraqlarının təsir dairəsi kifayət qədər geniş coğrafiyanı əhatə edən dövlət kimi hamı tərəfindən qəbul olunur. Belə bir qüdrətli dövlətlə Azərbaycanın münasibətlərinin inkişaf etməsi, əlbəttə ki, ilk növbədə ölkəmizin maraqlarına cavab verir. Çünki Azərbaycan həm qlobal Cənub və Şərqi Avropa, həm də Afrika, ərəb ölkələri ilə münasibətlərini yüksək səviyyədə qurub. O cümlədən Avropanın aparıcı dövlətləri ilə enerji, nəqliyyat-kommunikasiya sahələrində yaxından əməkdaşlıq edir.

Çin bu arealda olduqca mühüm rol oynayan dövlətdir. Asiyanın nəhəngi ilə Azərbaycan arasında strateji Birgə Bəyanatın imzalanması onu göstərir ki, bu coğrafiyada Çinin maraqları kifayət qədər genişdir. Bu sənədə imza atmaqla rəsmi Pekin, eyni zamanda, Azərbaycanın regionda güclü oyunçuya çevrildiyini etiraf etmiş oldu. On səkkiz bəndlik Birgə Bəyanatda iki ölkə arasında strateji tərəfdaşlıq məsələləri geniş yer tutur və tərəflər məhz bu istiqamətə xüsusi önəm verirlər.

Azərbaycan Prezidenti İlham Əliyevin Pekində qarşılanması, ÇXR Sədri Si Cinpinlə geniştərkibli ikitərəfli görüşü, hökumətlər arasında 20 müqavilənin bağlanması tərəfdaşlığın, doğrudan da, strateji xarakter daşıdığını ortaya qoyur. Aydın görünən odur ki, Azərbaycan–Çin münasibətlərində yeni mərhələ açılır. Deməli, rəsmi Pekin Azərbaycanın timsalında özünə etibarlı tərəfdaş, arxalana biləcəyi ciddi oyunçu tapdığını etiraf edir. Bu münasibətlərin qarşılıqlı hörmət və dost səmimiyyəti ilə müşayiət olunduğunu bütün dünya görür.

# Pekinlə təhlükəsizlik sahəsində də əməkdaşlıq genişlənir

**Azərbaycanla və Çin arasında əlaqələr yüksək səviyyədədir. Hər iki ölkə regionun siyasi həyatında və nəqliyyat strukturlarının inkişafında aparıcı rol oynayır. Mövqeləri suverenlik, müstəqillik, ərazi bütövlüyü, digərlərinin daxili işlərinə qarışmamaq, iqtisadi əməkdaşlıq məsələlərində üst-üstə düşür. Bu yanaşma, həmçinin iki ölkənin beynəlxalq arenada bir-birini dəstəkləməsini və qarşılıqlı etibarı artırır. Yalnız rəsmi səviyyədə deyil, həm də gündəlik praktikalarda əhəmiyyətli bir "yol xəritəsi" kimi qəbul edilib. Bu yanaşma, həm Azərbaycanın, həm də Çinin uzunmüddətli xarici siyasət hədəflərini dəstəkləyən və qarşılıqlı faydalara əsaslanan bir strateji təməl yaradır.**

Bunun nəticəsidir ki, hər iki tərəf bir-birinin ərazi bütövlüyünü tanıyır. Bakı Tayvanın Çin ərazisinin ayrılmaz tərkib hissəsi, Çin Xalq Respublikası hökumətinin isə bütün Çini təmsil edən yeganə qanuni hökumət olduğunu tanıyır, "Tayvanın müstəqilliyi"nin istənilən formasına qarşı qətiyyətlə çıxır və ölkənin yenidən birləşməsinin həyata keçirilməsində Çin hökumətini dəstəkləyir. Bu, onunla bağlıdır ki, Azərbaycan hər zaman beynəlxalq hüququn norma və prinsiplərini dəstəkləyir.

Çin də eyni mövqeni sərgiləyir. Dəfələrlə beynəlxalq arenada Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanıyıb və dəstəkləyib. Pekin Bakının təklif etdiyi sülh gündəliyini qətiyyətlə dəstəkləyir və qarşıdurmaya yönəlmiş geosiyasi oyunları qeyri-məhsuldar hesab edir. Bu onu göstərir ki, Çin Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları və prinsipləri əsasında dinc yolla nizamlanmasına tərəfdardır. Rəsmi Pekin Cənubi Qafqazı yenidən qan gölünə döndərmək istəyən dövlətlərin siyasətinə qarşıdır. Bu, iki ölkənin dost və tərəfdaş olduğunun göstəricisidir.

Onu da qeyd edək ki, Azərbaycanla Çin arasında münasibətlərin yeni mərhələyə keçməsində 2024-cü ildəki "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə"nin rolu da böyükdür. Bəyannamə iki ölkə arasında münasibətlərin yeni mərhələyə keçməsini təmin edən mühüm bir addım olub. Sənəddə iki ölkənin mövcud hüquqi bazası çərçivəsində əməkdaşlığının sabit inkişafı bəyan edilib. Bununla yanaşı, iki ölkənin ticarət və iqtisadiyyatının inkişafı üçün əlverişli şəraitləri birgə yaratmaqla ekoloji təmiz və yüksək keyfiyyətli kənd təsərrüfatı məhsullarının bazarlara qarşılıqlı çıxışını tədricən genişləndirilməsi öz əksini tapıb.

Onu da qeyd edək ki, Azərbaycan ÇXR-in Sədri tərəfindən irəli sürülmüş "Bir kəmər, bir yol" təşəbbüsünü dəstəkləyən ilk ölkələrdən biridir. Bu istiqamətdə ciddi praktik layihələr həyata keçirilir. Əminliklə demək olar ki, Azərbaycan bu layihənin reallaşmasına istər öz ərazisində, istərsə də onun hüdudlarından kənarda Çindən sonra daha çox investisiyalar qoyan ikinci ölkədir. 2019-cu ilin aprelində Çində keçirilən 2-ci "Bir kəmər, bir yol" Forumunda Prezident İlham Əliyev qeyd edib ki, bu layihə təkcə nəqliyyat əlaqələri təmin etmir, həmçinin müxtəlif ölkələr arasında əlaqələri gücləndirir, dialoq və əməkdaşlığın möhkəmlənməsinə xidmət edir və beynəlxalq ticarət üçün yeni imkanlar yaradır: "Biz "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində Çinlə əməkdaşlığı genişləndiririk. Bu istiqamətdə artıq mühüm uğurlar qazanılıb. Özünün əlverişli coğrafi mövqeyindən istifadə edən Azərbaycan ərazimizdən yük axınının kəskin artmasını nəzərə alaraq, beynəlxalq nəqliyyat dəhlizlərini fəal inkişaf etdirməyə, müasir infrastruktur yaratmağa və onların ötürücülük qabiliyyətinin artırılmasına əlavə investisiya qoymağa davam edir.

...Onu da diqqətinizə çatdırmaq istərdim ki, hazırda Orta dəhliz Avropa və Mərkəzi Asiyanı Xəzər dənizi vasitəsilə Çinlə birləşdirən etibarlı və təhlükəsiz marşrutdur, həmçinin yüklərin Çindən Avropaya və əks istiqamətdə çatdırılmasının ən optimal yoludur. Onun əhəmiyyəti sürətlə artır".

Son illərdə Çin rəqəmsal texnologiya və yaşıl inkişaf kimi sektorların inkişafına da üstünlük verir və Azərbaycan kimi ölkələr də onları əsas sahələr kimi görür. Yəni bu sahədə əməkdaşlıq inkişaf edir. Bunun özü də regional təhlükəsizliyə və sabitliyə böyük töhfə olacaqdır.

Deməli, Azərbaycanın strateji coğrafi mövqeyi onun siyasi və iqtisadi proseslərdə olduqca mühüm rol oynamasını təmin edir. Regiondakı enerji və nəqliyyat layihələrinin həyata keçirilməsində özünü büruzə verir. Aydındır ki, bu layihələrin təhlükəsizliyi hər iki dövlətin diqqət mərkəzindədir. Çünki terrorizm, separatizm və ekstremizm bütün beynəlxalq ictimaiyyət üçün ciddi təhdidlər yaradır. Azərbaycanla Çinin hüquq-mühafizə orqanları və təhlükəsizlik xidmətləri arasında əlaqələrin və mübadilənin gücləndirilməsini, narkotik cinayətlərinə, transmilli mütəşəkkil cinayətkarlığa, o cümlədən kibertəhlükəsizlik kimi çağırışlara qarşı birgə mübarizəni zəruri edir. Bu barədə aprelin 23-də Azərbaycan Prezidenti İlham Əliyevin və Çin Xalq Respublikasının Sədri Si Cinpinin danışıqların yekunlarına dair birgə bəyanatında deyilir: "Tərəflər vurğulayıblar ki, terrorizm, separatizm və ekstremizm milli təhlükəsizliyə və regional sabitliyə ciddi təhdiddir və bu bəlaya qarşı birgə mübarizə aparmaq vacibdir. İki ölkənin hüquq-mühafizə orqanları ilə təhlükəsizlik xidmətləri arasında əlaqələri və mübadiləni gücləndirmək, narkotik cinayətlərinə, transmilli mütəşəkkil cinayətkarlığa, o cümlədən sənədləşmə, kibertəhlükəsizlik kimi çağırışlara qarşı birgə mübarizə aparmaq lazımdır".



Bununla əlaqədar, tərəflər əməkdaşlıq layihələrinin və iki ölkənin müəssisələrinin personalının təhlükəsizliyini birgə təmin etməyə hazırdırlar. Bundan əlavə, Bakı və Çin humanitar minatəmizləmə sahəsində beynəlxalq əməkdaşlığın gücləndirilməsinin də vacib sayır.

Beləliklə, tərəflər təhlükəsizliyin təmin edilməsi və terrorizmlə mübarizə aparmaq üçün ümumi səylərini birləşdirir. Bu, hər iki dövlətin təhlükəsizlik siyasətinin əsasını təşkil edir. Maraqlarının qorunması məqsədilə müvafiq dövlət strukturlarının üzərinə xüsusi vəzifələr qoyur və onların əlaqələndirilmiş fəaliyyətini zəruri edir. Hər iki tərəf bu konsepsiyadan irəli gələn vəzifələri həyata keçirmək üçün müvafiq tədbirlər görür.

Onu da qeyd edək ki, iki ölkə arasında narkotik cinayətləri, transmilli mütəşəkkil cinayətkarlıqla, həmçinin kibertəhlükəsizlik kimi çağırışlarla birgə mübarizəyə də önəm verilir.

Tərəflər humanitar minatəmizləmə sahəsində beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsinin vacibliyini vurğulayırlar. Bu məsələdə Azərbaycan Çin tərəfinin Azərbaycanın minatəmizləmə işinə dəstəyini yüksək qiymətləndirir. Pekin maddi-texniki dəstək şəklində minatəmizləmə sahəsində potensialın möhkəmləndirilməsində Azərbaycana bundan sonra da yardım göstərməyə hazır olduğunu bildirib.

**Politoloq Rəşad Sadıqov** dedi ki, "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində Çinlə əməkdaşlığımız genişlənir: "Bu istiqamətdə artıq mühüm uğurlar qazanılıb.



Əlverişli coğrafi mövqeyindən istifadə edən Azərbaycan yük axınının kəskin artmasını nəzərə alaraq, beynəlxalq nəqliyyat dəhlizlərini fəal inkişaf etdirməyə, müasir infrastruktur yaratmağa və onların ötürücülük qabiliyyətinin artırılmasına əlavə investisiya qoymağa davam edir. İnfrastruktur layihələri "Bir kəmər, bir yol" çərçivəsində iqtisadi və nəqliyyat imkanlarının reallaşdırılması üçün yeni perspektivlər açır. Azərbaycanın bu cür böyük iqtisadi və siyasi gücə malik olan Çinlə eyni platformada yer alması, layihələrdə fəal iştirak etməsi, ölkəmizin artan beynəlxalq çəkisinin və geosiyasi rolunun göstəricisidir".

Layihələrin isə təhlükəsizliyi təmin edilməlidir. Nəzərə almaq lazımdır ki, müxtəlif dövlətlərin regionda maraqları var. Bu səbəbdən də nəqliyyat şəbəkələrinin təhlükəsizliyinin təmin edilməsi hər iki ölkə üçün əsas vəzifələrdən biridir. Azərbaycan ilə Çin beynəlxalq nəqliyyat dəhlizlərinin fəaliyyətinin səmərəliliyinin və rəqabət qabiliyyətinin artırılması məqsədilə təhlükəsizlik tədbirlərini gücləndirirlər. Bu məqsədlə nəqliyyat infrastrukturlarının mühafizə sisteminin etibarlılığı təmin edilir. Onların təhlükəsizliyinə kənardan təhdid yarada biləcək amillərin aşkarlanması və qarşısının alınması istiqamətində birgə tədbirlər görülür. Terror aktlarının törədilməsində istifadə oluna biləcək vasitələrin dövriyyəsinin qadağan olunması və ya bu dövriyyəyə ciddi nəzarətin həyata keçirilməsi təmin edilir. Təhlükəsizlik strukturlarının, habelə aidiyyəti dövlət qurumlarının fəaliyyətləri əlaqələndirilir.

*Pünhan ƏFƏNDİYEV*
*XQ*

# Bakı–Pekin əməkdaşlıq oxu

(əvvəli 1-ci səhifədə)

Onu da bildirək ki, Prezident İlham Əliyev bu il aprelin 9-da ADA Universitetində keçirilmiş "Yeni dünya nizamına doğru" beynəlxalq forumundakı çıxışı zamanı Ermənistanın Azərbaycanın enerji resursları və nəqliyyat marşrutları üçün tranzit ölkəyə çevrilə biləcəyini vurğulamışdı: "Azərbaycandan neft, qaz və yaxud digər yüklərin daşınması Gürcüstan ərazisi ilə gedir və Ermənistan bu prosesin bir hissəsi ola bilərdi. Bu, onların səhvidir. Onlar öz gələcək inkişaflarını səhv hesabladılar və beləliklə, özlərini iqtisadi gələcəklərindən məhrum etdilər. Bununla əlaqədar onların real müstəqilliyi əngəlləndi. Onlar "böyük bir Ermənistan" xülyası ilə yaşayırdılar".

Bəli, "böyük Ermənistan" xülyası Ermənistanı inkişafdan uzaq salıb. Əslində, bu məqamı düşünməyi bacara bilən ermənilər də vurğulayırlar. Onlar artıq tarixə çevrilmiş Dağlıq Qarabağ münaqişəsinin, o cümlədən torpaqlarımızın işğalının mahiyyətcə ölkələrinə çox baha başa gəldiyini əsaslandırır, Ermənistanın "Əsrin müqaviləsi"nin verdiyi imkanlardan faydalana bilməməsi üzərində dayanırlar.

*

Haşiyə çıxaq ki, Bakı–Tbilisi–Ceyhan Əsas İxrac Boru Kəmərinin Gürcüstandan yox, Ermənistandan keçməsi daha münasib idi. Ancaq Azərbaycan sırf işğal amilinə görə buna icazə verməmiş, ulu öndər Heydər Əliyevin qətiyyəti və prinsipiallığı sayəsində mövcud istiqamətdəki beynəlxalq təzyiqlərə sinə gərməyi bacarmış və bu dirəniş nəticə etibarilə təcavüzkarın təcriddə qalma reallığını doğurmuşdu.

Azərbaycan 44 günlük müharibədəki möhtəşəm Zəfərindən sonra məğlub Ermənistana sülh əlini uzatdı. Yəni ona tranzit ölkəyə çevrilmək şansını yaratdı. Ancaq baş nazir Nikol Paşinyan administrasiyası bunu düşünmədi və yeni reallıq uydurmağa girişdi.

*

Diqqət yetirək, hazırda rəsmi İrəvan çox aktiv şəkildə, az qala, bütün beynəlxalq platformalarda özünün "Dünyanın kəsişməsi" təşəbbüsünü reklam edir. Bu günlərdə erməni iqtidarının təmsilçiləri sözügedən "təşəbbüsü", hətta, Orta Dəhlizin tərkib hissəsi kimi qələmə verməkdən də çəkinmədilər. Halbuki, əvvəllər "Orta Dəhliz" ifadəsini dilə gətirmir, onu görməzdən gəlirdilər. Deməli, indi reallığı görürlər. Problem ondadır ki, reallığa erməni gündəmi qatmaq mərəzlərini kənara qoymurlar.

Ermənistanın "Dünyanın kəsişməsi"nin mahiyyəti belədir ki, ölkə Şərqdən Qərbə, Şimaldan Cənuba qlobal yükdaşımaların mərkəzi funksiyasını yerinə yetirsin. Yəni, böyük tranzit qovşağı rolunu oynasın. O da məlumdur ki, "Dünyanın kəsişməsi" Azərbaycanın Zəngəzur dəhlizi ideyasına alternativ olaraq ortaya atılıb. Yəni, "təşəbbüsün" qəbuledilməzliyini şərtləndirən ən mühüm amil məhz bu alternativlikdir. Belə yanaşma isə yalnız kor inada əsaslanır. Başqa sözlə desək, Paşinyan administrasiyası, nə olursa-olsun, Azərbaycanın Zəngəzur dəhlizinə – Naxçıvana maneəsiz yola imkan verməmək məqsədi güdür. Halbuki Naxçıvana yol, eyni zamanda, Ermənistanın 44 günlük müharibə məğlubu kimi 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatla üzərinə götürdüyü öhdəlikdir.



Müharibədən ötən müddətdə öhdəliyini yerinə yetirməkdən yayınan Ermənistan rəhbərliyi ölkənin ərazi bütövlüyü və suverenliyi klişesini, sərhədlərinin dəyişməzliyi kimi mənasız məsələni əlində bayrağa çevirib, indi də mövqeyində qalır. Üstəlik, N.Paşinyan gecə yuxuda gördüklərini regional kommunikasiyaların açılması ilə bağlı konstruktiv təklif olaraq beynəlxalq ictimaiyyətə sırımağa çalışır. Tam əminliklə deyə bilərik ki, rəsmi İrəvan, əslində, otuz il əvvəlki səhvini təkrarlayır. Ən pisi isə budur ki, durumun, daha doğrusu, yanaşmasının yanlışlığının fərqində deyil.

Əllbəttə, hayların hakim siyasi düşərgəsi təcridlə də razılaşmır. Məsələn, Azərbaycan rəhbərliyi Orta Dəhlizin vacib komponenti sayılan Zəngəzur dəhlizinə, yəni Naxçıvana maneəsiz, heç bir gömrük və sərhəd nəzarəti olmayan yola imkan verilməyəcəyi təqdirdə, qədim diyarımıza hərəkətin Ermənistandan deyil, İrandan olacağını açıqlayıb. Paşinyan isə dəfələrlə bildirib ki, ölkəsi İranın Naxçıvana yolla bağlı şərtlərini oxşarını Azərbaycana təklif etməyə hazırdır. İndi nə düşünək? Düşünək ki, erməni baş nazir gerçək mahiyyəti anlamır? Bəlkə də anlayır, sadəcə, necə deyərlər, erməniliyindən qalmır, düşünür ki, beynəlxalq dairələrin köməyi ilə nəyəsə nail olmağı bacaracaq. Amma reallıqla barışmamaq başqa reallıq formalaşdırır. Obrazlı desək, qatar gedir və Ermənistan ona çatmaq şanslarını itirir.

*

Prezident İlham Əliyevin Çinə səfəri, eləcə də səfər çərçivəsində aprelin 23-də Pekində "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat"ın imzalanması Ermənistan üçün "qatara çatmaq" şanslarının minimuma enməsi deməkdir. Onun əldən vermək üzrə olduğu isə məhz tranzit ölkə statusuna yiyələnmək fürsətidir. Yaxşı olar ki, rəsmi İrəvan başqa iddialara düşməkdənsə, sözügedən bəyanatı, xüsusən, sənədin 7-ci bəndini diqqətlə nəzərdən keçirsin.

Beləliklə, "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat"ın 7-ci bəndində vurğulanır ki, tərəflər "iki ölkənin nəqliyyat sahəsindəki əməkdaşlığını yüksək qiymətləndirir və regional qarşılıqlı əlaqələri təşviq edərək, nəqliyyat infrastrukturunun inkişafına, logistika və daşınmaların səmərəliliyinin artırılmasına dəstəyi davam etdirməyə hazır olduqlarını bildirirlər".

Əvvəldə Prezident İlham Əliyevin Çin telekanalına müsahibəsində Azərbaycanın yalnız tranzit ölkə olmaqla kifayətlənmədiyinə dair fikirlərini əbəs yerə xatırlatmadıq. Bəyanatın 7-ci bəndi o deməkdir ki, rəsmi Pekin Azərbaycanı Orta Dəhlizin başlıca aktoru qismində görür və tanıyır. Deməli, həm bu sənəd, həm də ötən il iyulun 3-də Astanada Şanxay Əməkdaşlıq Təşkilatının Zirvə toplantısı çərçivəsində qəbul olunmuş "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə" rəsmi Pekinin Bakının mövqeyinə hörmətlə yanaşdığının bariz göstərici kimi qiymətləndirilə bilər.

*

Rəsmi Pekinin ölkəmizə yüksək yanaşma tərzi Çin Xalq Respublikasının Sədri Si Cinpinin dövlətimizin başçısına dərin inam və etimadının nəticəsidir. Daha bir mühüm məqam isə budur ki, Prezident İlham Əliyevin şəxsində dövlətimiz xarici partnyorlara təkcə nəyisə təklif etmir, eyni zamanda, həm özünün, həm də əməkdaşlıq etdiyi ölkələrin təşəbbüslərinə töhfəsini verir. Cənab Əliyevin Çin telekanalına müsahibəsində Azərbaycanın yalnız Orta Dəhlizin əsas tranzit qovşağı ampluası ilə kifayətlənməməsinə dair fikirləri də bunun təsdiqidir.

Ermənistanın isə üzərində dayandığı "Dünyanın kəsişməsi" ideyası baxımından irəli sürdüyü heç bir fərdi töhfə yoxdur və ola bilməz. Buna görə dünya gerçək faydaya əsaslanmış seçim qarşısında qalsa, Azərbaycanın üzərində dayanmalıdır. Rəsmi İrəvanın davranışlarından gəlinən nəticə isə budur ki, beynəlxalq aləm Ermənistanı, məsələn, eramızın 301-ci ilində xristianlığı qəbul etdiyi üçün dəstəkləməlidir.

Əlbəttə, nəinki erməni iqtidarının, bütövlükdə erməni cəmiyyətinin mifləri kənara qoyub reallığı görməsi, rasional davranması vacib və qaçılmazdır. Hərçənd, buna inamımız get-gedə azalmaqdadır. Həm də ona görə ki, hazırda Ermənistan Azərbaycanla şərti sərhədə qoşun toplayır. Halbuki, ölkə silah-sursat əldə etməkdənsə, sərhədə aparan yolları düzəltməyin qayğısına qalmalı idi. Amma bir məsələ də var: Ermənistana silah verən qüvvələr pulu yol düzəltmək üçün vermirlər. Həmin qüvvələrə Cənubi Qafqazda erməni avantürizminin qalması, Nikol və komandasının alət ampluası vacibdir ki, regional ambisiyalarını təmin etsinlər. Alət isə lazımsız olanda kənara atılır.

*

"Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat"ın 7-ci bəndində o da bildirilir ki, "tərəflər Azərbaycan Respublikası hökuməti ilə Çin Xalq Respublikası hökuməti arasında Beynəlxalq Multimodal Daşımalar haqqında Sazişin imzalanmasını yüksək qiymətləndirdilər. Çin birgə şəkildə təhlükəsiz, sabit, birbaşa və Çin–Avropa–Çin transxəzər ekspress-marşrutları yaradaraq, gömrük rəsmiləşdirilməsinin rahatlığı səviyyəsinin və yük daşımalarının səmərəliliyinin ardıcıl şəkildə artırılması məqsədilə Azərbaycan və marşrut boyunca yerləşən digər ölkələrlə əməkdaşlıq etməyə hazırdır. Hər iki tərəf beynəlxalq avtomobil daşımaları üzrə hökumətlərarası sazişin razılaşdırılmasının və bağlanmasının sürətlənməsində, Azərbaycan və Çin arasında avtomobil daşımaları üçün əlverişli şəraitin səviyyəsinin artırılmasında, ikitərəfli ticari-iqtisadi əməkdaşlıq üçün dayaq yaradılmasında maraqlıdır".

Diqqətə çatdırdıqlarımız fonunda bir daha Ermənistanın gedən qatara çatmaq şanslarının azalması üzərində dayanaq. Ancaq bəyanatın "Azərbaycan və marşrut boyunca yerləşən digər ölkələrlə əməkdaşlıq" kazusu onu deməyə əsas verir ki, bu şanslar hələ tam şəkildə itirilməyib. Yəni, Ermənistanın tranzit ölkəyə çevrilməsi mümkündür. Əlbəttə, Azərbaycana qarşı çıxmağı bir kənara qoysa, konstruktiv mövqe tutaraq ölkəmizin sülh şərtlərini qəbul etsə.

Sonda bir məqamın da üzərində dayanaq. Ermənistan rəhbərliyi "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat"ın 7-ci bəndinin diqqətə çatdırdığımız əməkdaşlıq kazusunu, eyni zamanda, o səbəbdən nəzərə almalıdır ki, rəsmi Pekin Bakı ilə imzaladığı bu sənədlə ölkəmizi Orta Dəhliz ideyasının başlıca aktoru kimi tanıdığını təsdiqləyir. Bu kazus o deməkdir ki, Çinin sözügedən qlobal marşrut boyunca yerləşən digər ölkələrlə əməkdaşlığının açar fiquru da Azərbaycandır. Belə bir statusa sahib ölkə ilə, necə deyərlər, çiling-ağac oynamaq, həmçinin gedən qatarın çarxına çomaq soxmaq cəhdləri ancaq fəlakət perspektivi vəd edir. Fəlakətin isə Ermənistanın davranışlarından asılı olan bir çox təzahürləri var. Vəlvələdən, ya zəlzələdən mövcud olan, gerçək tarixi əsasdan məhrum müasir erməni dövlətçiliyinin itirilməsi təzahürü də həmçinin.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# "Liderlərin dostluğu xalqlarımızın dostluğundan qaynaqlanır"

## Professor Lyu Banqfan Azərbaycan Prezidentinin Çin səfərini belə dəyərləndirdi

**Həm Pekin Pedaqoji Universitetində magistraturada oxuduğum illərdə, həm də indi – Yanşan Universitetinin doktorantı olduğum müddətdə Çin ziyalılarının Azərbaycan haqqında söylədikləri təqdiredici fikirləri çox eşitmişəm. Yəni bu dost ölkədə bizə münasibət, sözün həqiqi mənasında, arzu etdiyimiz səviyyədədir.**



Ancaq cənab Prezident İlham Əliyevin aprelin 22-də Pekinə dövlət səfəri, onun çox yüksək səviyyədə qarşılanması və xüsusən, mühüm sənədlərin imzalanması ilə bağlı Çindəki dostlarımdan saysız-hesabsız təbriklər aldım. Telefon zəngləri bir-birini əvəz elədi və həmsöhbətlərimdən dünyanın qeyri-müəyyənlik içərisində yaşadığı günlərdə dövlət başçılarının səmimi dostluğunu alqışlayan çoxsaylı fikirlər eşitdim. "Azərbaycan kiçik ölkə deyilmiş" – deyənlər də oldu, "Dövləti ölkənin coğrafi göstəriciləri yox, liderin siyasi səviyyəsi qüdrətli edir" – deyənlər də. "Prezidentin bu səfəri Azərbaycanı milyarddan çox çinlinin gözündə ucaltdı" – fikrini dilə gətirən də oldu, "Çin liderinin kiçik qardaşı Pekinə xoş gəlib!" söyləyənlər də.

Yanşan Universiteti Humanitar elmlər və Hüquq Məktəbinin (Dövlət İdarəetməsi Məktəbinin) nüfuzlu professoru Lyu Banqfan isə liderlərin dostluğundan danışarkən fikrini belə yekunlaşdırdı: "Liderlərin dostluğu xalqlarımızın dostluğundan qaynaqlanır". Mən dövlətlərimiz arasında əməkdaşlığı yüksək qiymətləndirən hörmətli professora minnətdarlığımı bildirdim.

Dövlət başçımızın möhtəşəm səfəri barədə öz təəssüratlarıma gəlincə isə xatırladım ki, cənab İlham Əliyevin qarşılanması zamanı nümayiş etdirilən inam və ehtiram məni nə qədər qürurlandırmışdısa, aprelin 23-də "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat"ın imzalanması bir o qədər sevindirdi. Sənəddə qeyd edilir ki, dövlət başçıları diplomatik münasibətlərin qurulmasından ötən 33 il ərzində Azərbaycan – Çin əlaqələrinin inkişafındakı nailiyyətləri yüksək qiymətləndirərək səmimi və dostluq mühitində danışıqlar apardılar: "Hər iki ölkənin bir-birini prioritet təşkil edən, etibarlı və qarşılıqlı faydalı strateji tərəfdaş kimi nəzərdən keçirdiyini təsdiq edərək, qarşılıqlı siyasi etimadı daim möhkəmləndirməyə, qarşılıqlı dəstəyi gücləndirməyə, hər iki ölkənin xalqlarının mənafeyi naminə hərtərəfli əməkdaşlığı inkişaf etdirməyə hazır olduqlarını ifadə edərək, hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması barədə yekdilliklə qərar qəbul etdilər".

Eləcə də, mənim elmi işimin istiqamətinə bilavasitə dəxli olan "Tərəflər ... yüksək dayanıqlılıq və uzunmüddətli sabitliyə malik yeni birgə inkişaf məkanı yaratmaq üçün "Bir kəmər, bir yol" təşəbbüsünün Azərbaycanın "İpək Yolunun dirçəldilməsi" Dövlət İnkişaf Strategiyası və 2030-cu ilə qədər olan sosial-iqtisadi İnkişaf Strategiyası ilə uyğunlaşdırılmasını möhkəmləndirmək barədə razılaşdılar" – tezisindən xüsusilə məmnun oldum.

Bundan başqa, tərəflərin müxtəlif kanallar vasitəsilə qarşılıqlı tələbə mübadiləsini davam etdirmək, Azərbaycanda Konfutsi institutlarının inkişafına dəstək vermək və təhsil müəssisələrində Azərbaycan və Çin dillərinin tədrisini təşviq etmək, habelə iki ölkənin müxtəlif tipli təhsil müəssisələri arasında müxtəlif səviyyəli tərəfdaşlıq əlaqələrinin qurulması barədə razılığa gəlməsi də bir doktorant kimi məni sevindirdi.

Xatırladım ki, bəyanatın 11-ci bəndində öz əksini tapmış müddəalar təkcə bu iki ölkə üçün deyil, ümumilikdə planetimiz üçün əlamətdar olan məsələlər barədədir. Həmin sənədə görə Çin BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) uğurla keçirilməsi münasibətilə Azərbaycanı təbrik edir: "Hər iki tərəf COP29-un nəticələrini iqlim dəyişikliyi ilə mübarizə üzrə qlobal fəaliyyətə mühüm töhfə verəcək tarixi nailiyyət və dönüş nöqtəsi kimi alqışlamışdır".

Bəyanatın həmin bəndi ümumilikdə, dünyamızın sabahı üçün narahat olan insanların birgə fəaliyyət göstərməsini alqışlayırsa, 17-ci bənd qismən lokal məzmunludur. Yəni qeyd olunur ki, Çin Azərbaycanın Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri Müşavirəsində (AQEM) sədrliyini dəstəkləyir və Azərbaycan tərəfinin AQEM-in inkişafına yönəlmiş "Daha Güclü AQEM: Asiyada qarşılıqlı əlaqə, rəqəmsallaşma və davamlı inkişaf" mövzusunda silsilə tədbirlərin keçirilməsi üzrə səylərini yüksək qiymətləndirir.

Sonda xatırladım ki, mən bu sətirləri ünvanladığım "Xalq qəzeti" ötən il 105 yaşını qeyd etmişdi. Bu ilin sentyabrında isə doktorantı olduğum Yanşan Universitetinin 105 yaşı tamam olur. Mən məmnunam ki, qalib Azərbaycanın müzəffər Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasına dövlət səfərinin reallaşdırılması, tərəflərin tələbə mübadiləsi istiqamətində müvafiq razılaşmalar imzalaması, eləcə də Azərbaycanda Çin Universitetinin yaradılması üçün danışıqlar aparılması bu gün auditoriyalarında elmi məqaləmin əsaslandırılması yollarını tapdığım, kampusunda sivil doktorant həyatı yaşadığım universitetin 105 illiyinə təsadüf edir. Ancaq çinli dostlarım deyirlər ki, dünyada təsadüfi heç nə olmur...

***Sadiq QAÇAYEV,***
***Yanşan Universitetinin dövlət idarəetməsi ixtisası üzrə doktorantı***

# Bakı–Pekin: bəşəri dəyərlər üzərində əməkdaşlıq

**Azərbaycan Respublikasının çoxvektorlu xarici siyasətinin əsas istiqamətlərindən birini də "Asiya nəhəngi" adlandırılan Çin Xalq Respublikası (ÇXR) ilə ikitərəfli əlaqələrin inkişaf etdirilməsi təşkil edir. Ölkələrimiz arasında münasibətlərin xronologiyasına nəzər saldıqda əlaqələrin yalnız yüksələn xətt üzrə inkişaf etdiyini görmək mümkündür. Sevindirici haldır ki, indiyədək əlaqələrdə heç zaman eniş olmayıb.**



Azərbaycanın dövlət müstəqilliyinin 1991-ci il dekabrın 27-də ÇXR tərəfindən tanınması və 1992-ci il aprelin 2-də ikitərəfli diplomatik münasibətlərin qurulması ilə Bakı–Pekin münasibətləri yeni mərhələyə qədəm qoyub. 1992-ci ildə ÇXR-in Azərbaycanda, 1993-cü il sentyabrın 3-də isə Azərbaycanın Çində səfirliyi açılıb. Onu da qeyd etmək lazımdır ki, iki ölkə arasında diplomatik münasibətlərin 1992-ci ildə qurulmasına rəğmən ilk dövrlərdə bu əlaqələrdə zəif inkişaf qeydə alınırdı. Azərbaycanda əvvəlki hakimiyyətin Çinə yanaşma tərzi münasibətlərdə qarşılıqlı etimadsızlığa gətirib çıxarmışdı. Hər iki tərəf əlaqələrin inkişafına həvəssiz yanaşırdı. Yalnız ulu öndər Heydər Əliyevin 1994-cü il martın 7-10-da bu ölkəyə etdiyi rəsmi səfər, Pekində keçirdiyi yüksək səviyyəli görüşlər, o cümlədən ÇXR sədri Tszyan Tszemin tərəfindən rəsmi qarşılanma mərasimi, bir sıra sənədlərin imzalanması əlaqələrin üstün səviyyəyə qalxmasına səbəb oldu.

Prezident İlham Əliyevin səfərlərinin tarixinə nəzər saldıqda isə dövlətimizin başçısının 2005-ci il martın 17-19-da Çinə rəsmi səfər, 2008-ci il avqustun 8-də işgüzar səfər, 2014-cü il mayın 20-21-də işgüzar səfər, 2015-ci il dekabrın 8-11-də dövlət səfəri və 2019-cu il aprelin 24-27-də işgüzar səfər etdiyini görmək mümkündür. Bu səfərlər göstərir ki, Azərbaycan Respublikası ÇXR-lə münasibətlərə xüsusi əhəmiyyət verir və əlaqələrin bütün sahələr üzrə genişləndirilməsində maraqlıdır. Məhz iki ölkənin dövlət başçıları səviyyəsində təşəkkül tapmış, qarşılıqlı etimada və dostluğa əsaslanan münasibətlər siyasi, iqtisadi, hərbi, humanitar, mədəni və digər sahələrdə müşahidə olunan hazırkı yüksək inkişaf dinamikasının əsasını təşkil edir. İki ölkə arasında mövcud fəal siyasi dialoq nəticəsində energetika, ticari-iqtisadi, rabitə-kommunikasiya, nəqliyyat-logistika, turizm və humanitar sahələrdə ciddi nailiyyətlər əldə edilməkdədir.

Ötən il iyulun 3-də Astanada keçirilən Şanxay Əməkdaşlıq Təşkilatının sammiti çərçivəsində "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə" imzalandı. Bəyannamədə xüsusi olaraq qeyd edildi ki, 1992-ci il aprelin 2-də diplomatik münasibətlərin qurulduğu andan sonra ikitərəfli əməkdaşlığımız bir çox səmərəli nəticə verib. Bununla yanaşı, tərəflər əməkdaşlığı gələcəkdə də genişləndirməyə, beynəlxalq məsələlərdə qarşılıqlı fəaliyyəti möhkəmləndirməyə, iki ölkənin ümumi maraqlarını birlikdə müdafiə etməyə, həmçinin regional və qlobal sülh, sabitlik və inkişaf fəaliyyətinin birgə təşviq olunmasına razılaşdılar. Prezident İlham Əliyev imzalanmış sənədin əhəmiyyəti barədə fikirlərini bir neçə gün öncə Çinin "Sinxua" agentliyinə müsahibəsində belə qiymətləndirib: "Hesab edirəm ki, bizim Astanadakı görüşümüz və onun yekunlarına dair qəbul edilən birgə bəyannamə tarixi hadisədir və Azərbaycan–Çin münasibətlərində yeni səhifə açır. ÇXR-in Sədri Si Cinpin ilə ikitərəfli görüş əsnasında çıxışımda qeyd etdim ki, qəbul olunan bəyannamə ÇXR və Azərbaycanı rəsmi strateji tərəfdaşlara çevirir və bu, böyük nailiyyət, böyük məsuliyyətdir..."

Cənab İlham Əliyevin ÇXR-ə 2025-ci il aprelin 22-24-də etdiyi dövlət səfəri çərçivəsində aprelin 23-də imzalanmış "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat"ın isə iki ölkənin əlaqələrinin daha üstün səviyyəyə qalxmasına xidmət edəcəyi şübhəsizdir.

*

Bəyanatda əksini tapan digər məqamlarla yanaşı, Çinin BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) uğurla keçirilməsi münasibətilə Azərbaycanı təbrik etməsi, onun nəticələrini iqlim dəyişikliyi ilə mübarizə üzrə qlobal fəaliyyətə mühüm töhfə verəcək tarixi nailiyyət və dönüş nöqtəsi kimi qiymətləndirməsi diqqəti cəlb edir. Belə bir bəndin sənəddə öz əksini tapması dünyada gedən proseslərdə mühüm rola malik olan bir dövlətin Azərbaycanın iqlim dəyişikliyi ilə qlobal mübarizə səylərinə verdiyi dəyərin ifadəsi kimi qəbul olunmalıdır. Eyni zamanda, qeyd etmək lazımdır ki, ÇXR Sədri Si Cinpin Prezident İlham Əliyev ilə geniş tərkibdə görüşündə də bu məsələyə toxundu. Si Cinpin COP29-un Azərbaycanda uğurla keçirilməsi və Qlobal Cənubun maraqlarının təmsil olunması baxımından Azərbaycanın fəaliyyətini yüksək qiymətləndirdi.

Bundan əlavə, sənəddə tərəflərin bütün ölkələri qlobal iqlim idarəçiliyi prosesini dəstəkləməyə, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına və Paris sazişinə uyğun olaraq öhdəlik və məsuliyyətləri tam və vicdanla yerinə yetirməyə çağırmaları Bakı və Pekinin qlobal iqlim dəyişikliyi ilə mübarizə məsələsində öz məsuliyyətlərini dərk etməklə yanaşı, digər dövlətləri də buna təşviq etmələrinin göstəricisi sayıla bilər. Həmçinin bəyanatda özünə yer tapan "Tərəflər inkişaf etmiş ölkələri öz tarixi öhdəliklərinə ləyaqətlə yanaşmağa, inkişaf etməkdə olan ölkələrə maliyyə, texnoloji və intellektual dəstək verməyə, inkişaf etməkdə olan ölkələrə iqlim dəyişikliyinə qarşı mübarizə imkanlarının gücləndirməsində kömək etməyə çağırırlar" sözləri Azərbaycan və Çinin bu məsələdə də ortaq dəyərləri bölüşdüklərini nümayiş etdirir.

Gələn il Bakıda 13-cü Ümumdünya Şəhərsalma Forumunun keçirilməsini nəzərə alaraq, Çin tərəfinin Azərbaycana dəstəyini ifadə etməsi, sıx və səmərəli əməkdaşlığa hazır olduğunu təsdiqləməsi də diqqətəlayiq nüansdır.

*

Çinin Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri Müşavirəsində (AQEM) Azərbaycanın sədrliyini dəstəkləməsi və ölkəmizin bu təşkilatın inkişafına yönəlmiş "Daha güclü AQEM: Asiyada qarşılıqlı əlaqə, rəqəmsallaşma və davamlı inkişaf" istiqamətində silsilə tədbirlərin keçirilməsi üzrə səylərini yüksək qiymətləndirməsi də Pekinin Bakıya real dəstəyinin ifadəsi sayıla bilər. Onu da qeyd etmək lazımdır ki, AQEM-in zirvə görüşlərinin yekun bəyannamələrində, eləcə də nazirlər iclaslarının sənədlərində, davamlı olaraq separatizmin dövlətlərin sabitliyi, suverenliyi və ərazi bütövlüyünə təhdid kimi pislənilməsi və üzv dövlətlər arasındakı münasibətlərin bir-birinin ərazi bütövlüyünə, suverenliyinə və beynəlxalq səviyyədə tanınmış sərhədlərinə hörmət prinsipləri əsasında qurulmalı olduğunun qeyd edilməsi Çin və Azərbaycanın yürütdüyü xarici siyasətin üst-üstə düşən məqamlarıdır. Yeri gəlmişkən, qeyd edək ki, AQEM Nazirlər Şurasının 2024-cü il 19 mart tarixli qərarı ilə 2024–2026-cı illər üzrə müşavirəyə sədrlik ölkəmizə keçib. AQEM-ə sədrlik çərçivəsində, AQEM-in Biznes Şurasına və Gənclər Şurasına sədrliyin də həmin dövr üçün Azərbaycan tərəfindən həyata keçirilməsi nəzərdə tutulub.

Ölkələrimizi birləşdirən ortaq dəyərdən biri də Azərbaycan və Çinin müasir dünya nizamı və dünyada gedən proseslərə ortaq mövqedən baxmasıdır. Beynəlxalq münasibətlərin BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə əsaslanan əsas normalarının qorunmasına səy göstərilməsi, hegemonluğa və güc siyasətinə qarşı çıxılması, hər iki ölkənin ümumbəşəri dəyərlərin – sülh, inkişaf, bərabərlik, ədalət, demokratiya və azadlığın təşviqinin lehinə çıxış etməsi, yeni növ beynəlxalq münasibətlərin və bəşəriyyətin vahid taleyi birliyinin yaradılmasına səy göstərmələri isə təkcə Bakı və Pekinin deyil, bu dəyərləri bölüşən bütün dünya xalqlarının mövqeyini əks etdirir.

Birgə bəyanatda əksini tapan amillərdən çıxış edərək qeyd edə bilərik ki, Azərbaycan–Çin münasibətləri bundan sonra daha da inkişaf edəcək, hər iki dövlətin və xalqın, eləcə də bütövlükdə, planetin maraqlarının təmin olunması baxımından yeni impuls qazanacaq.

***Səxavət HƏMİD***
***XQ***

### Ekspert rəyi

**Fərhad MƏMMƏDOV,**
**Cənubi Qafqaz Tədqiqatlar Mərkəzinin direktoru, politoloq**



– Aprelin 23-də imzalanmış hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında birgə bəyanat siyasi dialoqdan tutmuş iqtisadi əməkdaşlığın dərinləşdirilməsinə, nəqliyyat və logistika dəhlizlərinin dəstəklənməsinə və dünya nizamına ümumi yanaşmaya qədər geniş spektri əhatə edir. 2024-cü ildə isə iki ölkə arasında strateji tərəfdaşlığın qurulması haqqında birgə bəyannamə imzalanmışdı. Ötən ildən etibarən rəsmi strukturlardan və özəl sektordan çoxsaylı nümayəndə heyətləri Bakı və Pekinə səfər ediblər. Bu günə qədər imzalanmış sənədlər bərpa olunan enerjiyə investisiyalar və texnologiyalar sahəsini əhatə edir.

Təbii ki, Azərbaycana investisiyalar və birgə istehsal imkanları, texnologiyalar və nəqliyyat marşrutları ilə daşınan yüklərin həcminin artırılması lazımdır. Bütün bu məsələlərdə Çinlə danışıqlar aparmaq çox çətindir, çünki onların ixraca və minimum idxala əsaslanan öz məntiqi var. Lakin dünya ticarətində mövcud vəziyyət və ABŞ-la qarşıdurma Çinin ənənəvi yanaşmalarına təsir edə bilər. Çünki Çin sərhədindən Avropa İttifaqı məkanına gedən marşrutlarda Pekinlə yaxşı münasibətlərə malik ölkələr yerləşir: Mərkəzi Asiya ölkələri, İran, Azərbaycan, Gürcüstan.

Prezident İlham Əliyevin Çinə dövlət səfəri də Vaşinqton və Pekin arasında "tarif müharibəsi"nin qızışdığı vaxta təsadüf etdi. ABŞ və Çin arasında qarşıdurma getdikcə güclənir və dayanma əlaməti yoxdur. Bu vəziyyət fonunda dövlətimizin başçısı Çinə səfər etdi və həftənin sonunda İran Prezidentinin Azərbaycana səfəri gözlənilir. Azərbaycan "tarif müharibə"sinin kənarındadır, heç bir münaqişə iştirakçısı deyil və şəxsi infrastruktur sahibidir. Bununla yanaşı, Azərbaycan Asiya istiqamətində fəaldır. Münasibətlərimizin dərinləşdiyi Mərkəzi Asiya ölkələri, Pakistan və müəyyən dərəcədə ərəb ölkələri Çinin strateji tərəfdaşlarıdır.

Şanxay Əməkdaşlıq Təşkilatı Çin üçün Asiyada təhlükəsizlik məsələlərini müzakirə etmək üçün mühüm platformadır. Azərbaycan isə ŞƏT-də iştirak səviyyəsini artırır. Bununla yanaşı, rəsmi Bakı Azərbaycanın Rusiya–Çin və İran–Çin formatında münasibətlərin kölgəsinə düşməsinə imkan vermir. Azərbaycan müstəqil dövlətdir və ölkəmizin Çinlə münasibətləri üçüncü dövlətlərin Pekinlə münasibətləri ilə şərtlənməməlidir. Qlobal səviyyədə proseslərin necə inkişaf etməsindən asılı olmayaraq, Çin güc mərkəzlərindən biri olaraq qalacaq və Pekinlə yüksək səviyyədə münasibətlərin olması zəruri və vacibdir.

# Şərqdən Qərbə etimad və birgə fəaliyyət körpüsü

## *Azərbaycan–Çin mədəni-humanitar əlaqələri intensivləşir*

**Azərbaycan BMT Təhlükəsizlik Şurasının daimi üzvü, iqtisadiyyatın həcminə görə dünyada ikinci dövlət olan Çinlə münasibətlərin inkişafını daim diqqət mərkəzində saxlayır. Hazırda iki ölkə arasında əlaqələr dinamik və hərtərəfli inkişaf dövrünü yaşayır, ölkələrimizin siyasi, iqtisadi-ticari, humanitar sahələrdə əməkdaşlığı gündən-günə möhkəmlənir. Beynəlxalq vəziyyətin dəyişməsindən asılı olmayaraq, Azərbaycan–Çin münasibətləri öz inkişaf dinamikasını qoruyub saxlayıb. İki ölkə qarşılıqlı hörmət, bərabərlik və qarşılıqlı faydalı əməkdaşlıq prinsipləri əsasında inkişaf edərək, strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasına növbəti dövlət səfəri də bu münasibətlərin daha da möhkəmləndirilməsi məqsədi daşıyır. Qeyd edək ki, Azərbaycan və Çin bir-birinin suverenliyini, müstəqilliyini, ərazi bütövlüyünü, milli şəraitə uyğun inkişaf yolunu hər zaman dəstəkləyiblər. Bütün sahələrdə əməkdaşlığı, iqtisadi-ticari əlaqələri, o cümlədən rəqəmsal iqtisadiyyat, "yaşıl enerji", elm və texnologiya sahələrində əməkdaşlığı genişləndirməkdədir.

Aprelin 23-də Pekində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasının Sədri Si Cinpin ilə geniş tərkibdə görüşü zamanı bir sıra vacib məqamlara toxunub. Dövlətimizin başçısı çıxışında "Vahid Çin" siyasətini həmişə dəstəklədiyini və Tayvanda keçirilmiş seçkiləri birmənalı şəkildə pislədiyini qeyd edib. Azərbaycan və Çinin terrorizm, ekstremizm və separatizmə qarşı birgə səylərlə mübarizəsi xüsusi qeyd olunub.

Ölkələrimizin beynəlxalq təşkilatlar, o cümlədən BMT, Şanxay Əməkdaşlıq Təşkilatı, BRICS və digər təsisatlarda əməkdaşlıq məsələlərinə və qarşılıqlı dəstəklərinə toxunulub. ÇXR Sədri Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın inkişafını və əldə etdiyi nailiyyətləri məmnunluqla qeyd edib, Azərbaycanın Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri Müşavirəsinə (AQEM) sədrliyini xüsusi vurğulayıb. COP29-un Azərbaycanda uğurla keçirilməsi və Qlobal Cənubun maraqlarının təmsil olunması baxımından Azərbaycanın fəaliyyətini yüksək qiymətləndirib.



* * *

Ötən illər ərzində ölkələrimiz arasında elmi mübadilə uğurla inkişaf edib, Azərbaycanın akademik müəssisələrinin aparıcı alimləri ÇXR-da müxtəlif bilik sahələri üzrə keçirilən 100-ə yaxın elmi konfransda fəal iştirak ediblər. Azərbaycan Elmlər Akademiyası və Çin İctimai Elmlər Akademiyası arasında elmi əməkdaşlıq haqqında saziş imzalanıb, AMEA-nın Yüksək Texnologiyalar Parkında Azərbaycan-Çin Texnologiya Transferi Mərkəzi yaradılıb.

İki ölkənin ayrı-ayrı ixtisaslaşdırılmış elmi institutları arasında, o cümlədən Çinin Mühəndislik və Kənd Təsərrüfatı akademiyaları ilə birbaşa tərəfdaşlıq əlaqələri qurulmuş, AMEA Mərkəzi Elmi Kitabxanası və Çin Milli Kitabxanası arasında elmi və informasiya mübadiləsi aparılıb. Bu gün Çinin sürətli inkişafı onun elmi-tədqiqat işlərinə ayırdığı vəsaitlərin hesabınadır. Məlumdur ki, dayanıqlı inkişafın əsasında mühüm rol oynayan elmi-tədqiqatların dəstəklənməsi dünya təcrübəsində prioritet hesab edilir.

Ölkələrimiz arasında ticari-iqtisadi və tranzit-logistika layihələrinin reallaşdırılması ilə yanaşı, elm, texnika, texnologiya, İTK, rəqəmsallaşdırma, eləcə də mədəni-humanitar sahələrdə də fəaliyyətin genişlənməsi xarakterikdir. Bu baxımdan görünən odur ki, yaxın perspektivdə Azərbaycanla Çin arasında ticari-iqtisadi və logistika sahəsindəki əlaqələrlə yanaşı, adıçəkilən sahələrdə də səmərəli fəaliyyət intensivləşəcək. Qabaqcıl Çin texnologiyasından istifadə olunaraq birgə elmi-tədqiqat platformaları yaradılacaq. Çin və Azərbaycan dillərinin təhsil müəssisələrində tədrisinin, müəllimlər arasında mübadilənin və mütəxəssislər hazırlanmasının dövlət tərəfindən dəstəklənməsi dövlətlərin müxtəlif sahələrdə qarşılıqlı fəaliyyətinin səmərəliliyinə imkan yaradacaq, iki xalqın yaxınlaşmasına və qarşılıqlı mədəni zənginləşməsinə xidmət edəcək.

**Mövzu ilə bağlı Milli Məclisin deputatı Mahir Süleymanlı** XQ-yə bildirdi ki, Azərbaycan ilə Çin arasında qarşılıqlı etimad və hörmət əsasında uzun illər ərzində



inkişaf edən münasibətlər bu gün yeni bir zirvəyə – hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinə yüksəlir: "Prezident İlham Əliyevin Çin Xalq Respublikasına dövlət səfəri zamanı Pekində imzalanmış "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat" bu münasibətlərin keyfiyyətcə yeni mərhələyə keçdiyini təsdiqləyən mühüm sənəd oldu. Bəyanat iki ölkənin ortaq maraqlar və dəyərlər əsasında siyasi, iqtisadi, humanitar və ekoloji sahələrdə əməkdaşlığı daha da genişləndirmək əzmində olduğunu nümayiş etdirir. Azərbaycan tərəfi "Vahid Çin" siyasətinə sadiqliyini bir daha təsdiqləyir, Çin isə Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və regionda sülh təşəbbüslərinə açıq dəstək ifadə edir. Bu qarşılıqlı anlaşma və həmrəylik ikitərəfli münasibətlərin sabitliyini və davamlılığını təmin edən əsas dayaqlardan biridir. Xüsusi vurğulanmalı məqamlardan biri də Azərbaycanın "Bir kəmər, bir yol" təşəbbüsündə fəal iştirakıdır. Çin bu təşəbbüs çərçivəsində Azərbaycanı Cənubi Qafqazda əsas strateji tərəfdaş kimi qəbul edir, Bakı–Tbilisi–Qars dəmir yolu və Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizi kimi layihələrdə ölkəmizin rolu yüksək qiymətləndirilir. "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində Azərbaycanın milli inkişaf strategiyaları ilə uzlaşma, qarşılıqlı ticarətin və sərmayələrin təşviqi, nəqliyyat və logistika imkanlarının genişləndirilməsi, bərpaolunan enerji, sənaye, kənd təsərrüfatı, kosmos və rəqəmsal texnologiyalar sahəsində əməkdaşlıq bu tərəfdaşlığın əsas sütunları kimi müəyyənləşdirilib. Mədəniyyət, təhsil, turizm və media sahələrində qarşılıqlı əlaqələrin gücləndirilməsi də əsas prioritetlər sırasındadır. Səfər çərçivəsində imzalanmış sənədlər paketi vizasız rejimin tətbiqi, humanitar minatəmizləmə, elmi-tədqiqat, əqli mülkiyyət, ekoloji təhlükəsizlik və digər sahələrdə əməkdaşlığa dair razılaşmalar da rəsmiləşdirilib. Bu sənədlər münasibətlərin institusional əsaslarını genişləndirməklə, uzunmüddətli strateji tərəfdaşlıq üçün etibarlı hüquqi baza formalaşdırır.

Tərəfdaşlığın humanitar ölçüsündə Heydər Əliyev Fondunun fəaliyyəti xüsusilə qeyd olunmalıdır. Fondun təşəbbüsü ilə həyata keçirilən layihələr – o cümlədən Çin ilə mədəniyyətlərarası dialoqu təşviq edən tədbirlər, sərgilər, təhsil və mübadilə proqramları – xalqlar arasında qarşılıqlı anlaşmanın və dostluğun möhkəmlənməsinə mühüm töhfə verir. Fondun bu istiqamətdə fəaliyyəti Çin ictimaiyyətində geniş rəğbət qazanır və Azərbaycan brendinin beynəlxalq səviyyədə tanınmasına xidmət edir.

Prezident İlham Əliyevin uzaqgörən və prinsipial xarici siyasəti sayəsində formalaşan bu tərəfdaşlıq Azərbaycanın regional və qlobal miqyasda mövqeyini daha da gücləndirir, ölkəmizi Şərqlə Qərbi birləşdirən sabitlik və əməkdaşlıq körpüsü kimi təqdim edir.

Bu gün Azərbaycan – Çin münasibətləri iki ölkə arasında ticari-iqtisadi əlaqələrin inkişafına geniş imkanlar açır. Dövlətlərarası sərmayələrin təşviqi, imzalanan sazişlər, iqtisadi əməkdaşlığa dair sənədlər mühüm önəm daşıyır. Azərbaycan Prezidenti İlham Əliyevin son illərdə Çinə olan səfərləri, eləcə də müxtəlif beynəlxalq səviyyəli tədbirlərdə Çinin dövlət və hökumət başçıları ilə görüşləri əlaqələrin daha da inkişafına səbəb olur, müxtəlif sahələrdə əməkdaşlığın genişlənməsinə sanballı töhfələr verir.

***Azər MUSTAFAYEV***

# Strateji tərəfdaşlığa ucalan müttəfiqlik

(əvvəli 1-ci səhifədə)

Pakistan bu günə qədər Ermənistanı tanımayan və onunla diplomatik münasibətlər qurmaqdan imtina edən nadir dövlətlərdən biridir. Onun bu qərarı təkcə emosional və ya dini həmrəylikdən doğmamış, beynəlxalq hüququn fundamental prinsiplərinə – dövlətlərin suverenliyi, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığına hörmət üzərində qurulmuş siyasi mövqeyin təzahürüdür. Pakistanın bu siyasəti həm də beynəlxalq münasibətlər sistemində ədalət və haqqın tərəfində yer almaq istəyinin ifadəsidir.

Ermənistanın Azərbaycanın tarixi torpaqlarını işğal etməsinə qarşı Pakistanın sərgilədiyi bu qətiyyətli mövqe, əslində, ikitərəfli münasibətlərdə az hallarda rast gələnən bir diplomatik fədakarlıq nümunəsidir. Diplomatik münasibətlərin qurulması beynəlxalq siyasətdə mühüm alət sayıldığı bir vaxtda, Pakistan kimi regional güc sahibi olan bir dövlətin belə münasibətdən qəsdən imtina etməsi onun Azərbaycanla olan qardaşlığının dəyərini daha da artırır. Pakistanın bu addımı həm də regional və beynəlxalq ictimaiyyətə bir mesaj idi: ədalət uğrunda prinsipiallıq zaman-zaman siyasi və iqtisadi maraqların fövqündə dayanmalıdır.

44 günlük Vətən müharibəsi zamanı Pakistanın siyasi rəhbərliyindən tutmuş, ictimaiyyətinə qədər hər səviyyədə Azərbaycana göstərilən dəstək bu prinsipiallığın sadəcə, sözlərlə deyil, əməli davranışla da təsdiq edildiyini göstərdi. Pakistan parlamentində ölkəmizin haqq işinə dair qəbul edilən qətnamələr, paytaxt İslamabadda Azərbaycanın milli bayrağının qaldırılması və kütləvi informasiya vasitələrində yayımlanan dəstək çağırışları bu qardaşlığın ictimai şüurda nə qədər dərindən kök saldığını ortaya qoydu.

Bütün bunlar onu göstərir ki, Pakistanın Ermənistanla diplomatik əlaqə qurmaqdan imtinası təsadüfi və ya müvəqqəti taktiki addım deyil, strateji və mənəvi dəyərlərə söykənən uzunmüddətli siyasi qərardır və belə bir mövqe XXI əsrin çoxqütblü və tez dəyişən diplomatik konfiqurasiyasında nümunəvi davranış kimi qəbul olunmalıdır.

Bu gün Azərbaycan–Pakistan münasibətləri XXI əsr reallıqları fonunda formalaşan çoxşaxəli strateji tərəfdaşlığın parlaq təzahürüdür. Xüsusilə müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlıq bu tərəfdaşlığın ən mühüm komponentlərindən biri kimi önə çıxır. 2021-ci ildən etibarən Azərbaycan, Türkiyə və Pakistanın iştirakı ilə keçirilən "Üç qardaş" hərbi təlimləri artıq ənənə halını alıb və regionun hərbi-siyasi gündəmində mühüm yer tutur.



Hərbi təlimlər ilk dəfə 2021-ci ilin sentyabr ayında Bakıda keçirildi və üç qardaş ölkənin strateji hərbi koordinasiya imkanlarını nümayiş etdirdi. "Üç qardaş" hərbi təlimləri, əslində, regionda qeyri-dost qüvvələrə yönəlmiş açıq geosiyasi mesaj idi: Azərbaycan, Türkiyə və Pakistan artıq vahid təhlükəsizlik məkanında birləşirlər.

Əlavə olaraq qeyd edilməlidir ki, Pakistan, Türkiyə və Azərbaycanın üçtərəfli əməkdaşlıq platforması artıq enerji təhlükəsizliyi, nəqliyyat dəhlizləri (məsələn, Bakı–Tbilisi–Qars dəmir yolu və Cənub–Şərqi Asiyanı Qafqaza bağlayan potensial marşrutlar), regional logistika və diplomatik koordinasiya sahələrinə də sirayət edir və qlobal güc mərkəzlərinin dəyişən nisbətləri fonunda yeni bir inteqrasiya modelinin yaranmasına zəmin yaradır.

Azərbaycan öz növbəsində Pakistanın strateji təşəbbüslərinə də aktiv dəstək verir. Orta Dəhliz–Çindən Avropaya qədər uzanan nəqliyyat marşrutunun əhəmiyyəti artdıqca, Pakistanın bu dəhlizə inteqrasiyası, xüsusilə Qvadar limanı ilə Bakı limanı arasında əlaqələrin qurulması Cənubi Asiya ilə Qafqaz və Avropa arasında yeni ticarət magistralının formalaşmasına zəmin yaradır.

Eyni zamanda, Cənub-Cənub əməkdaşlığı çərçivəsində Bakı və İslamabad arasında ticarət və logistika sahəsində qarşılıqlı maraq artmaqdadır. Azərbaycanın Zəngəzur dəhlizi ilə bağlı təşəbbüsləri və Pakistanın Çin–Pakistan İqtisadi Dəhlizi layihəsi bu iki dövlətin nəqliyyat və enerji sahəsində tamamlayıcı rollar oynaya biləcəyini göstərir. Çin–Pakistan İqtisadi Dəhlizi Çinin "Bir kəmər, bir yol" təşəbbüsünün bir hissəsidir və layihənin əsas məqsədi Çinə qısa və təhlükəsiz ticarət marşrutu təqdim etməklə yanaşı, Pakistanın enerji və infrastruktur potensialını artırmaqdır.

Azərbaycan və Pakistan arasındakı strateji tərəfdaşlığın mühüm sütunlarından biri də beynəlxalq təşkilatlar çərçivəsində nümayiş olunan qarşılıqlı dəstək və diplomatik həmrəylikdir. Hər iki ölkə müxtəlif beynəlxalq və regional qurumlarda, xüsusilə Qoşulmama Hərəkatı (QH), İslam Əməkdaşlıq Təşkilatı (İƏT) və Birləşmiş Millətlər Təşkilatı (BMT) kimi platformalarda bir-birinin maraqlarını ardıcıl şəkildə müdafiə edirlər.

Azərbaycanın 2019–2023-cü illərdə Qoşulmama Hərəkatına sədrlik etdiyi dövrdə Pakistan bu təşkilatın fəaliyyətində mühüm tərəfdaşlardan biri kimi çıxış etdi. Ermənistanın işğalçı siyasətini ifşa etmək, Azərbaycanın ərazi bütövlüyünə dəstək ifadə etmək və Cənubi Qafqazda sülh və sabitlik çağırışlarını beynəlxalq tribunalara çıxarmaq üçün Pakistan daim fəal diplomatik mövqe nümayiş etdirdi. Eyni zamanda, Azərbaycan da Pakistanın Kəşmir məsələsində ədalətli və beynəlxalq hüquqa əsaslanan mövqeyini ardıcıl şəkildə dəstəkləyir. Azərbaycan rəsmiləri bu problemin BMT qətnamələri və beynəlxalq hüquq normaları çərçivəsində həll olunmasının vacibliyini vurğulayır, Pakistanın ərazi bütövlüyünə hörmət prinsipinə sadiqliyini nümayiş etdirirlər.

İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində də Azərbaycan və Pakistan daima bir-birinin maraqlarını dəstəkləyən qətnamələrin qəbulunda koordinasiyalı şəkildə çıxış edirlər. İƏT toplantılarında Azərbaycanın Ermənistanın dini və mədəni irsə qarşı törətdiyi vandalizm aktlarını gündəmə gətirməsi və Pakistanın buna aktiv dəstək verməsi, iki ölkənin İslam dünyasında həmrəyliyini gücləndirən mühüm amillərdəndir. Deməli, Azərbaycan – Pakistan münasibətləri artıq regional müttəfiqlik çərçivəsini aşaraq beynəlxalq platformalarda strateji və ideoloji həmrəyliyə çevrilib.

Sonda qeyd etmək istərdik ki, bu münasibətlər regional təhlükəsizlik arxitekturasının yenidən qurulmasında və İslam dünyasında həmrəylik modelinin formalaşmasında mühüm rol oynayacaq.

***Şəbnəm ZEYNALOVA,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Kaya Kallas Avropa İttifaqının Azərbaycana qərəzini dayandıra biləcəkmi?




## Bu xanım Ermənistanın silahlandırılmasında fəal iştirak edib

**Azərbaycan 44 günlük Vətən müharibəsində və 23 saatlıq antiterror əməliyyatında şanlı qələbələr qazandıqdan sonra özünə yeni dostlar və yeni düşmənlər qazandı. Dostlar Bakıya səfərə gələrək 30 illik Ermənistan işğalından və vandallığından azad edilmiş Qarabağa gedir, burada ermənilər tərəfindən həyata keçirilmiş vəhşiliklərlə, bütöv şəhər və kəndlərin dağıdılaraq yerlə-yeksan edilməsini görür, eyni zamanda, Azərbaycanın 20 faizdən artıq ərazisini əhatə edən bu torpaqlarda aparılan genişmiqyaslı tikinti işlərinin şahidi olurlar.**

Eyni zamanda, Azərbaycana dost olmayan, birmənalı şəkildə təcavüzkar, terrorçu Ermənistanın yanında dayanan ölkələrdən və beynəlxalq təşkilatlardan gələnlər də olur. Budur, indiyədək Azərbaycanın işğal altındakı ərazilərində daşı-daş üstə qoymamış, bizim mədəni, dini və tarixi abidələrimizi viranəyə çevirmiş, məscidlərimizdə donuz saxlamış Ermənistana dəstək verən Avropa İttifaqının (Aİ) xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Kaya Kallas Azərbaycana səfərə gəlir.



Kallasın gəlişi bu günə nəzərdə tutulur. Aİ-nin rəsmi saytında bununla bağlı yayılmış məlumatda bildirilir ki, ali nümayəndə Azərbaycan Prezidenti İlham Əliyevlə görüşəcək. Xarici işlər naziri Ceyhun Bayramovla görüşdən sonra isə birgə mətbuat konfransı keçiriləcək. Kallasın gənc Avropa səfirləri ilə görüşü də nəzərdə tutulub.

Əlbəttə, xanım Kallasın da, onun sələfi olmuş Aİ rəhbərlərinin də Azərbaycana və Ermənistana münasibəti bizə yaxşı məlumdur. İstər bu təşkilatda, istərsə də digər Qərb qurumlarında bir nəfər də bütün 30 il ərzində Azərbaycan ərazilərində törətdiyi vəhşilik və vandallıqlara görə Ermənistana "dur!" deyən olmayıb. Əksinə, bu dəhşətli əməllərə, Azərbaycan əhalisinə qarşı törədilmiş açıq-aşkar soyqırımı aktlarına susqunluqla cavab verilib. Sanki bütün bu əməllər Ermənistanın "demokratik dövlət" quruculuğunu təsdiqləyən faktlar kimi qəbul edilib. Əraziləri işğala və dağıntılara məruz qalmış Azərbaycana qarşı isə "qeyri-demokratik", "insan haqlarını pozan", "sərbəst toplaşmaq azadlığına imkan verməyən" ölkə imici qazandırmağa çalışıblar. Ermənilər Kəlbəcəri tərk edərkən bütün evlərə, meşələrə, heyvanlara od vurub yandıranda Aİ-də dad çəkirdilər ki, amandı, qoymayın, Azərbaycan erməni abidələrini dağıdacaq...

Bəlkə xanım Kallasın Azərbaycana səfəri qarşısında vəziyyət dəyişib? İnanmırıq! Yenə də köhnə hamam, köhnə tasdır. Sadəcə, indi Aİ rəsmiləri Azərbaycana qalib, qurucu ölkə kimi gəlirlər. Ermənistana isə "demokratiya", bəli, bəli, "əsl demokratiya" məbədi kimi baxmaqda davam edirlər. Azərbaycandan qaz almağa, Ermənistana isə silah verməyə tələsirlər.

Gəlin, hələlik xanım Kallasın Bakıya səfəri ərəfəsində Avropa Parlamentinin Fransadan olan deputatı Natali Luazonun ona müraciəti ilə tanış olaq: "Madam Kaya Kallas. Diplomatik turunuz çərçivəsində eyni vaxtda Ermənistana getməyi nəzərdə tutmadan, sistematik olaraq öz qonşusunu təhdid edən avtokratik ölkəyə səfərə getməyiniz doğru deyil. Ermənistan üzünü Avropaya çevirdiyi bir vaxtda, Bakı Aİ-nin üzvü olan dövlətə qarşı pozucu fəaliyyət aparır və Rusiyanın tərəfində çıxış edir".

Bəli, bu, fransız nümayəndəsinin çıxışıdır. Onun təmsil etdiyi ölkənin prezidenti Emmanuel Makronun da bizə və Ermənistana münasibəti məlumdur. Rəsmi Parisin hay qonşularımızın Azərbaycana qarşı terrorçuluq və etnik zəmində nifrət siyasətini böyük həvəslə dəstəklədiyini dünyada bilməyən yoxdur. Bizim Vətən müharibəsindən sonra isə Makron Ermənistana açıq-aşkar silah-sursat göndərməklə məşğuldur. Bu yandan da, məhz Makronun təşəbbüsü ilə Ermənistanda Aİ-nin müşahidə missiyası yerləşdirilib və son zamanlar bu missiya əməlli-başlı hərbi qüvvəyə çevrilməkdədir. Aİ tərəfindən rəsmi İrəvana hərbi yardımın göstərilməsi də bu prosesin davamıdır.

Avropa Sülh Fondu 44 günlük Vətən müharibəsindən sonra Ermənistanın silahlandırılmasında aktiv iştirak edən qurumlardan birinə çevrilib. Aİ özünün bu niyyətini məhz fond tərəfindən icra edir. Təbii ki, bütün bunlar Aİ ilə Ermənistan arasında keçən il aprelin 5-də Brüsseldə keçirilmiş görüşün praktik nəticələridir. Aİ rəsmiləri görüş zamanı razılaşdırılmış detalları, əslində, İrəvana silah göndərişləri barədə razılaşmaları gizli saxlamağa çalışsalar da, xoruzun quyruğu görünməkdədir. Bu, birmənalı şəkildə Azərbaycana qarşı hərbi paktdır. Adı və əməli arasında kəskin ziddiyyət olan Avropa Sülh Fondu isə nəinki regionda sülhə xidmət etmir, əksinə, eskalasiyaya, revanşizmə dəstək verir.

Bəs keçən il bu fonda 10 milyon avro həcmində "qeyri-hücum" yardımı ayrılması barədə təklifi Aİ Şurası qarşısında kim qaldırsa yaxşıdır? Hörmətli qonağımız Kaya Kallas! Nə yaxşı ki, Avropada Macarıstan kimi həqiqəti deyənlər var imiş. Macarıstan bu yardımın ayrılmasına imkan verməyib.

O, Aİ-nin Avropa sülh mexanizmi vasitəsilə Ermənistana əlavə 20 milyon avroluq hərbi yardım göstərməsinə də mane olub. Brüsseldəki diplomatik mənbə "Azadlıq" radiosunun erməni xidmətinə bildirib ki, Aİ xarici işlər nazirlərinin Lüksemburqda keçirilən iclasında Budapeşt qərara veto qoyub.

Macarıstan Azərbaycana da analoji yardımın göstərilməsini tələb edərək, Ermənistana bu vəsaitin ayrılmasına mane olub.

Budur, indi xanım Kallas bizim qonağımız olacaq. Görək, keçmiş SSRİ-də müttəfiq respublikalardan biri olan Estoniyanın baş naziri olmuş bu xanım Avropa İttifaqını Azərbaycana dost edə biləcəkmi?..

***Paşa ƏMİRCANOV***
***XQ***

# "Soyqırımı", haylar və buynuzu qaşınan keçi

## 110 ilin cəfəngiyyatı və müasir Ermənistan reallığı



**Başlayaq ondan ki, Ermənistanın baş naziri Nikol Paşinyan "Daşnaksütyun" Partiyasının qondarma "erməni soyqırımı"nın 110 illiyi ilə bağlı keçirilmiş aksiyasında Azərbaycanın və Türkiyənin bayraqlarının yandırılmasını qəti şəkildə pisləyib və bunu məsuliyyətsiz və qəbuledilməz hərəkət kimi qiymətləndirib. İlk baxışdan, normal münasibətdir. Nikolun qonşu dövlətlərin rəmzlərinə həqarəti başqa cür adlandırmağın qeyri-mümkünlüyünü vurğulaması da qənaətbəxş yanaşmadır. Bəs problem nədir? Yazımızda həm bu barədə danışacaq, həm də qondarma iddianın ildönümü ilə əlaqədar hay cəmiyyətindəki çağırışları diqqətə çatdırmaqla yekun nəticəyə gələcəyik.**

Məsələ ondadır ki, Ermənistan hakimiyyəti bütün beynəlxalq platformalarda anti-Azərbaycan fəaliyyətə üstünlük verir. Rəsmi İrəvan qeyri-səmimi mövqeyi ilə Azərbaycanı, habelə Türkiyəni düşmən obrazında görməyi xarakterik tendensiyaya çevirib. Yəni, ölkələrimizin bayraqlarının yandırılmasında hakim komandanın yeritdiyi kursun mütləq təsiri var. Sual olunur: Görəsən, Paşinyan İrəvanda Azərbaycana və Türkiyəyə qarşı böyük hörmətsizliyə və həqarətə münasibət bildirərkən, ağ yalan danışmasaydı olmazdı? Buna çoxmu ehtiyac var idi? Görünür, hay siyasi industriyasında yalana ehtiyac hər zaman var. Söhbət isə ölkəmizin Silahlı Qüvvələrinin Zəngəzurda dinc sakinə məxsus evi atəşə tutduğu cəfəngiyyatından gedir. Paşinyan olayı pisləyib və Azərbaycan hakimiyyətini hadisəni araşdırmağa çağırıb.

Sözümüz ondadır ki, Nikolun iki məsələni uğursuz eyniləşdirmək cəhdi, mahiyyətcə, bayraqların yandırılması olayını adekvat tədbir kimi göstərmək və ona haqq qazandırmaqdır. Deməli, baş nazirin dövlət rəmzlərimizə həqarəti pisləməsinin heç bir effekti olmayacaq. Çünki Paşinyanın Azərbaycanı pisləməsi hadisəyə leqallıq qazandırmaqdır.

Erməni cəmiyyəti nifrət və kin ritorikasını əsas tutur. Nəticədə, demək olar, başıpozuq haylar hər il 24 aprellə bağlı Azərbaycanın və Türkiyənin dövlət bayraqlarını yandırırlar. Ən pisi isə odur ki, Paşinyan və komandası duruma heç bir təsir göstərmir. Belə olan halda, bu komandanın Bakı ilə sülhə gəlmək, Ankara ilə münasibətləri normallaşdırmaq gündəmi gözdən pərdə asmaqdır.

*

Ermənistan dövlətinin, erməni cəmiyyətinin, dünya erməniliyinin "erməni soyqırımı" mifi ətrafında sıx birləşdiyinin şahidiyik. Hay toplumuna xas xəstəliyin bariz təzahür formalarının da həmçinin. Bu, adi məsələ deyil. Çünki xəstəlik erməniləri məzlum, əzilmiş xalq kimi qələmə vermək avantürizmi diri saxlayır. Axı məntiqi nəticə var və həmin nəticəyə görə, əzilənlərdə müqavimət hissi yaranır. 1988-ci ildə də belə olmuşdu. Guya, Qarabağın erməni əhalisi "Azərbaycanın zülmündən qurtulmaq" üçün silaha sarılmışdı. "Prosesin" qorxunc faciələrə yol açması, torpaqlarımızın işğalı reallığını doğurması isə yaxın tariximizin acı yaşantısıdır.

Bəli, əzilmişlik sindromu müasir erməni faşizminin, belə demək mümkünsə, ilham mənbəyidir. Bu mənbədən qidalanan Ermənistan dünən növbəti dəfə faşist təfəkkürlə nəfəs aldı. Qondarma "soyqırımı" iddiası həmin təfəkkür naminə, sanki, oksigen balonuna çevrildi. Sarkisyandan tutmuş II Qareginədək, "Ayakve"dən tutmuş "Daşnaqsütyun"adək hər bir qurum bir yandan "erməni soyqırımı" məsələsində Türkiyəni qınadı. Ankaranın saxta iddianı etiraf etməsinin vacibliyini bağıran sıraya düzüldü. Digər tərəfdən, Azərbaycan ermənilərə qarşı soyqırımı gerçəkləşdirmiş ölkə kimi göstərildi, ölkəmizə münasibətdə hədyanlar, ittihamlar səsləndi. Paşinyanın ünvanına da nalayiq ifadələr işlədi.

*

Nikol bütün "xoş sözlərə" layiqdir. Çünki onun rəhbərlik etdiyi hakimiyyət erməni cəmiyyətinə faşizmin çılpaq formasını göstərib. Nəzərə alaq ki, Paşinyana qədərki iqtidar Azərbaycanla danışıqlarda təzavüzkarlıq xislətini pərdələməyə çalışdığı halda, Nikol "Qarabağ Ermənistandır və nöqtə" bəyanatını verməklə, faşizmi körükləmək yolunu tutmuşdu. Bu gün də Nikol və komandası üçün gizli Qarabağ gündəliyi var.

Bəli, Ermənistanın beynəlxalq miqyasdakı əsas tərəfdaşı, Cənubi Qafqazda ambisioz niyyətlər gerçəkləşdirməyə çalışan Fransa prezidenti Emmanuel Makron özünün "X" sosial şəbəkəsindəki profilində erməni dilində post paylaşıb qondarma "soyqırımı"nı yada salırsa, populist sentimentallığa köklənib "faciə qurbanlarının" xatirəsinin yaşadılmasına dair çağırış səsləndirirsə, bunu insanlıq və haqq-ədalət naminə hərəkət kimi qiymətləndirirsə, deməli, N.Paşinyanın indiyədək açıqladığı hər fikir, həmçinin saxta iddiani şübhələndirmək təsiri bağışlayan sözlər tam mənasızdır. Rəsmi İrəvanın "erməni soyqırımı"nın beynəlxalq miqyasda tanınmasının Ermənistanın xarici siyasət gündəmində olmadığını açıqlaması da həmçinin. Kanadanın Ermənistandakı səfiri Endryu Ternet ölkəsinin "erməni soyqırımı"nı rəsmən tanıyan məmləkət olması ilə fəxr etdiyini vurğulayıb mövqeyini əsaslandırmaq üçün müxtəlif sərsəm məsələləri gündəmə gətirirsə, Ermənistanın saxta iddiadan kənar dayandığına necə inanasan?

Belə misallar kifayət qədər çoxdur və hesab etmirik ki, həmin misalların hamısını diqqətə çatdırmağa ehtiyac var. Çünki, onlar eyni cəfəngiyyatın nisbətən fərqli təqdimatlarıdır. Elə isə "erməni soyqırımı"nın 110 illiyi ilə bağlı başlıca məqama keçid alaq. Bu məqam hayların və onların havadarlarının mövzuya dair irəli sürdükləri mülahizələrlə tanışlıqdan sonra gəldiyimiz qənaətdir. Qənaət isə budur ki, qondarma iddia müasir erməni dövlətçiliyinin, Ermənistan Respublikasının mühüm ideoloji seqmenti, varlıq formuludur. Başqa sözlə desək, "soyqırımı" olmasa, dövlət də olmayacaq. Saxta iddianın inkarı isə Ermənistanın mövcudluğunun danılmasıdır.

İndilik Ermənistanın mövcudluğunun "parametri" Azərbaycanın və Türkiyənin bayraqlarının yandırılmasıdır. Deməli, erməni dövlətinin əsasını təşkil edən ölkənin İstiqlaliyyət bəyannaməsindəki ərazi iddiası məsələsi "aktuallığını" qoruyur. Həm də o səbəbdən qoruyur ki, tipik erməni təfəkkürünə görə, bayraqları yandırılan ölkələrin işğalı "haqq işidir". Bu da faşistsayağı yanaşmadır.

*

Əminliklə deyə bilərik ki, mövcud erməni iqtidarı faşizmi pərdələməyə çalışır, onu üzə çıxarmaq üçün daha münasib zamanı yetişdirməyi hədəf seçir. Elə isə baş nazir N.Paşinyanın bir müddət əvvəl yarımçıq fəlsəfi baxışlarını işə salaraq dilə gətirdiyi bir fikrin üzərində dayanaq. Nikol bildirmişdi ki, nənələrinin onlar üçün tikdiyi qırmızı paltar geymiş iki erməni yol gedir və yolda qırmızı rəngə aqressiv münasibəti ilə seçilən öküzlər dayanıb. Paşinyan məsafəni tamamlamaq, yəni, hədəfə çatmaq üçün həmin şəxslərin əyinlərindəki qırmızı paltarları çıxarmalarının, libasları səliqə ilə büküb rəmz olaraq sandığa qoymalarının zəruriliyini vurğulamışdı. Yəni, baş nazir dolayısı ilə keçmişdə ilişib qalmamağın ziyanını açıqlamışdı.

Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan isə bu ay Antalya Diplomatik Forumundakı çıxışında elə danışmışdı ki, sanki keçmişi əlində bayraq edən Azərbaycandır. O, hətta sifətinə ağıllı görkəm verərək, gələcəyə baxmağın vacibliyini əsaslandırmağa qol çırmamış, ölkəmizi sülh müqaviləsini imzalamağa çağırmışdı. Sanki barış istəyən Ermənistandır, istəməyən Azərbaycan. Ancaq keçmişdən, ikiəlli yapışan hay cəmiyyətinin özüdür. Ermənilər Paşinyanın hekayəsindəki nənə yadigarı olan keçmişin qırmızı paltarlarını çıxarmağa niyyətində deyillər. Bu məntiqlə nə həmin cəmiyyət, nə də onun dövləti gediyi yolda düz əməlli addımlaya biləcək.

Ermənistan dövləti və cəmiyyəti normal yaşamaq niyyətindən və potensialından uzaqdır. Başqa sözlə desək, hay cəmiyyəti qarşısında aqressiv öküz görməyə, daim əzilməyə həvəslidir. Onu da deyək ki, bu həvəs erməni toplumunu sərsəm keçiyə çevirir. O keçiyə ki, qaşınanda buynuzunu çobanın çomağına sürtür. Birmənalı şəkildə bildirmək olar ki, "erməni soyqırımı"nın 110 illiyi ilə bağlı çıxarılmış həngamə, o cümlədən, Azərbaycanın və Türkiyənin bayraqlarının yandırılması hayları həmin məxluqa oxşadır. Elə bilirik, çoban çomağına sürtünən keçinin hansı acınacaqlı aqibətlə üzləşdiyini xatırlatmağa ehtiyac yoxdur.

*Ə.RÜSTƏMOV*
*XQ*

---

## "Ümummilli lider Heydər Əliyev müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir"



**Aprelin 24-də Milli Məclisdə "Konstitusiya və Suverenlik İli" çərçivəsində "Ümummilli lider Heydər Əliyev müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir" mövzusuna həsr edilən elmi-praktik konfrans keçirilib.**

Konfransa moderatorluq edən Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli Konstitusiyamızın müstəqil dövlətçiliyimizin təşəkkülündə və hüquqi cəmiyyət quruculuğunda rolunu yüksək dəyərləndirib, dövlətimizin əsas qanununun qəbulunda Ulu öndərin müstəsna xidmətlərini vurğulayıb.

Milli Məclis sədrinin müavini Ziyafət Əsgərov isə qeyd edib ki, Prezident İlham Əliyevin 2024-cü il 28 dekabr tarixli Sərəncamı ilə 2025-ci il "Konstitusiya və Suverenlik İli" elan olunub. O, bu qərarın Konstitusiyamızın son 30 il ərzində keçdiyi inkişaf yolunu və onun ictimai münasibətlərin tənzimlənməsində oynadığı mühüm rolu əks etdirdiyini vurğulayıb. Ziyafət Əsgərov qeyd edib ki, 1995-ci ilin 12 noyabr tarixində qəbul olunan Konstitusiya ötən müddət ərzində dinamik şəkildə inkişaf edərək insan hüquq və azadlıqlarının təmin olunmasında mühüm rol oynayıb.

Ziyafət Əsgərov deyib ki, Vətən müharibəsi zamanı Prezidentin rəhbərliyi ilə bütün dövlət qurumları birlik nümayiş etdirərək beynəlxalq hüququn normalarının təmin olunmasına nail olublar. Bu gün xalqımız Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın işğaldan azad edilməsi, ərazi bütövlüyünün, dövlət suverenliyinin və ölkənin bütün ərazilərində Azərbaycan Respublikası Konstitusiyasının hüquqi qüvvəsinin tam bərpasının qürurverici təntənəsini yaşayır.

Sonra Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü, tarix üzrə fəlsəfə doktoru Mübariz Qurbanlı məruzə ilə çıxış edib. Dünya ölkələrinin konstitusiya təcrübələrinə diqqət çəkən M.Qurbanlı Azərbaycanın konstitusiya tarixinə nəzər salıb. Müstəqilliyimizi bərpa etdikdən sonra yeni Konstitusiyanın hazırlanmasının Azərbaycan dövlətçiliyinin qarşısında duran əsas vəzifələrdən olduğunu deyən məruzəçi 1993-cü ildə xalqın tələbi ilə ümummilli lider Heydər Əliyev yenidən hakimiyyətə qayıtdıqdan sonra Konstitusiyanın hazırlanması işlərindən, onun geniş müzakirələrdən keçməsi və qəbulu prosesindən bəhs edib.

Sonra Konstitusiya Məhkəməsinin hakimi, hüquq elmləri doktoru Ceyhun Qaracayev "Azərbaycan Respublikası Konstitusiyasının keçdiyi inkişaf yolu (referendumlar)" mövzusunda məruzə ilə çıxış edib.

Sonra Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının rəisi, hüquq üzrə fəlsəfə doktoru Elşad Nəsirov "Konstitusiya qanunları Azərbaycan Respublikası Konstitusiyasının ayrılmaz hissəsidir" mövzusu üzrə məruzə edib.

Konfransda mövzu ilə bağlı digər çıxışçılar Konstitusiyamızın həm Konstitusiya qanunları, həm də referendum yolu ilə daha da inkişaf etdiyini bildiriblər, dövlətimizin əsas qanununun suverenliyimizin və ərazi bütövlüyümüzün tam təmin olunmasında oynadığı rolu qeyd ediblər.

*XQ*

---

## Roma Papası Fransiskin xatirəsinə ehtiram



**Aprelin 24-də Bakıda Roma Papası Fransiskin ruhuna Müqəddəs Messa ayini keçirilib.**

Azərbaycandakı Katolik Kilsəsinin apostol prefekti, yepiskop Vladimir Fekete ayinə Bakının əsas katolik məbədi olan "Müqəddəs Bakirə Məryəmin Məsum Hamiləliyi" kilsəsində rəhbərlik edib.

Yepiskop Vladimir Fekete ayin zamanı ibadət edənlərə mərhum pontifikin həyatı və xidmətləri haqqında moizə ilə müraciət edib. O, Fransiski nümunəvi dini lider kimi xarakterizə edib, onun Azərbaycana etdiyi səfəri və ölkədə Katolik Kilsəsinə göstərdiyi dəstəyi xüsusi vurğulayıb.

Xatırladaq ki, Roma Papası Fransisk aprelin 21-də 88 yaşında insult və onun ardınca baş verən "geri dönüşü olmayan ürək-damar kollapsı" nəticəsində vəfat edib. Əslən Argentinadan olan Roma Papası Fransisk (əsl adı Xorxe Mario Berqolyo) 2013-cü ildə Vatikanın müqəddəs taxtına çıxmışdı. O, dünyanın müxtəlif ölkələrinə 30-dan çox apostol səfəri etmiş, sadə insanlarla birbaşa ünsiyyətdə olmuş və görüşlərin sadə və xüsusi təhlükəsizlik tədbirləri olmadan keçirilməsini tələb etmişdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Müqəddəs Roma Kilsəsinin Kamerlenqosu, Zati-aliləri kardinal Kevin Farrelə ünvanladığı məktubda bildirilib: "Roma Papası Fransiskin timsalında beynəlxalq ictimaiyyət və dünyanın katoliklik icması yüksək mənəvi keyfiyyətlərə malik, həyatını insanlığa fədakar xidmətə həsr etmiş görkəmli dini xadimi və böyük şəxsiyyəti itirdi".

*XQ*

---

REPLİKA

# "Güman"dan "yalan" düzəldənlər

**Belə bir atalar sözü var: "Güman gəlməyən yerdən tülkü çıxar". Burada tülkü rəmzi mənada işlədilir. Məcazın mənası odur ki, anlaşılmaz, müəmmalı şəraitdə güman yüz yerə gedə, bu zaman hətta ağıla gəlməyən versiyalar ortaya atıla bilər. Amma belə gümanların özündə belə sağlam düşüncəyə söykənən elementar məntiq pozulmamalı, onun inandırıcılıq dərəcəsi qismən də olsa saxlanılmalıdır.**

Ermənistanın Azərbaycanla şərti sərhədində iki il yarımdan çoxdur qərar tutmuş Avropa İttifaqının adı mülki, özü isə kəşfiyyatçı olan missiyasi bizim mövqelərimizdən Ermənistanın mülki obyektlərinin atəşə tutulmasını "qeydə alıb". Əsasən alman-fransız missionerlərindən təşkil olunmuş missiyanın mətbuat xidməti bu barədə məlumat yayıb. Məlumatda deyilir ki, xristianların Pasxa bayramı günlərində kəşfiyyatçılar özlərinin "məsuliyyət zonasında" gecə-gündüz 27 patrul xidməti həyata keçiriblər. Onların müəyyənləşdirdiyi "zonaya" Ermənistanın Xoznavar, Xnasax və Aravus kəndləri də daxil imiş.



"Binokllu diplomatlar" Xoznavarda "mülki infrastruktura zərər vurmuş" iki atəş səsi eşidiblər. Onlar atəşin Azərbaycan Ordusunun mövqelərindən açıldığını, sadəcə, "güman etdiklərini" yazıblar. Yuxarıda "qeydə alıblar"ı ona görə dırnaq işarəsi içində verdik ki, insidentin hansı tərəfdən törədildiyi missiyanın özü üçün də tam aydın deyilmiş. Yəni alman-fransız kəşfiyyatçıları öz gümanlarına söykənərək feyk xəbəri tirajlamağı missiyanın xidməti kimi qələmə verirlər.

Belə çıxır ki, Aİ-nin məlum missiyası hələ danışıqların davam etdiyi, "nə sülh, nə müharibə" vəziyyətində olan iki ölkənin şərti sərhədində monitorinqlərini gümanlar əsasında yerinə yetirirlər. Missiyanın İrəvandakı ofisinin rəsmi məlumatında irəli sürülən, heç bir dəlil-sübuta istinad edilməyən versiyası onların fəaliyyətinin məhz bu cür feyk-xəbərlər istehsal etməkdən ibarət olduğu qənaətini ortaya çıxarır. 200-dən çox müşahidəçi iki ölkənin şərti sərhədində sabitliyi, yaşayış məntəqələrinin təhlükəsizliyini bu formada "təmin edir", insidentlərin baş verməsinin qarşısını belə üsullarla "alırmış".

*

"Kristofer Müllerin başçılıq etdiyi İsveç Daxili İşlər Nazirliyinin Sülhün və beynəlxalq inkişafın saxlanılması əməliyyatları üzrə departamentinin nümayəndələri ilə görüşdən çox məmnunuq". Bu "şad xəbəri" də Aİ missiyasının İrəvandakı mətbuat xidməti tirajlayıb. Stokholmdan Ermənistana təşrif buyurmuş nümayəndələr missionerlərlə Aİ-nin patrulları qarşısında duran "vacib vəzifələri", eləcə də İsveç hökumətinin "binokllu diplomatlar"a verdiyi töhfələri müzakirə ediblər. Əslində, bu informasiyanın da nə dərəcədə həqiqətə uyğun olduğunu, yaxud gümanla yazıldığını biz də yalnız güman edə bilərik.

Oxuculara xatırladaq ki, mülki missiyanın tərkibinə İsveçdən 17 kəşfiyyatçı daxildir ki, bu da sayca üçüncü kontingent deməkdir. Bu, artıq nə gümandır, nə də feyk-xəbər.

*İ.HƏSƏNQALA*
*XQ*



# Azərbaycanda demokratik inkişafın tarixi təntənəsi

**2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan edilməsi Azərbaycanın tarixi inkişaf yolunda mühüm mərhələdir. Prezident İlham Əliyevin bu qərarı imzalaması ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin və milli dəyərlərinin qorunması istiqamətində atılan mühüm addımların davamıdır.**

Müstəqil Azərbaycan Respublikası Konstitusiyasının preambulasında “Azərbaycanın dövlət müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması” başlıca niyyətlərdən biri kimi bəyan edilmişdir. Lakin Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin 30 ilə yaxın işğal altında qalması ölkənin suveren hüquqlarının həmin ərazilərdə tətbiqinə imkan verməmişdir. Ermənistanın işğalçılıq siyasətinə son qoyulması və ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin bərpa edilməsi Azərbaycan xalqının milli ideyasının əsas məqsədlərindən birinə çevrilmiş, cəmiyyətimizin bütün resursları bu taleyüklü vəzifənin həllinə yönəldilmişdir.

2025-ci ilin Azərbaycanda “Konstitusiya və Suverenlik İli”elan edilməsi barədə Prezident sərəncamı yalnız hüquqi və siyasi mahiyyət daşımır. Bu qərar həm də milli şüurun möhkəmlənməsinə, tarixi ədalətin bərpasına və gələcək nəsillərə mental dəyərlərin ötürülməsinə xidmət edən strateji yanaşmadır.

Müstəqil və suveren dövlətə sahib olmaq, milli-mənəvi dəyərlərə, həmrəylik, ədalət və qanunun aliliyi prinsiplərinə əsaslanan inkişaf etmiş cəmiyyət qurmaq Azərbaycan xalqının əsrlər boyu əsas arzusu və ali məqsədi olmuşdur. Tarixin müxtəlif mərhələlərində üzləşdiyi çətinliklərə, məhrumiyyətlərə baxmayaraq, heç bir qüvvə xalqımızın müstəqil dövlətçilik əzmini və suverenlik istəyini sarsıda bilməyib. Bu baxımdan hələ 1918-ci ildə Şərqin ilk demokratik respublikası olan Azərbaycan Demokratik Respublikasının yaradılması xalqımızın çoxəsrlik ictimai-siyasi fikrindən irəli gələn milli oyanışa və dirçəlişə əsaslanmışdı.

Azərbaycan Xalq Cümhuriyyəti müstəqil və suveren dövlətə xas olan təsisatlar yaratmış, müstəqil daxili və xarici siyasət yeritmişdi. 1920-ci ildə bir çox xarici dövlət tərəfindən tanınmış və onlarla diplomatik münasibətlər yaratmışdı. Bütün bunlara baxmayaraq, Sovet Rusiyası 1920-ci ilin aprelində beynəlxalq hüquq normalarını pozaraq suveren respublikamızın ərazisini işğal etmişdi. Nəticədə, Xalq Cümhuriyyəti hökuməti konstitusiyanın qəbuluna və tam suverenliyin təmin edilməsinə nail ola bilməmişdi.

Azərbaycan xalqı sonrakı dövrlərdə də müstəqillik və suverenlik arzusu ilə yaşamış, öz azadlığı uğrunda əsasən gizli olaraq, bir çox hallarda açıq formada mübarizə aparmışdır. Kənar müdaxilələrə, məhrumiyyətlərə baxamayaraq, xalqımız milli kimliyini və mübarizə ruhunu mühafizə edə bilmişdir. Məhz bu mübarizə əzmi XX əsrin 80-90-cı illərində “Azərbaycan Sovet Sosialist Respublikasının suverenliyi haqqında” Azərbaycan SSR-in Konstitusiya Qanununun və “Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında” Konstitusiya Aktı”nın qəbul edilməsi və dövlət müstəqilliyinin bərpasına gətirib çıxarmışdır.

1991-ci il dekabrın 25-də 69 il mövcud olmuş SSRİ tarix səhnəsindən silindi. 1991-ci il dekabrın 29-da respublikamızda ümumxalq səsverməsi keçirildi və əhalimizin tam əksəriyyəti ölkənin müstəqilliyinə, suverenliyinə və istiqlaliyyətinə səs verdi.

Ümummilli lider Heydər Əliyev hələ Azərbaycana rəhbərliyinin birinci dövründə müstəqil dövlətimizi qurmağa başlamışdı. O zaman Ulu öndərin həyata keçirdiyi genişmiqyaslı işlər, yaradılmış iqtisadi potensial gələcəkdə Azərbaycanın dövlət müstəqilliyi ideyalarının formalaşmasında və yaradılmasında çox mühüm rol oynamışdı. Fenomenal zəkalı rəhbər Heydər Əliyevin həyata keçirdiyi düşünülmüş daxili siyasət sayəsində ölkəmizdə milli özünüdərk, vətənpərvərliyin gücləndirilməsi istiqamətində də vacib addımlar atılmışdı. O dövrdə müxtəlif sahələrdə yerli kadrların yetişdirilməsi, həmçinin milli şüurun inkişaf etdirilməsi, milli ruhun yüksəldilməsi sahəsində bir çox mühüm işlər həyata keçirilmişdi.

Ötən əsrin 90-cı illərinin əvvəllərindən Ermənistanın hərbi təcavüzünə məruz qalan ölkəmizin beynəlxalq ictimaiyyət tərəfindən tanınan ərazilərinin 20 faizi 30 ilə yaxın işğal altında qalsa da, 1 milyon soydaşımız qaçqın-köçkün həyatı yaşasa da, xalqımız ərazi bütövlüyünün və suverenliyinin pozulması ilə barışmadı.

## Müstəqilliyin Naxçıvan təməlləri

1991-ci ilin yayından doğulub-böyüdüyü Naxçıvanda yaşamağa məcbur olmuş dünya miqyaslı siyasət və dövlət xadimi Heydər Əliyevi milli dövlətçiliyimizin taleyi çox ciddi narahat edirdi. O, artıq öz siyasi seçimini etmiş və Azərbaycanın müstəqilliyi uğrunda qətiyyətli mübarizəyə başlamışdı.

Dövlət müstəqilliyinin bərpasının təməllərini Ümummilli lider Naxçıvanda yaratdı. Müstəqilliyin qorunması istiqamətində ən mühüm işlər məhz Naxçıvanda Heydər Əliyevin təşəbbüsü ilə başlandı. Ulu öndər Heydər Əliyev SSRİ-nin ən güclü vaxtında Konstitusiyada SSRİ-dən çıxmaq hüququmuzu təsbit etdi. Bakıda qaldırılmalı olan üçrəngli bayrağı bu qüdrətli siyasətçi cəsarət və uzaqgörənliklə Naxçıvanda qaldırdı. Onun iradəsi ilə muxtar respublikanın adından “sovet sosialist” sözləri çıxarıldı. 20 Yanvar hadisələrinə ilk dəfə siyasi qiymət verildi.

Milli inkişaf strategiyasının təməli bu diyarda qoyuldu. Müstəqil Azərbaycanın xarici siyasət konsepsiyasının başlıca prinsipi və istiqamətlərini də Naxçıvanda Heydər Əliyev işləyib hazırladı.

**İsmayıl HACIYEV,
AMEA Naxçıvan Bölməsinin sədri, akademik**

Ozamankı Azərbaycan rəhbərliyinin Naxçıvanda gedən demokratik proseslərə göstərdiyi siyasi biganəliyə və təhdidə baxmayaraq, Heydər Əliyevin ətrafında sıx birləşən Naxçıvan əhalisinin iradəsinə söykənən muxtar respublika Ali Məclisi ölkənin müstəqilliyini möhkəmləndirmək yolunda məqsədyönlü fəaliyyətini davam etdirdi. Bunlar isə o dövr hakimiyyətinin istəyinin əksinə olaraq, Heydər Əliyevin bir lider kimi nüfuzunu daha da artırdı.

Ulu öndər Heydər Əliyev o vaxt haqlı olaraq deyirdi: “Mən bir azərbaycanlı kimi, xalqımızın azadlığını istəyən vətəndaş kimi hesab edirəm ki, əgər Azərbaycanın rəhbərliyi respublikada demokratik qüvvələrin müstəqillik uğrunda mübarizəyə başladığı bir vaxtda xalqın rəyinə hörmətlə yanaşsaydı və xalqla bir olsaydı, Azərbaycan öz müstəqilliyinə çoxdan nail olmuşdu”.

Ulu öndər Heydər Əliyevin Naxçıvanda fəaliyyət göstərdiyi 1990–1993-cü illərdə, Naxçıvan Muxtar Respublikası Ali Məclisinə sədrlik etdiyi dövrdə (1991–1993) həyata keçirdiyi tədbirlər, qəbul edilən qərarlar dövlət müstəqilliyi üçün çox mühüm əhəmiyyət daşımışdı. Prezident İlham Əliyev bu barədə belə demişdir: “1990-cı illərdə Heydər Əliyevin rəhbərliyi altında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında qəbul edilmiş tarixi qərarlar Azərbaycanın dövlət müstəqilliyini şərtləndirdi. Məhz o sessiyada Azərbaycanın üçrəngli bayrağı dövlət bayrağı kimi qəbul edildi. O vaxt Azərbaycanda hələ Sovet Azərbaycanının bayrağı dalğalanırdı. O vaxt Sovet İttifaqının dağılması haqqında heç kim düşünmürdü. O ağır, o çətin anlarda bu qətiyyətli qərarlar həm Naxçıvanı qorudu, həm də Azərbaycanın gələcək müstəqilliyini şərtləndirdi”.

Azərbaycanın milli dövlətçiliyinin təşəkkülünün əsas ideya və istiqamətləri barədə ən taleyüklü fikirlərini Heydər Əliyev 1992-ci ildə yaratdığı Yeni Azərbaycan Partiyasının siyasi platformasında əks etdirdi.

## Dövlət müstəqilliyinin möhkəmləndirilməsi və inkişafı

Ümummilli lider Heydər Əliyev 1993-cü il iyunun 9-da xalqın təkidli tələbi ilə Bakıya döndü. Bu dönüş tarixin sosial sifarişi idi. Bu dönüş xalqın istəyi ilə baş tutdu. O böyük şəxsiyyət gəlişi ilə Azərbaycanın qarşılaşdığı bir çox təhlükələri dəf etdi, insanların nigarançılığına son qoydu. Ölkənin həqiqi müstəqilliyinin tarixi bu dövrdən başladı.

Həmin illərdə üzünü Azərbaycan dövlətçiliyini dağıtmaq istəyənlərə tutan ulu öndər Heydər Əliyev deyirdi: “Mən Azərbaycanın müstəqilliyini Azərbaycan xalqı üçün böyük nailiyyət hesab etmişəm və bu müstəqilliyin əldə olunmasına xidmət etmişəm. Bundan sonra ömrümün qalan hissəsini də Azərbaycanın müstəqilliyinin möhkəmlənməsinə, inkişaf etməsinə sərf edəcəyəm”.

Müdrik şəxsiyyət və təcrübəli lider olan Heydər Əliyev ölkədə yaranmış vəziyyəti dəqiq qiymətləndirərək, bütün Azərbaycan cəmiyyətini müstəqil dövlətin mövcudluğu baxımından həyati əhəmiyyət daşıyan məsələlərin həll edilməsinə səfərbər etdi. Onun prezidentliyi dövründə ölkə kökündən dəyişildi, daxili və xarici siyasətin bir çox istiqamətlərində əhəmiyyətli uğurlar qazanıldı. 1993-cü ilin ortalarından başlayaraq, Azərbaycan strateji seçimini müəyyənləşdirdi –müasir, dünyəvi, beynəlxalq birliyə inteqrasiya edən, demokratik əsaslara sadiq olan ölkə kimi inkişaf etməyə başladı. Milli və dövlət müstəqilliyinin qorunması istiqamətində uğurlu tədbirlər həyata keçirildi.

Hər bir dövlətin mövcudluğu konstitusiya prinsiplərinin varlığı ilə şərtləndirilir. Əsas qanun hər bir dövlətin normal, funksional fəaliyyət göstərməsi üçün vacib olan sənəddir. Çünki burada dövlətin quruluşu,



idarəçilik sistemi, vətəndaş-dövlət münasibətləri, vətəndaşların hüquqları, azadlıqları, cəmiyyətin siyasi sisteminin quruluşu, idarə olunması, daxili və xarici siyasətinin əsas prinsipləri və s. əks olunur. Elə ölkələr var ki, onlar müəyyən qanunlar toplusu ilə idarə olunur və konstitusiyaları yoxdur. Amma konstitusiyası olan ölkələr dünyada daha demokratik və üstün dövlətlər sayılırlar.

Azərbaycan ərazi bütövlüyünü, suverenliyini qorumaq üçün həmişə ciddi sınaqlardan keçib. 1918-ci ildə qurulan Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşamışdı. 1991-ci il oktyabrın 18-də qəbul edilən “Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında” Konstitusiya Aktı ilə ölkəmiz rəsmən müstəqil dövlət statusunu bərpa etsə də, suverenliyin əsas elementlərindən olan yeni Konstitusiyanın hazırlanması nəzərdə tutulsa da, 1991– 1993-cü illərdə hakimiyyətin suveren məfkurəyə sahib olmaması, müstəqilliyin ilk illərində ölkədə cərəyan edən mürəkkəb və ziddiyyətli proseslər, siyasi qeyri-sabitlik, eyni zamanda, təhdidlərin mövcud olması, suverenliyin təmin edilməsini çətinləşdirdi.

Yalnız 1993-cü ildə yenidən hakimiyyətə qayıtmış qüdrətli və qətiyyətli dövlət xadimi Heydər Əliyevin böyük xilaskarlıq missiyası sayəsində ölkəmizdə cərəyan edən təhlükəli proseslərin qarşısı alındı. Cəmiyyətdə sabitlik bərpa olundu, dövlət quruculuğu üçün etibarlı zəmin yarandı. Hüquqi dövlət quruculuğuna başlayan Prezident Heydər Əliyevin bu istiqamətdə həyata keçirdiyi ilk tədbirlərdən biri yeni Konstitusiyanın hazırlanması oldu.

## Heydər Əliyev Konstitusiyası

Azərbaycan Respublikası Milli Məclisin 1995-ci il 2 iyun qərarına əsasən, yeni Konstitusiyanı hazırlamaq üçün Prezident Heydər Əliyevin sədrliyi ilə 33 nəfərdən ibarət Konstitusiya Komissiyası təşkil edildi. Komissiya Azərbaycan xalqının milli xüsusiyyətlərini nəzərə almaqla, qabaqcıl demokratik ölkələrin təcrübəsi əsasında “Azərbaycan Respublikasının Konstitusiyası” layihəsini hazırladı və 1995-ci il oktyabrın 15-də ümumxalq müzakirəsi üçün mətbuatda dərc edildi. Azərbaycan Respublikasının Konstitusiyası – müstəqil Azərbaycan dövlətinin ilk Əsas qanunu 1995-ci il noyabr ayının 12-də referendumla qəbul olundu. Referendumda 4 milyona yaxın seçici korpusunun 86 faizi iştirak etdi. Onların 94,8 faizi Konstitusiya layihəsini bəyəndiyini bildirdi.

Azərbaycan Respublikasının yeni Konstitusiyası preambula, 5 bölmə, 12 fəsil və 158 maddı və keçid müddəalarından ibarət idi.

Ulu öndərin bilavasitə rəhbərliyi ilə hazırlanmış və ümumxalq səsverməsi ilə qəbul olunmuş Azərbaycan Respublikasının ilk Konstitusiyası ölkəmizdə genişmiqyaslı qanunvericilik və institusional islahatların əsasını təşkil etdi. Bu Konstitusiya dövlətimizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması, hüquqi dünyəvi dövlət quruculuğu, vətəndaşlarımızın layiqli həyat səviyyəsinin, dünya ölkələri ilə dostluq və əmin-amanlığın təmin edilməsi kimi ali niyyətlərin həyata keçirilməsi üçün bazis rolunu oynadı.

Müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul edilməsi müasir tariximizin ən mühüm hadisələrindən biridir və bu, Ulu öndərin Azərbaycan dövlətçiliyi qarşısındakı böyük xidmətlərindən sayılır. Müstəqil dövlətin Əsas qanunu ən yeni tariximizə Heydər Əliyev Konstitusiyası kimi daxil oldu.

Müstəqil Azərbaycan Respublikasının Konstitusiyası, ümumilikdə, ölkəmizin tarixində dördüncü Əsas qanundur. Bu Konstitusiya müstəqil dövlət quruculuğu prosesini tənzimləyən, demokratik inkişafa təminat yaradan, ölkəmizin siyasi, sosial, mədəni, iqtisadi sahələrində əsaslı dəyişiklikləri özündə ehtiva edən, qanunvericiliyin təkmilləşdirilməsində hüquqi baza rolunu oynayan mükəmməl və mütərəqqi sənəddir. Keçmiş sovet konstitusiyalarından fərqli olaraq, müstəqil Azərbaycanın Əsas qanunu insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin olunmasını dövlətin ali məqsədi kimi bəyan etdi.

Müstəqil Azərbaycanın Konstitusiyası ölkəmizin gələcək inkişaf yolunu müəyyənləşdirərək hüquqi, demokratik dövlət quruculuğunun əsasını qoydu. Bununla da dövlətimizin hüquqi əsasları formalaşdırıldı, hüquqi dövlət quruculuğu istiqamətində yeni mərhələnin əsası qoyuldu.

Konstitusiyanın qəbul edilməsinin milli dövlətçilik tarixində müstəsna əhəmiyyətini nəzərə alaraq, Prezident Heydər Əliyevin 1996-cı il noyabrın 1-də imzaladığı fərmana əsasən, hər il noyabrın 12-si ölkəmizdə Konstitusiya Günü kimi qeyd edilir.

Ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətinin ikinci dövründən bəhs edən Prezident İlham Əliyev demişdir ki, 1993–2003-cü illər ölkəmizdə sabitlik və inkişaf illəri kimi tarixdə qalacaqdır. Çünki məhz o illərdə müstəqil dövlətçiliyin əsasları qoyuldu. Azərbaycan dövləti quruldu, 1995-ci ildə müstəqil dövlətin Konstitusiyası qəbul edildi, dövlətçiliyin ideoloji əsasları qoyuldu və bu gün də ölkəmizin əsas ideoloji şüarı Azərbaycançılıq məfkurəsidir.

Azərbaycan Respublikasının Konstitusiyasında bəyan edilən məqsədlərdən biri dövlətin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunmasıdır. Əsas qanuna görə, Azərbaycan Respublikasının ərazisi vahiddir, toxunulmazdır və bölünməzdir. Ermənistan dövləti yarandığı gündən Azərbaycan ərazilərinə qarşı torpaq iddiaları ilə çıxış etmiş və ərazisini 10 min kvadrat kilometrdən 29,8 min kvadrat kilometrə qədər artırmışdır. Bu ölkənin millətçi rəhbərliyi özlərinə dövlət qurduqları Qərbi Azərbaycan ərazisindən soydaşlarımızı deportasiya etmiş və soyqırıma məruz qoymuşdur.

Xəyanətkar qonşu 1989–1992-ci illərdə isə Azərbaycana qarşı hərbi təcavüz etmiş, torpaqlarımızın 20 faizini işğal etmişdir. Yaşayış məskənləri viran edilmiş, xalqımızın suveren və konstitusion hüquqları kobud şəkildə pozulmuşdur. Beynəlxalq aləm Qarabağı Azərbaycan ərazisi kimi qəbul etsə də, ATƏT-in Minsk qrupu vasitəçilik missiyasını yerinə yetirməmiş, BMT qətnamələrinin yerinə yetirilməsinə cəhd göstərməmiş, ikili siyasət aparmışdır. Həmsədr dövlətlər problemi uzatmaqla güman etmişlər ki, Azərbaycan xalqı, nəhayət, yorulub torpaqlarının geri qaytarılmasından əl çəkəcəkdir. Lakin xalqımızın və dövlətimizin yekdil fikri ondan ibarət idi ki, işğala son qoyulmalı, torpaqlarımız azad olunmalıdır.

## İlham Əliyevin siyasəti işğala son qoydu

Ümummilli lider Heydər Əliyev və onun siyasi davamçısı İlham Əliyevin qəti mövqeləri və apardıqları danışıqlar Ermənistanın işğalçılıq siyasətinə son qoymağa yönəlmiş, ölkəmizin iqtisadi potensialını artırmış, hərbi gücümüzü qüvvətləndirmişdir. Prezident İlham Əliyev ilk çıxışlarının birində bəyan etmişdi: “Azərbaycan heç vaxt bu vəziyyətlə, torpaqlarının işğal altında qalması ilə barışmayacaqdır. Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcəkdir”.

2003-cü ildə Prezident seçilmiş İlham Əliyevin çoxşaxəli və uğurlu fəaliyyətinin əsasında duran əsas məqsəd işğalda olan torpaqlarımızın geri qaytarılması idi. Bunun üçün Azərbaycan prezidenti tərəfindən dövlətin fəaliyyətinin bütün sahələri qələbə naminə səfərbər edilmişdir. Güclü iqtisadiyyatın yaradılması, qüdrətli ordunun qurulması, milli maraqlar əsasında aparılan xarici siyasət, dövlətin və cəmiyyətin müxtəlif sahələrində həyata keçirilən islahatların başlıca hədəfi məhz düşmən üzərində zəfərə, tarixi ədalətin və suverenliyin bərpası amallarına xidmət edirdi.

2020-ci il sentyabrın 27-də Ermənistanın təxribatlarına cavab olaraq başlanan Vətən müharibəsinin böyük Zəfərlə başa çatması nəticəsində Azərbaycan ərazilərinin 30 ilə yaxın davam edən işğalına son qoyuldu. Ali Baş komandanın rəhbərliyi, Azərbaycan xalqının, dövlətinin və ordusunun dəmir yumruğa çevrilmiş birliyi nəticəsində Ermənistanın işğalçı ordusu məhv edildi. Düşmənin canlı qüvvəsinə və texniki təchizatına ağır zərbə vuruldu, işğalçıya və onun himayədarlarına layiq olduqları yer göstərildi. Üçtərəfli Bəyanat imzalandı, həmin bəyanatla Ermənistan öz üzərinə bir sıra öhdəliklər götürmüş oldu.

Lakin Ermənistanın hərbi-siyasi rəhbərliyi üzərinə götürdüyü öhdəliklərdən bir qismini yerinə yetirmədi. Keçmiş Dağlıq Qarabağ ərazisində qalmış erməni hərbi qüvvələrinin tərksilah və ləğv edilməsini həyata keçirmədi. Bununla bərabər onlar həm də Qarabağın dağlıq hissəsində mövcud olan təbii sərvətləri talan edib Ermənistana daşıyır, ərazilərə silah-sursat göndərirdi.

Bu cinayətin qarşısını almaq üçün 2023-cü il aprel ayının 23-də Azərbaycanla Ermənistanı quru yolla birləşdirən Laçın yolu üzərində dövlət sərhəd-nəzarət postu qoyuldu. Bununla Azərbaycanın bütün sərhəd xətti nəzarətə alındı və Azərbaycan öz ərazi bütövlüyünü təmin etdi. Qarabağ zəfərinin davamı olaraq 2023-cü il sentyabrın 19-20-də cəmi bir gün ərzində ordumuzun apardığı lokal xarakterli antiterror tədbirləri nəticəsində ölkəmiz həm ərazi bütövlüyünü, həm də suverenliyini tam bərpa etdi.

## Suverenlik dövlət müstəqilliyinin zirvəsidir

Suverenlik dövlətin “daxili işlərində və xarici münasibətlərində, xarici müdaxiləyə yol verməyən tam siyasi istiqlaliyyəti və müstəqilliyini” həyata keçirmək hüququnu nəzərdə tutur. Başqa sözlə, suverenlik ölkənin daxili həyatının bütün məsələlərinin həllində və digər dövlətlər ilə münasibətlərdə hakimiyyətin sərbəstliyi, dövlətin istiqlaliyyəti və müstəqil qərarlar qəbul etməsidir. Konstitusiya isə məhz dövlətin suverenliyini qorumaq, onu inkişaf etdirmək üçün zəruri hüquqi çərçivəni təmin edir. Konstitusiyada göstərilən prinsiplər dövlət hakimiyyətinin hər üç qolunun – qanunverici, icra və məhkəmə orqanlarının fəaliyyətini tənzimləyir və onların müstəqilliyini təmin edir.

Azərbaycan ərazi bütövlüyünü bərpa etdikdən sonra işğaldan azad edilmiş ərazilərdə suveren hüquqlardan istifadə aktuallaşıb. Bunun üçün hüquqi baza məhz Konstitusiyadır. Konstitusiya həmin ərazilərdə qanunların tətbiqində, hüquqi sistemin yaradılmasında, dövlət qurumlarının fəaliyyətinin bərpa olunmasında əsas rol oynayır. Suveren hüquqların təmin olunması ilə bağlı proseslər məhz Konstitusiyanın aliliyinə əsaslanır və işğaldan azad edilmiş ərazilərdə hüquqa əsaslanan inkişafı təmin edir.

## Konstitusiya və Suverenlik İli

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2024-cü il 19 sentyabr tarixli sərəncamına əsasən, sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü elan edilmişdir. Ölkə Prezidentinin 2024-cü il 28 dekabr Sərəncamı ilə 2025-ci ildə Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbəmizin 5-ci ildönümünü nəzərə alaraq Azərbaycan Respublikasında 2025-ci il “Konstitusiya və Suverenlik İli” elan edilmişdir.

Vətən müharibəsi Zəfərlə başa çatdıqdan, Qarabağ Ermənistan işğalından azad edildikdən və respublikanın ərazi bütövlüyü tam bərpa olunduqdan sonra ölkəmiz qarşısında geniş miqyaslı vəzifə – dağıdılmış infrastrukturun bərpası, məcburi köçkünlərin öz yurdlarına qayıtması, Qarabağın və Şərqi Zəngəzurun firavan və xoş güzəranının bərqərar olduğu mərkəzə çevrilməsi kimi mühüm vəzifələr dururdu.

Zəfərdən az müddət sonra Böyük Qayıdış başlamış, şəhər və kəndlər yenidən tikilməyə, infrastruktur layihələr reallaşmağa, istehsal müəssisələri yaradılmağa, məcburi köçkünlər mərhələli şəkildə yenidən doğma yurdlarında məskunlaşmağa başladı. 30 mindən çox insan artıq azad Qarabağ və Şərqi Zəngəzurun sakininə çevrilib. 2026-cı ilin sonuna kimi 140 mindən çox insanın Qarabağa və Şərqi Zəngəzura qaytarılması nəzərdə tutulub.

“Konstitusiya və Suverenlik İli”ndə Böyük Qayıdışla yanaşı, ölkəmizin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında böyük uğurların davam etdirilməsi bir daha göstərir ki, Prezident İlham Əliyevin apardığı siyasət Azərbaycanı yeni zirvələrə çatdıracaq. Azərbaycanın tarixi inkişaf yolunda “Konstitusiya və Suverenlik İli”ndə əldə ediləcək uğurlar tərəqqinin yeni mərhələsinə yüksələcək.

“Konstitusiya və Suverenlik İli”nin elan edilməsi barədə Prezident sərəncamında qeyd olunduğu kimi, “Bu gün Azərbaycan Respublikası xalqımızın milli maraqlarını rəhbər tutaraq, yeni reallıqlar şəraitində müstəqil siyasətini daha cəsarətlə, prinsipiallıqla davam etdirir, Konstitusiyanın tələblərinə və öz suveren hüquqlarına əsaslanaraq, qarşıda duran strateji hədəflərə doğru inamla irəliləyir”.

**Ötən il Asiya İnkişaf Bankı (AİB) ölkəmizə 626 milyon dollar vəsait ayırıb. Bunun da 223,3 milyon dollarını birbaşa ayrılan kreditlər təşkil edib. Birbaşa kreditlərin 131,5 milyon dolları suveren kreditlər olub. Həmin vəsait isə Azərbaycanda dəmir yollarının inkişafı layihəsinə ayrılıb. Bu barədə bankdan məlumat verilib.**




## Asiya İnkişaf Bankı ölkəmizlə fəal əməkdaşlıq edir

Bildirilib ki, dövlət zəmanəti olmayan qeyri-suveren kreditlərin həcmi ötən il, ümumilikdə, 91,6 milyon dollara bərabər olub. AİB 2024-cü ildə "Veysəloğlu" Müasir Pərakəndə Şəbəkəsinin genişləndirilməsinə 10 milyon dollar, "Biləsuvar" Günəş Elektrik Stansiyası üzrə 48,1 milyon dollar, "Neftçala" Günəş Eletrik Stansiyası üzrə 33,5 milyon dollar kredit ayırıb. Bankın ölkəmizdə Ticarət və Təchizat Zəncirinin Maliyyələşdirilməsi Proqramına ayırdığı vəsaitin həcmi isə 0,2 milyon dollar təşkil edib.

2024-cü ildə Asiya İnkişaf Bankının birgə maliyyələşdirmə üzrə ayırdığı vəsaitlərin həcmi 399,1 milyon dollara bərabər olub. Bunun da 398,3 milyon dolları layihələr, 0,8 milyon dolları isə texniki məsləhət proqramı ilə bağlı olub.

Xatırladaq ki, ölkəmiz 1999-cu ildə Asiya İnkişaf Bankına üzv olub. 2004-cü ildən bankın Azərbaycanda nümayəndəliyi fəaliyyət göstərir. Bankın Rəhbərlər Şurasının 48-ci illik toplantısı 2015-ci ildə Bakıda keçirilib.

Asiya İnkişaf Bankı iqtisadiyyatın şaxələndirilməsi, yeni iqtisadi imkanların genişləndirilməsi, inklüziv inkişafın təşviqi istiqamətindəki fəaliyyətlərdə Azərbaycana dəstək göstərir. Belə ki, AİB nəqliyyat, su təchizatı, enerji, həmçinin maliyyə sektoru (bank və sığorta), təhsil, səhiyyə və digər sahələr üzrə 1999-cu ildən bəri Azərbaycana 130-dan çox kredit, qrant, investisiya, texniki yardım layihələrinin, ticarət və təchizat zəncirinin maliyyəsi və mikromaliyyə proqramlarının maliyyələşdirilməsi üçün 5,27 milyard ABŞ dolları vəsait ayırıb.

## Ağcabədidə sahibkarlarla görüş

**Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) təşkilatçılığı ilə sahibkarlarla növbəti görüş Ağcabədi rayonunda keçirilib. Ağcabədi Rayon İcra Hakimiyyətinin dəstəyi ilə təşkil olunmuş görüşdə kənd təsərrüfatı, heyvandarlıq və sənaye sahələrində fəaliyyət göstərən 130-a yaxın sahibkar, eləcə də aidiyyəti dövlət qurumlarının nümayəndələri iştirak ediblər.**



Ağcabədi Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Xətai Zeynalov və KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov biznes sahəsində yeni çağırışlar, sahibkarlıq fəaliyyətinin stimullaşdırılması istiqamətində dövlətin həyata keçirdiyi dəstək tədbirləri və rayonun iqtisadi potensialı barədə ətraflı məlumat veriblər. Qeyd olunub ki, Ağcabədi rayonu aqrar və sənaye sahələri üzrə böyük potensiala malikdir və bu imkanlardan düzgün istifadə etməklə sahibkarlar həm yeni müəssisələr qura, həm də mövcud bizneslərini genişləndirə bilərlər.

Görüşdə dövlət tərəfindən təqdim olunan subsidiyaların, güzəştli kreditlərin, vergi güzəştlərinin, investisiya təşviqi sənədinin, eləcə də klasterləşməyə dəstək və digər mexanizmlərin rayonda biznesin inkişafında əhəmiyyəti vurğulanıb. Diqqətə çatdırılıb ki, rayonda yeni biznes ideyaları və investisiya təşəbbüsləri olan sahibkarlar Ağcabədi, eləcə də ətraf şəhər və rayonlarda fəaliyyət göstərən KOB dostlarına müraciət edərək informasiya, məsləhət, əlaqələndirmə və digər istiqamətlərdə dəstək ala bilərlər.

Görüş çərçivəsində sahibkarların biznes fəaliyyətinin maliyyələşdirilməsi alətləri, o cümlədən güzəştli kreditlər, investisiya təşviqi sənədinin verilməsi, klasterləşmə və bu sahədə dəstək tədbirləri, örüş sahələrindən təyinatı üzrə istifadə edilməsi, heyvandarlığa dəstək, suvarma sistemləri istehsalı üzrə biznes fəaliyyətinin qurulması və digər məsələlərlə bağlı fikir, təklif və ehtiyacları dinlənilib, müvafiq məsələlər ətrafında müzakirələr aparılıb, sualları cavablandırılıb.

Səfər çərçivəsində KOBİA nümayəndələri Ağcabədi rayonunda fəaliyyət göstərən "ATENA" MMC-nin süd və süd məhsullarının istehsalı müəssisəsində və "Cahidoğlu" MMC-nin çörək və un məmulatları zavodunda olub, sahibkarlarla biznesin inkişafına dair fikir mübadiləsi aparıblar.

# Azərbaycan və Çin "yaşıl enerji" tərəfdaşlığına "yaşıl" işıq yandırır

**(əvvəli 1-ci səhifədə)**



Son illər ölkəmizdə "yaşıl" sərvətdən istifadəyə diqqət getdikcə artırılır. Bu da ümumi enerji istehsalında bərpaolunan enerjinin payının artmasına gətirib çıxarır. Təkcə onu qeyd etmək kifayətdir ki, 2024-cü ildə Azərbaycanın "yaşıl" enerji mənbələri üzrə elektrik enerjisi istehsalı əvvəlki ilə nisbətən 1 milyard 728,7 milyon kilovat-saat artaraq 3 milyard 850,9 milyon kilovat-sata çatıb. Bu tendensiya cari ilin ilk rübündə də davam edib. Elə hesabat dövründə bərpa olunan enerji mənbələrindən elektrik enerjisi istehsalında 243,9 milyon kilovat-saat artımın baş verdiyi də bunu təsdiqləyir.

Ölkəmizin zəngin "yaşıl" potensialı, bu sahədə həyata keçirilən çoxsaylı layihələr dünyanın enerji keçidində uğurla fəaliyyət göstərən şirkətlərin diqqətini getdikcə daha çox cəlb edir. Digər tərəfdən, Azərbaycanda yaradılmış əlverişli biznes mühiti, infrastruktur imkanlarının genişliyi xarici investorların, tanınmış şirkətlərinin bu sahəyə marağını gedikcə artırır.

Mövzuya keçid alaraq qeyd edək ki, ölkəmizin bərpa olunan enerji sahəsində zəngin potensialından uzaq Çində də xəbərdardırlar. Məhz bunun nəticəsidir ki, son zamanlar iki ölkə arasında iqtisadi əlaqələrin strukturunda "yaşıl" enerji əməkdaşlığı xüsusi önəm kəsb edir. Artıq bu ölkənin "China Energy Engineering Corporation Limited" şirkəti tərəfindən ölkəmizdə bir neçə layihə həyata keçirilir. Şirkət Xəzər dənizində 1 qiqavatlıq külək enerjisi meqalayihəsinin podratçısıdır. Bununla yanaşı, "China Energy Engineering Corporation Limited" Füzuli rayonunda günəş enerjisi və digər layihələrə investisiya yatırıb. Yeri gəlmişkən, fəaliyyət dairəsinə bərpa olunan enerji layihələri ilə yanaşı, hidrogen enerjisi, enerjinin saxlanması və iri elektrik şəbəkələrinin tikintisi kimi istiqamətlər də daxil olan "China Energy Engineering Corporation Limited" şirkətinin 147 ölkədə 256 filialı mövcuddur. Hazırda 416 layihəsi icra olunan şirkət Çinin bərpa olunan enerji bazarının 50 faizinə nəzarət edir.

Azərbaycan Prezidenti İlham Əliyevin Çinə dövlət səfəri isə ölkələrimiz arasında "yaşıl" enerji əməkdaşlığının daha da genişlənməsinə səbəb olacaq. Təsadüfi deyil ki, səfər çərçivəsində Prezident İlham Əliyevin və Sədr Si Cinpin imzaladıqları "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat"ın 6-cı maddəsində iki ölkənin enerji keçidinin, dayanıqlı sosial-iqtisadi inkişafın təşviq edilərək bərpa olunan enerji mənbələri sahəsində əməkdaşlığı fəal şəkildə inkişaf etdirməyə və təmiz enerji sahəsində qlobal tərəfdaşlığın formalaşmasını birgə irəlilətməyə hazır olduqları vurğulanıb.

Bundan əlavə, səfər zamanı iki ölkənin müvafiq qurumları arasında bərpa olunan enerji sahəsində əməkdaşlığa dair 6 sənədin imzalanması "yaşıl" enerji əməkdaşlığının yeni, daha sürətli inkişaf mərhələsinə qədəm qoyduğunu təsdiqləyir. Energetika Nazirliyinin məlumatına görə, bu sənədlər, ümumilikdə, 260 meqavat gücündə günəş elektrik stansiyaları, 100 meqavatlıq üzən günəş elektrik stansiyası, 30 meqavat gücündə batareya enerji saxlanc sistemi, dənizdə minimum 2 qiqavat gücündə külək elektrik stansiyasının inşası, daha 2 meqavat gücündə külək enerjisi layihəsinin inkişafı, eləcə də bərpa olunan enerji və elektrik enerji sisteminin planlaşdırılması üzrə əməkdaşlığı əhatə edir.

Həmin sənədlərə gəldikdə isə Azərbaycan Respublikasının Hökuməti və "Universal Solar Azerbaijan" MMC arasında Azərbaycanda 100 meqavat gücündə "Qobustan" günəş elektrik stansiyası layihəsi ilə bağlı İnvestisiya Müqaviləsi Energetika Nazirliyi və "Universal Solar Azerbaijan" MMC tərəfindən imzalanıb. İnvestisiya müqaviləsi Qobustan rayonunda 100 meqavat gücündə günəş elektrik stansiyasının tikintisini və istismarını nəzərdə tutur. Növbəti mərhələdə şirkət ilə elektrik enerjisinin alqı-satqı, ötürücü şəbəkəyə qoşulma və torpaq icarə müqavilələri imzalanacaq. 2026-cı ildə istismara verilməsi nəzərdə tutulan stansiyada hər il, təxminən, 180 milyon kilovat-saat elektrik enerjisi istehsalı proqnozlaşdırılır. Bu isə ildə 39 milyon kubmetr həcmində təbii qaza qənaət etməklə yanaşı, atmosferə atılan karbon emissiyalarını 86 min ton azaltmağa imkan verəcək. Xatırladaq ki, bu layihə üzrə Çin şirkəti ilə əməkdaşlıq hərrac vasitəsi ilə müəyyənləşdirilib.

Energetika Nazirliyi ilə "China Energy Overseas Investment Co. Ltd." şirkəti arasında isə Azərbaycanda dənizdə külək enerjisi layihəsinin qiymətləndirilməsi, inkişafı və həyata keçirilməsi ilə bağlı İcra müqaviləsi imzalanıb. Müqaviləyə əsasən, Xəzər dənizində külək enerjisi potensialının qiymətləndirilməsi, bu sahədə layihələrin planlaşdırılması və inşası üzrə əməkdaşlıq ediləcək. Bu çərçivədə mərhələli əsasda minimum 2 qiqavat gücündə dənizdə külək elektrik stansiyasının qiymətləndirilməsi, inkişaf etdirilməsi, layihələndirilməsi, maliyyələşdirilməsi, mühəndisliyi, tikintisi, istismara verilməsi və texniki xidmət üzrə əməkdaşlıq nəzərdə tutulur.

Azərbaycanın Energetika Nazirliyi, "China Datang Overseas Investment Co. Ltd" və "SOCAR Green" MMC arasında imzalanmış sənəd isə Böyükşor gölündə 30 meqavat gücündə batareya enerji saxlanc sistemi ilə 100 meqavat gücündə üzən günəş elektrik stansiyası layihəsinin qiymətləndirilməsi, inkişafı və həyata keçirilməsi ilə bağlı İcra müqaviləsinə müvafiq olaraq yaradılacaq layihə şirkəti vasitəsilə texniki-iqtisadi əsaslandırma, layihələndirmə, maliyyələşdirmə, tikinti, istismar və texniki xidmət işlərini əhatə edir. Bu layihədə həyata "China Datang Overseas Investment Co. Ltd" şirkəti əsas investor kimi çıxış edəcək.

Energetika Nazirliyi, "PowerChina Resources Limited" və "SOCAR Green" MMC arasında 160 meqavat gücündə günəş elektrik stansiyası layihəsinin qiymətləndirilməsi, inkişafı və həyata keçirilməsinə dair imzalanmış icra müqaviləsi mübadilə edilib. Layihənin həyata keçirilməsi üçün xüsusi layihə şirkətinin və Rəhbər Komitənin yaradılması nəzərdə tutulur. Sənəddə layihənin texniki-iqtisadi əsaslandırılması, layihələndirilməsi, maliyyələşdirilməsi, tikintisi, istismarı və texniki xidməti kimi istiqamətlər əks olunub. Energetika Nazirliyinin layihə üçün torpaq sahəsinin ayrılması, müvafiq icazələrin verilməsi və yerli resurslardan istifadə olunmasına dəstək göstərməsi planlaşdırılır. Layihə, həmçinin gələcəkdə batareya enerji saxlanc sisteminin inteqrasiyası imkanlarını da nəzərdən keçirir. 2028-ci ildə istismara verilməsi planlaşdırılan stansiyada illik, təxminən, 332 milyon kilovat-saat elektrik enerjisi istehsalı proqnozlaşdırılır. Bu isə ildə 73 milyon kubmetr həcmində təbii qaza qənaət edilməsi, atmosferə atılan karbon emissiyalarının 160 min ton azaldılması deməkdir.

"Yaşıl" eneji əməkdaşlığı ilə bağlı digər sənəd isə Xəzər dənizinin Azərbaycan sektorunda 2 qiqavat gücündə külək enerjisi layihəsi ilə bağlı olub. Energetika Nazirliyi, "SOCAR Green" MMC, "China Datang Overseas Investment Co. Ltd" və "PowerChina Resources Limited" arasında imzalanmış Anlaşma Memorandumu çərçivəsində investisiya imkanlarının qiymətləndirilməsi və müvafiq texniki-hüquqi dəstək mexanizmlərinin qurulması üzrə əməkdaşlıq ediləcək. Layihənin inkişafı məqsədilə rəhbər komitə və işçi qrup yaradılacaq, həmçinin kommersiya, hüquq və texniki sahələr üzrə ekspertlər cəlb olunacaq. Müvafiq icazələrin alınması, dəniz ərazilərinin ayrılması və digər zəruri proseslərdə Energetika Nazirliyi tərəfindən dəstək göstəriləcək.

"Bərpa olunan enerjinin inkişafı və elektrik enerji sisteminin planlaşdırılması"na dair Anlaşma Memorandumu isə Energetika Nazirliyi ilə Çin Xalq Respublikasının Elektrik Enerjisinin Planlaşdırılması və Mühəndislik İnstitutu arasında imzalanıb. Memorandum 2028-ci ildən sonrakı dövr üzrə bərpa olunan enerji mənbələrinin şəbəkəyə inteqrasiyası ilə əlaqədar ötürücü şəbəkədə müvafiq araşdırmaların aparılmasını nəzərdə tutur. Araşdırmaların nəticələrinə əsasən, texniki və iqtisadi baxımdan səmərəli həllərin müəyyənləşdirilməsi və müvafiq təkliflərin hazırlanması planlaşdırılır. Birinci mərhələdə bərpaolunan enerji mənbələri üzrə tələbatın qiymətləndirilməsi, növbəti mərhələdə isə müəyyən edilmiş güclərin ötürücü şəbəkəyə inteqrasiyasının tədqiqi həyata keçiriləcək.

# "Şahdəniz"in qazancı 7,7 milyard dollara çatıb

**Xəzərin Azərbaycan sektorunda yerləşən nəhəng "Şahdəniz" yatağından hasilatın başlandığı 2006-cı ildən indiyədək, təxminən, 237 milyard standart kubmetr qaz hasil edilib. Bu barədə BP şirkətinin Xəzər regionu üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli sosial şəbəkələrdəki hesabında bildirib.**



Otən müddətdə "Şahdəniz" yatağından 49 milyon ton (təxminən 394 milyon barel) kondensat hasil olunduğunu bildirən vitse-prezident qeyd edib: "BP və onun tərəfdaşları indiyədək "Şahdəniz" layihəsi ilə bağlı fəaliyyətlərə, təxminən, 30 milyard ABŞ dolları kapital qoyublar və bunun da böyük hissəsi "Şahdəniz-2" layihəsi ilə bağlı olub".

B.Aslanbəyli paylaşımında daha sonra bildirib ki, Azərbaycan Dövlət Neft Fondu 2024-cü ilin sonuna qədər "Şahdəniz" layihəsindən 7,7 milyard ABŞ dollarından çox gəlir əldə edib.

Xatırladaq ki, Bakıdan 70 kilometr cənub-şərqdə yerləşən "Şahdəniz" perspektiv sahəsinin kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında saziş 1996-cı il iyunun 4-də imzalanıb. Həmin il oktyabrın 17-də "Şahdəniz" üzrə hasilatın pay bölgüsü sazişi ratifikasiya olunub. 1999-cu il iyulun 12-də də yataqda qazılmış ilk quyudan əldə olunmuş nəticələrin təqdimatına həsr olunmuş təntənəli mərasim keçirilib.

2013-cü il dekabrın 17-də Bakıda imzalanmış sənədlərə əsasən "Şahdəniz" yatağının işlənməsi ilə bağlı hasilatın pay bölgüsü sazişinin müddəti 2036-cı ildən 2046-cı ilədək uzadılıb.

"Şahdəniz" layihəsinin iştirakçıları isə BP (operator – 29,99 faiz), "Lukoil" (19,99 faiz), TPAO (19 faiz), NİKO (10 faiz), "Cənub Qaz Dəhlizi" (16,02 faiz) və MVM (5 faiz) şirkətləridir.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# “Erməni soyqırımı”: nağılın sonu



II MƏQALƏ

## “3 şeytan”ın bəyanatı

“Erməni soyqırımı” termini tarixin birbaşa saxtalaşdırılması və bir etnosa qarşı həyasız şər-böhtandır. Öncəki məqalədə də vurğuladığımız kimi, XIX-XX əsrlər imperiyaların amansız savaşı baxımından çox ziddiyətlidir. Orada Avropa və Asiya miqyasında elə proseslər baş vermişdir ki, fərqləndirici xətlərin haradan keçdiyini müəyyən etmək olduqca çətindir. Bunu 1944-cü ilə qədər, demək olar ki, hər kəs qəbul edirdi. Hər hansı “erməni soyqırımı”ndan da söz açan yox idi.

1915-ci il mayın 15-də Fransa, Böyük Britaniya və Rusiya imperiyaları birgə qətnamə qəbul etdilər. Orada birbaşa Osmanlı hökumətinin bütün üzvləri cinayətkar elan ounur və buna görə məsuliyyət daşıdıqları iddia edilirdi. Qətnamədə “qırğın” termini də işlədilmişdir. İddia edilirdi ki, Osmanlı “bəşəriyyətə və sivilizasiyaya qarşı cinayət törətmişdir”.

Bu qətnaməni “erməni soyqırımı”nın olduğunu təsdiqləyənlər bir mühüm faktı unudurlar. Birincisi, həmin üç imperiya XIX əsrin əvvəllərindən başlayaraq erməniləri ideoloji olaraq türk və ümumiyyətlə, müsəlmanlara qarşı zəhərləməklə məşğul idilər. 1915-ci ilə qədər təkcə indiki Azərbaycan Respublikası ərazisində milyonlarla müsəlman ya deportasiya, ya da məhv edilmişdilər.

Bunun üçün Qərb imperiyaları və Rusiyanın birbaşa yaratdıqları erməni terror təşkilatları mütəşəkkil şəkildə əsasən türk əhalinin qətliamlarını həyata keçirmişlər. Onların bir qismi haqqında faktları qısaca I məqalədə vurğulamışıq. Bu baxımdan XX əsrin ikinci onilliyi başlanğıc deyildi – öncədən qurulmuş planların növbəti mərhələsi idi.

Bu mərhələnin əvvəlkilərdən fərqi ondan ibarət idi ki, bir neçə imperiya (hərb meydanında daha çox Rusiya, diplomatiya, ideologiya və hüquqi aspektlərdə Qərb imperialsit dairələri) Osmanlını parçalayıb, Səfəvilərin olan-qalanını da ələ keçirərək, yerində türklərə və müsəlmanlara düşmən kəsdirilmiş ermənilərin dövlətini qurmaq planı reallaşdırırdı.

Bunun üçün bir tərəfdən yerli türk və müsəlman əhalini kütləvi şəkildə qırır, deportasiya edir, aşağılayır və əvəzində erməniləri onların yurdlarına yerləşdirirdilər. Onun fonunda isə həm tarixi saxtalaşdırır və ideoloji şantajlar edir, həm də erməniyə dövlət qurmağa çalışırdılar.

Bu proses I Dünya müharibəsinin ziddiyyətləri fonunda çox kəskin və güzəştsiz yön almağa başladı. Nəticədə Osmanlı özünün varlığını müdafiə etmək üçün hüquq çərçivəsində tədbirlər gördü. Həmin tədbirlər nəticəsində “üç şeytan”ın (artıq onlara ABŞ da qoşulmuşdu) planları yarımçıq qaldı.

Ancaq onlar ermənilərə heç vaxt demoqrafik üstünlüyə malik olmadıqları və hətta tarix boyu yaşamadıqları Azərbaycan torpaqlarında qondarma dövlət də qurdular. Bu süni erməni dövləti Rusiyanın himayəsinə verildi. Yəni indi “Ermənistan” adlanan yer həm ərazi, həm də dövlət sərhədi kimi birbaşa Qərb və Rusiya imperiyalarının öz mənafelərinə uyğun Türk dünyasının köksündə yaratdıqları qondarma ölkədir.

Belə alınır ki, “Ermənistan dövləti” I Dünya müharibəsində imperialist dövlətlərin qanunsuz “izdivacından” törəmiş “süni və bic” anlayışdır. 1944-cü ilə qədər Ermənistanla bağlı beynəlxalq miqyasda elə bir hay-küy baş verməmişdir. Ancaq hər şeyi bir polyak yəhudisi dəyişə bildi.

## Lemkinin termin “icadı”

Rafael Lemkin Polşada doğulmuş, lakin ABŞ-da hüquqşünas kimi karyera qurmuş yəhididir. O, “genosid” terminini ilk dəfə 1933-cü ildə büynəlxalq konfransda işlətmişdir. Həmin termin yunan və latın sözlərinin birləşməsindən ibarətdir və mənası bir irqin və ya qövmün, xalqın və millətin kütləvi yox edilməsidir – “genos” – irq, tayfa, “caedo”-öldürürəm deməkdir. “Genosid” 1948-ci ildə beynəlxalq termin statusunu aldı.

BMT onu kütləvi zorakılık forması kimi tərif edir. Burada məqsəd kimi hər hansı milləti, etnik, irqi və ya dini mənsubları məhv etməkdən ibarət seçilir. R.Lemkin yəhudilərin və ermənilərin soyqırıma məruz qaldıqlarını deyirdi və bunun beynəlxalq hüquqi status almasını tələb edirdi.

Beləliklə, tarixdə ilk dəfə olaraq beynəlxalq təşkilat əvvəlki mərhələlərdə baş vermiş hadisələrə indiki mərhələnin müəyyən edilmiş kriteriyaları ilə hüquqi qiymət vermək kimi tarixi səhvə yol verdi. Bu barədə tarixçilərdən Pyer Nora, hüquqşünaslardan isə hətta “erməni soyqırımı” nağılını qəbul edənlər yazırlar. Onlar hesab edirlər ki, BMT-nin 1948-ci ildə genosid haqqında qəbul etdiyi sənədin geriyə tətbiqi mümkün deyildir, o yalnız həmin ildən sonra baş verənlərə aid ola bilər. Deməli, “erməni soyqırımı”nın özü kimi, onun haqqında olan beynəlxalq sənəd də saxta və əsassızdır. Ancaq...

## Havadarları erməniləri “Yeni terror”a çağırır

XX əsrin ikinci yarısı boyu və XXI əsrin üçüncü onilliyinə qədər Ermənistan, erməni diasporları və bir srıa böyük güclər “erməni soyqırımı” nağılından gen-bol istifadə etməkdən çəkinmədilər. Çox sayda dövlət onu tanıdı. Hətta “erməni soyqırımı”nı tanımaq dərəcəsinə görə, “kim daha ədalətlidir” yarışına girişdilər. Bu prosesin fonunda XX əsrin ikinci yarısı və XXI əsrin ilk onilliklərində yeni erməni terror təşkilatları yaratdılar. Statistikaya diqqət edin: ASOA -1975-ci il (Beyrut), ASALA – 1975-ci il (Beyrut), “Orli qrupu” - 1981-ci il (Fransa), AOD-1991-ci il (Fransa), “Geqaron”-2001-ci il (ASALA yaratmışdır), Apostol – 2001-ci il və s.

Bunların hər birinin sənədlərində rəsmi olaraq Azərbaycan və Türkiyəyə, azərbaycanlılara və türklərə qarşı terror aksiyalarını həyata keçirmək, türk dövlətlərini parçalamaq, onların həyata keçirdikləri beynəlxalq layihələri (o cümlədən enerji layihələrini) məhv etmək kimi terror mahiyyətli fəaliyyətləri, “sivil”, “demokratik” və “əsl müstəqil “Böyük Ermənistan”ın qurulmasına aparan “hüquqi” və “təbii” yol kimi təqdim olunur. Bu kontekstdə bir maraqlı fakt da vardır. 1980-ci ilin aprelində ASALA və PKK Livanda ortaq saziş imzalamışlar ki, birgə terror aktları həyata keçirsinlər. 1993-cü ildə həmin sazişi yeniləyərək, yeni vəzifə müəyyən etmişlər: “pantürkist neft boruları”nı məhv etsinlər. Təsəvvür edək: hətta enerji layilərəini “türk”ə və “qeyri-türkə” bölürlər. Bakı –Tbilisi – Ceyhandan bir çox xalqlar faydalanmaqdadır. Ancaq ermənilərin havadarları onu da “türkləşdirərək” düşmənçiliyi alovlandırmağa cəhdlər edirlər.

XXI əsrdə yaradılmış “Geqaron” və ya “Apostol”un öncəki dövrlərdə yaradılmış erməni terror təşkilatlarının fəaliyyəti baxımından hansı dəyişikliyi etmişlər? Faktiki olaraq, heç bir! Hətta daha açıq formada türk dövlətçiliyini parçalamaq məqsədlərini ifadə etmişlər. “Geqaron”un məqsədi – Cənubi Qafqazda və Mərkəzi Asiyada türk əsilli diplomatlara, iş adamlarına, siyasi liderlərə qarşı terror aktları törətmək! “Apostol” – Azərbaycan və Türkiyə ərazisində terror aktları törətmək! İndi bunları fikrən XIX əsrin sonunda və XX əsr boyu yaradılan erməni terror təşkilatlarının məqsədləri ilə müqayisə edin! Mahiyyətcə, heç bir fərq yoxdur, əksinə yeni terror təşkilatlarının daha geniş və amansız səviyyədə antitürk mövqeyində olduqları bir daha təsdiqini tapır. Budur, türkləri soyqırımda ittiham edənlərin “sivil, mədəni, demokratik dövlət” üsulları! Terror, dağıtmaq, məhv etmək niyyətlərindən başqa heç nə yoxdur. Əsl soyqırımı budur!

## Nağılın “3 alma”sı

İndi rəsmi İrəvan “soyqırımı” haqqında başqa cür danışır. Ermənistan rəhbərliyi bunu əsassız yük, başqaları tərəfindən sırınmış hiyləgər plan kimi təqdim etməyə çalışır. Artıq “erməni soyqırımı” məsələsi öncəki kimi geniş müzakirə yaratmır. Sanki hər kəs bu məsələnin qondarma olduğunu qəbul etməkdən başqa yolun qalmadığını anlayır. Bu, aldadıcı inam da ola bilər. Ancaq üç məqamı vurğulamaq lazımdır.

Birincisi, Türkiyə XXI əsrdə daha fəal şəkildə “erməni soyqırımı” məsələsinin əsassız olduğunu siyasi-diplomatik yolla sübut etməkdədir. Prezident R.T.Ərdoğan bu istiqamətdə tarixi ədalət kriteriyasını ön plana çıxarmış və məsələni araşdırmaq üçün tarixçilər qrupunun yaradılmasını, arxivlərin açılmasını önə sürmüşdür! Bu fəaliyyətin nəticələri özünü göstərir.

Digər güclü fakt Azərbaycan Prezidentinin fəaliyyəti ilə bağlıdır. Xüsusilə, II Qarabağ müharibəsində Azərbaycanın möhtəşəm qələbəsi erməni soyqırımı nağıllarına son qoydu. İlk dəfə olaraq müəyyən erməni dairələri etiraf etdi ki, Qarabağ Azərbaycandır! Bu, etiraf faktiki olaraq artıq bir əsrdir ki, ermənilərin və havadarlarının apardıqları soyqırımı təbliğatının iflası deməkdir. Çünki erməni terrorçularının Qarabağda törətdiklərinin birbaşa terror hadisəsi, özgə torpağının zəbti üçün fəaliyyət növü olaraq qəbul etmək deməkdir. Eyni məntiqlə ermənilərin Qərbi Azərbaycan, Zəngəzur, Cənubi Azərbaycan, Borçalı və başqa yerlərdə etdiklərinin terror aksiyaları olduğu sübuta yetirilmiş olur. Bu da real olaraq “erməni soyqırım”ının tam iflas nöqtəsinə yaxınlaşması deməkdir.

Bunların fonunda dünyanın yeni düzəninin formalaşması prosesini də vurğulamaq lazımdır. Belə görünür ki, yeni format daxilində “erməni soyqırımı” kimi nağıllara ehtiyac qalmır. Dünya ictimaiyyəti bunu istəmir. Türk müsəlmanlara atılan şər-böhtana son qoyulması gərəkdir! Bu prosesə rəsmi İrəvanın ədalətli mövqeyə tam olaraq gəlməsi təkan verə bilər. Əslində, onlara layiq olmadıqları ərazidə dövlət qurmuşlar! Bundan artığına iddia etmək səfehlikdir. Bəlkə də ağıllandılar!

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

**Xuntaçıların məhkəməsi**

# Vertolyot hadisəsi və mülki ölümlərlə bağlı sübutlar ədalət mühakiməsində

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, David İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası aprelin 24-də davam etdirilib.**







Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Əvvəlcə məhkəmədə Şuşanın işğal olunmasına qədər baş vermiş hadisələrlə bağlı sənədlər tədqiq edilib. Protokolları tədqiq edilən ilk fakt 1989-cu il dekabrın 13-14-də, digər hadisələr isə sonrakı müddətlərdə qeydə alınıb.

Dövlət ittihamını müdafiə edən prokurorların tədqiq etdiyi sənədlərə əsasən, işğala qədər Şuşa şəhəri və ətraf kəndlər Ermənistan silahlı qüvvələri tərəfindən dəfələrlə müxtəlif silahlarla, o cümlədən raketlərlə və toplarla atəşə tutulub. Həmin hadisələr zamanı milliyyətcə azərbaycanlı olan şəxslər həlak olub, yaralanıb və girov götürülüblər.

Habelə Ermənistan silahlı qüvvələri tərəfindən azərbaycanlıların yaşadığı kəndlərin su kəmərləri və yüksəkgərginlikli elektrik xətti partladılıb, təhsil, səhiyyə və digər mülki obyektlərə, vətəndaşların evlərinə, avtomobillərinə və digər əmlaklara ciddi zərər dəyib.

Qeyd olunan faktlar üzrə həmin vaxt cinayət işləri başlanılıb.

Həmin hadisələrə Malıbəyli və Quşçular qətliamı kimi tanınan hadisələr, bu zaman dinc əhalinin kütləvi şəkildə öldürülməsi və hər iki kəndin işğal edilməsi də daxildir.

Məhkəmədə tədqiq olunan digər protokol isə 1991-ci il aprelin 4-də Şuşa rayonunun Göytala kəndində uçuş zamanı vertolyotun atəşə tutulması faktı ilə bağlı olub. Həmin gün saat 12-13 radələrində içərisində Azərbaycan Respublikası Ali Sovetinin deputatları olan Daxili İşlər Nazirliyinə məxsus 27057 nömrəli vertolyot Şuşa rayonun Göytala kəndinə uçuş zamanı ermənilərin yaşadığı Eksaok kəndindən atəşə tutulması nəticəsində zədələnib, Turşsu kəndinə məcburi eniş edərkən qəzaya uğrayaraq yanıb, bəzi sərnişinlər yaralanıb.

Elan və tədqiq olunan digər protokol 1992-ci il yanvarın 28-də sərnişin vertolyotunun vurulması faktı ilə bağlı olub. Qeyd edilib ki, Ağdam aeroportundan havaya qalxaraq Ağdam-Şuşa reysi üzrə uçuşa başlayan Azərbaycan Respublikasına məxsus “AZAL” mülki aviasiya konserninin “AZALPANX” Zabrat aviaşirkətinə aid 24137 bort nömrəli “Mİ-8T” markalı sərnişin vertolyotu Xankəndi şəhərinin Kərkicahan kəndi ərazisindən Ermənistan silahlı qüvvələri tərəfindən raketlə vurulub. Vertolyot Şuşa rayonunun Xəlfəli kəndindən Qaybalı kəndinə gedən torpaq yola çırpılaraq partlayıb. Hadisə zamanı 3 nəfər ekipaj və 39 nəfər sərnişin olmaqla 42 nəfər ölüb. Hadisə yerinə və meyitə baxış keçirilməsi haqqında protokollardan görünür ki, vertolyotun yanğınla müşayiət olunan partlayışı zamanı içərisində olan şəxslərin meyitləri yanmış və parçalanmış vəziyyətdə aşkarlanıb. Hadisə yerindən qəlpə hissələri götürülüb. Partlayış nəticəsində 42 nəfər ölüb.

Daha sonra zərərçəkmiş şəxs Elxan Ələkbərov ifadəsində Şuşa Milis Şöbəsində çalışdığını, işğala qədər və işğal zamanı hadisələri gördüyünü bildirib.

E.Ələkbərov Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları ilə bağlı 1988-ci il sentyabrın 20-də yaşadığı Şuşa şəhərində komendant saatı tətbiq olunduğunu söyləyib. O, Baş prokurorun böyük köməkçisi Vüsal Əliyevin suallarına cavab olaraq deyib: “Müxtəlif zamanlarda bizim Ağdama gediş-gəlişimizdə, digər rayonlarla əlaqə saxlamağımızda böyük problemlərlə qarşılaşırdıq. Yolda bizi daşa basırdılar. Rəhmətlik atamın da avtobusda başını daşla vurub yarmışdılar. Bəlkə də ölüm səbəbi elə ondan olub”.

O, sonralar Şuşanın xüsusən Topxana və Şuşakənd istiqamətlərindən ağır artilleriya atəşinə məruz qaldığını bildirib: “Top atəşi ilə vururdular, “Alazan” tipli raketlər atırdılar. Məsələn, mülki şəxs Fərhadov Füzuli Aydın oğlu evində oturarkən “Alazan” tipli raket düşməsi nəticəsində qətlə yetirilmişdi”.

Zərərçəkmiş şəxs 1991-ci il noyabr ayının 5-də Şuşanın Nəbilər kəndinə olan hücumdan da bəhs edib: “Kənd sakini, mülki şəxs Vahid Sevindiyov qətlə yetirildi. Həmin döyüşdə mən başımdan ağır güllə yarası aldım. Uzun müddət bununla bağlı xəstəxanada qaldım, sonra hospitaldan tərxis olub şəhərimizə qayıtdım”.

O, Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimlinin suallarına cavabında Şuşanın növbəti dəfə artilleriya atəşinə tutulması zamanı milis şöbəsinin vurulduğunu, milis əməkdaşı Nizami Məmmədovun şəhid olduğunu deyib: “Daha iki milis işçisi yaralandı. Yaralılardan Sadıq Hüseynov sağalmadı, şəhid oldu”.

Zərərçəkmiş şəxs su kəmərlərinin partladılması və yolların bağlanması nəticəsində Şuşa əhalisinin su və çörək çatışmazlığından əziyyət çəkdiyini deyib: “1989-cu ilin sonundan 1992-ci ilin mayına qədər davamlı atəş altında yaşamışıq”.

Zərərçəkmiş şəxs Şuşanın işğalı barədə danışarkən əhalinin şəhəri tərk etməsi üçün Ermənistan silahlı qüvvələri tərəfindən heç bir dəhliz verilmədiyini də söyləyib: “Mülki əhalinin çıxması üçün dəhliz verilsəydi, mütləq bilərdim. Heç bir dəhliz olmayıb. Əhali şəhəri çox əziyyətlə tərk etdi. Məsələn, Firuzə adlı bir qadın yoxuşu qalxanda ürəyi partlayıb öldü”.

Şahid qismində dindirilmiş Sahib Sarıyev ifadəsində bildirib ki, 1967-ci ildə Şuşada anadan olub. O, mütəmadi olaraq Xankəndiyə getdiyini də bildirib. Şahid təqsirləndirilən şəxsləri göstərərək deyib: “Orada oturanlardan Bako Sahakyan, Arkadi Qukasyan şəxsən tanıdıqlarım idi. Biz 1988-ci ilin sentyabrından etibarən Xankəndidəki Malıbəyli pavilyonunda işləyirdik. Bu adamlar oranı yaxşı tanıyarlar. 1988-ci il sentyabrın 17-də bunlar əllərində daş, odun, dəmir parçaları ilə tökülüşdülər Malıbəyli körpüsünə. Bunların arasında o prosesdə iştirak edənlər var. Sentyabrın 17-dək orada qaldıq, sonra getdik Şuşaya. Restoranı da birdəfəlik bağladıq. Çünki bunlar imkan vermədilər. Həmin vaxt da bunlar hazırlıqlı vəziyyətdə idilər. Livandan, Suriyadan, Kanadadan, Fransadan milyoner ermənilər pul göndərirdi. Xankəndidə yaşayan Manuçarov “karyer”in direktoru, Nərimanyan ət kombinatının direktoru, Badamyan avtobazanın direktoru, Sehranyan lampa zavodunun direktoru bunları idarə edirdi”.

Şahid çalışdığı yanacaqdoldurma məntəqəsinin qanunsuz erməni silahlı birləşmələri tərəfindən partladılmasını da danışıb. S.Sarıyev Yevlax-Laçın yolunun 112-ci kilometrində Şuşa şəhərindən Laçın şəhərinə gedən yolun sol tərəfindən yolun kənarında yerləşən yanacaqdoldurma məntəqəsində baş operator işlədiyini, həmin yanacaqdoldurma məntəqəsində İlqar Ağalarovla növbələşərək çalışdığını bildirib. Şahid bildirib ki, 1990-cı il martın 23-də saat 20 radələrində yanacaqdoldurma məntəqəsini bağlayıb Şuşa şəhərinə gedib. Növbəti gün səhər saat 07 radələrində yanacaqdoldurma məntəqəsinə gəldikdə orada milis əməkdaşlarını və yanğınsöndürənləri görüb, həmin vaxt yanacaqdoldurma məntəqəsində olan, içərisində 15 min rubl dəyərində A-76 markalı benzin saxlanılan çənin yandığını, həmçinin yanacaqdoldurma məntəqəsində olan vaqonun pəncərələrinin şüşələrinin qırıldığını və vaqonda olan 95 rubl dəyərində telefon aparatının yoxa çıxdığını görüb.

Zərərçəkmiş İlham Həsənov 1960-cı ildə Şuşada doğulduğunu və orada yaşadığını bildirib. O, dövlət ittihamçısı Vüsal Abdullayevin suallarına cavabında qardaşı Rövşən Həsənovun 1992-ci il mayın 7-dən 8-nə keçən gecə Şuşada itkin düşdüyünü deyib.

“Həmin vaxt bombalar Şuşaya yağış kimi yağırdı”, - deyə o əlavə edib.

Zərərçəkmiş bildirib ki, Şuşa şəhərində N.Nərimanov küçəsindəki ikiotaqlı mənzili və mənzilində olan mebel əşyaları qalıb.

Zərərçəkmiş şəxs qismində tanınaraq dindirilmiş Hikmət Zeynalov ifadəsində Şuşada anadan olduğunu, hərbi xidmətinin il yarımını Ermənistanda - Eçmiədzində çəkdiyini bildirib. O, deyib: “Ermənistanın digər rayonlarında da olmuşam. Qarabağda ermənilər yaxşı yaşayırdılar. Yaxşı həyatları var idi. Camaatı qaldırdılar azərbaycanlıların üstünə, bizim qanımızı tökdülər, torpaqlarımızı işğal etdilər”.

H.Zeynalov Şuşa şəhəri M.H.Vəzirov küçəsində yerləşən ikimərtəbəli həyətyanı sahəsi olan fərdi evində yaşayıb. 1992-ci il mayın 14-də Xocalı rayonu Muxtarkənd və Şuşakənd istiqamətlərindən atəşə tutularkən yandırıcı tərkibli raketlərdən birinin onun yaşadığı evə düşməsi nəticəsində evləri dağılaraq bütün əşyaları ilə birlikdə tamamilə yanıb. Nəticədə H.Zeynalova ziyan dəyib.

“Anam torpaq nisgili ilə 2013-cü ildə dünyadan köçdü. Hər şeyi bağışlaya bilərəm, bircə anamın o nisgillə dünyadan köçməsini bağışlaya bilmərəm”, - deyə zərərçəkmiş şəxs bildirib.

Zərərçəkmiş şəxslər dövlət ittihamçılarının, zərərçəkmişlərin nümayəndələrinin və müdafiə tərəfinin suallarını cavablandırıblar.

Onlar təqsirləndirilən şəxslərin layiqli formada cəzalandırılmasını məhkəmədən xahiş ediblər.

Məhkəmənin növbəti iclası aprelin 25-nə təyin olunub.

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 121**

**Bakı şəhəri, 21 aprel 2025-ci il**

**Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Bəzi dövlət orqanlarının dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq tarif (vəzifə) maaşlarının artırılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 27 yanvar tarixli 296 nömrəli Fərmanının 3-cü hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin dövlət büdcəsindən maliyyələşdirilən gömrük orqanları və təşkilatlarının dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri” təsdiq edilsin (əlavə olunur)*.

**2.** Müəyyən edilsin ki, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sisteminə daxil olan dövlət büdcəsi vəsaiti hesabına saxlanılmayan gömrük orqanları və təşkilatlarında mülki işçilərin aylıq vəzifə (tarif) maaşlarının məbləği bu Qərarın əlavəsində göstərilən aylıq vəzifə (tarif) maaşlarının məbləği səviyyəsində Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi tərəfindən təsdiq edilir.

**3.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılsın ki, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin dövlət büdcəsindən maliyyələşən qurumlarının dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artımı ilə əlaqədar tələb olunan əlavə vəsaitin maliyyələşdirilməsini Azərbaycan Respublikasının 2025-ci ilin dövlət büdcəsində müvafiq məqsədlər üçün nəzərdə tutulmuş vəsait hesabına həyata keçirsin.

**4.** “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin dövlət büdcəsindən maliyyələşdirilən gömrük orqanları və təşkilatlarının dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri”nin təsdiq edilməsi, “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə maaşlarının məbləğləri”nin təsdiq edilməsi, “Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının və xüsusi rütbəsi olan əməkdaşlarının xüsusi rütbəyə görə maaşlarının məbləğlərinin təsdiq edilməsi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Gömrük orqanlarının vəzifəli şəxslərinin xüsusi rütbələr üzrə maaşlarının məbləğlərinin təsdiq edilməsi haqqında” 2008-ci il 23 oktyabr tarixli 252-31 nömrəli və “Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının təsdiq edilməsi və “Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 oktyabr tarixli 315-15 nömrəli qərarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 17 may tarixli 224-18 nömrəli Qərarında dəyişikliklər edilməsi haqqında” 2019-cu il 11 aprel tarixli 156-6 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 6 sentyabr tarixli 393 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 10 dekabr tarixli 470 nömrəli Qərarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 16 fevral tarixli 41 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 2, maddə 165 (Cild I) 1-ci hissəsi ləğv edilsin.

5. Bu Qərar 2025-ci il yanvarın 1-dən tətbiq edilir.

—
*Əlavə dərc edilmir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 123**

**Bakı şəhəri, 22 aprel 2025-ci il**

**“Aviasiyanın ətraf mühitə təsirinin azaldılması Qaydası”nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Aviasiya haqqında” Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1058-VIQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 15 fevral tarixli 1 nömrəli Fərmanının 2.3.8-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Aviasiyanın ətraf mühitə təsirinin azaldılması Qaydası” təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 124**

**Bakı şəhəri, 22 aprel 2025-ci il**

**“Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 25 mart tarixli 112 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 25 mart tarixli 112 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 373 (Cild I); 2024, № 4, maddə 451, № 7, maddə 900, № 10, maddə 1169; 2025, № 2, maddə 182) 2-ci hissəsində “aprelin” sözü “iyulun” sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 125**

**Bakı şəhəri, 22 aprel 2025-ci il**

**“Bakı şəhər Baş Səhiyyə İdarəsinin tabeliyində yaradılmış xüsusi ambulator tibb məntəqələrində yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxmuş xəstələrə ambulator-poliklinik yardım göstərən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 23 iyul tarixli 262 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Bakı şəhər Baş Səhiyyə İdarəsinin tabeliyində yaradılmış xüsusi ambulator tibb məntəqələrində yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxmuş xəstələrə ambulator-poliklinik yardım göstərən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 23 iyul tarixli 262 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 992 (Cild I); 2024, № 1, maddə 92, № 4, maddə 459, № 7, maddə 901, № 10, maddə 1172; 2025, № 2, maddə 183) 2-ci hissəsində “aprelin” sözü “iyulun” sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 126**

**Bakı şəhəri, 23 aprel 2025-ci il**

**“Azərenerji” Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsinin və strukturunun təsdiq edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərenerji” Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 mart tarixli 353 nömrəli Fərmanının 3.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Azərenerji” Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsi” təsdiq edilsin (əlavə olunur).

**2.** “Azərenerji” Açıq Səhmdar Cəmiyyətinin strukturu” təsdiq edilsin (əlavə olunur).

**3.** Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə”nin 3.5-ci bəndinə uyğun edilə bilər.

**4.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Qərardan irəli gələn məsələləri həll etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 128**

**Bakı şəhəri, 23 aprel 2025-ci il**

**“Pir Hüseyn Xanəgahı” Tarix-Memarlıq Qoruğunun və Zaqatala Tarix-Mədəniyyət Qoruğunun əsasnamələrinin təsdiq edilməsi və “Zaqatala Tarix-Mədəniyyət Qoruğunun Əsasnaməsinin təsdiq edilməsi haqqında” Azərbaycan SSR Nazirlər Sovetinin 1984-cü il 7 may tarixli 155 nömrəli Qərarının ləğv edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Pir Hüseyn Xanəgahı” Tarix-Memarlıq Qoruğunun Əsasnaməsi” təsdiq edilsin (əlavə olunur).

**2.** “Zaqatala Tarix-Mədəniyyət Qoruğunun Əsasnaməsi” təsdiq edilsin (əlavə olunur).

**3.** “Zaqatala Tarix-Mədəniyyət Qoruğunun Əsasnaməsinin təsdiq edilməsi haqqında” Azərbaycan SSR Nazirlər Sovetinin 1984-cü il 7 may tarixli 155 nömrəli Qərarı ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 129**

**Bakı şəhəri, 23 aprel 2025-ci il**

**“Pir Hüseyn Xanəgahı” Tarix-Memarlıq Qoruğunun və Zaqatala Tarix-Mədəniyyət Qoruğunun sərhədləri və mühafizə zonalarını əks etdirən xəritələrin təsdiq edilməsi haqqında**

“Mədəniyyət haqqında” Azərbaycan Respublikasının 2012-ci il 21 dekabr tarixli 506-IVQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 15 fevral tarixli 828 nömrəli Fərmanının 2.3-2-ci bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Pir Hüseyn Xanəgahı” Tarix-Memarlıq Qoruğunun sərhədini və mühafizə zonasını əks etdirən xəritə təsdiq edilsin (əlavə olunur).

**2.** Zaqatala Tarix-Mədəniyyət Qoruğunun sərhədini və mühafizə zonasını əks etdirən xəritə təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

**Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.**

# Çindən Azərbaycana kosmik “İpək yolu”

**Son illərdə Azərbaycan ilə Çin arasında müxtəlif sahələrdə əməkdaşlıq dərinləşməkdədir. Bu əməkdaşlıq yalnız iqtisadi və nəqliyyat sahələri ilə məhdudlaşmır, həm də yüksək texnologiyaları, o cümlədən kosmos sənayesini də əhatə edir. Çinin “Kəmər və yol” təşəbbüsü çərçivəsində Azərbaycana verdiyi strateji əhəmiyyət, Azərbaycanın isə kosmik infrastruktura və rəqəmsal transformasiyaya yönələn siyasəti bu sahədə qarşılıqlı maraqları bir araya gətirir.**



Bu mənada Prezident İlham Əliyevin Pekinə səfəri zamanı imzalanan “Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Çin Milli Kosmik İdarəsi (CNSA) arasında kosmosda əməkdaşlıq və kosmik fəzadan dinc məqsədlər üçün istifadə haqqında Anlaşma Memorandumu” iki ölkənin kosmos sahəsində əməkdaşlığını yeni mərhələyə daşıyır və Bakının kosmos ölkəsi kimi nüfuzunu daha da artırır.

Azərbaycan ilə Çin arasında kosmik sektorda əməkdaşlıq əhəmiyyətli potensiala malik sahədir. Doğrudur, indiyədək konkret irimiqyaslı birgə layihələr həyata keçirilməmişdir. Bununla belə, mümkün perspektivlərə işarə edən bir neçə amil və istiqamət var. Belə ki, münasibətlərin ümumi kontekstində Azərbaycan və Çin əla diplomatik və iqtisadi əlaqələrə malikdir, o cümlədən Çinin “Kəmər və yol” təşəbbüsü çərçivəsində münasibətlər uğurla inkişaf edir. Buna görə də, kosmos da daxil olmaqla yüksək texnologiyalı sənayelər çox vaxt bu cür tərəfdaşlıqların dərinləşdirilməsi üçün perspektivli sahələr kimi qiymətləndirilir.

Çinin texnoloji imkanları da kosmosda uğurlu əməkdaşlığa zəmanət verir. Pekin dünyanın ən qabaqcıl və sürətlə inkişaf edən kosmik proqramlarından birinə malikdir. Belə ki, ölkənin uçuş vasitələri Qərb analoqlarından geri qalmır, Pekin “Long March” raket ailəsi ilə rəqabətədavamlı peyk buraxılış xidmətləri təklif edir. Eyni zamanda, Çin peyk istehsalında da qabaqcıl texnologiyalara malikdir. Ölkənin müxtəlif növ peyklərin (rabitə, Yerin məsafədən zondlanması (ERS), naviqasiya) dizaynı və tikintisi üçün böyük potensialı var.

Naviqasiya sistemləri barədə də eyni sözləri demək olar. Çin özünün qlobal naviqasiya sistemi “BeiDou”nu inkişaf etdirir. “BeiDou” regional peyk sistemi 2012-ci ilin dekabrından Asiya-Sakit okean regionu ölkələrində mülki xidmətlər göstərir. Sistem Çin, qonşu ölkələr və Asiya-Sakit okean regionu ərazisində coğrafi koordinatların müəyyənləşdirilməsini təmin edir. GPS-dən müstəqil yerli xidmətin təşkili, əkin sahələrinin koordinatlaşdırılmış idarə olunması və nəqliyyat və yük daşımalarında daha dəqiq marşrutların planlaşdırılması bu sistemin üstünlükləridir.

Azərbaycanın da rabitə peyklərinin (Azerspace) və məsafədən zondlama peyklərinin (Azersky) istismarı təcrübəsi var. Çinlə əməkdaşlıq Qərb şirkətləri ilə (Azərbaycan peyklərinin yaradılması və buraxılışında iştirak etmiş şirkətlər-red.) mövcud tərəfdaşlıqlara alternativ və ya tamamlayıcı ola bilər. Eyni zamanda, Çin bəzi ənənəvi təchizatçılardan daha sərfəli kosmik texnologiya və xidmətlər təklif edə bilər. Tərəflər peyk komponentlərinin birgə istehsalı, yerli montaj və sınaq laboratoriyalarının qurulması, habelə süni intellekt texnologiyalarının peyk məlumatlarına tətbiqi kimi sahələrdə uğurlu əməkdaşlıq əlaqələri qurmaq potensialına malikdirlər.

Bundan başqa, Azərbaycan Çin ilə birgə kosmos layihələri həyata keçirərək, Cənubi Qafqaz və Mərkəzi Asiya arasında informasiya körpüsü rolu oynaya bilər. Belə ki, Transxəzər məlumat şəbəkələrinin qurulması, kosmos forumlarının keçirilməsi kimi təşəbbüslərin Bakının regional liderlik mövqelərinin güclənməsinə müsbət təsir göstərmək şansı böyükdür. Bu mənada Avropa və Asiyanın kəsişməsində yerləşən Azərbaycan təkcə tranzit deyil, həm də informasiya və kosmik qovşaq rolunu da oynaya bilər. Eyni zamanda, Azərbaycan və Çin Asiya–Sakit Okean Kosmik Əməkdaşlıq Təşkilatının (APSCO) üzvləridir və bu təşkilat həm də dialoq və potensial birgə təşəbbüslər üçün platforma yaradır.

Beləliklə, Azərbaycan və Çin arasında kosmos sahəsində əməkdaşlığın ümidverici perspektivləri var. Bunlar Çinin imkanlarına, Azərbaycanın kosmik proqramını inkişaf etdirmək ehtiyaclarına və ikitərəfli münasibətlərin ümumi müsbət fonuna əsaslanır. Əlbəttə, konkret addımlar siyasi qərarlardan, hər iki ölkənin strateji prioritetlərindən və imzalanan müvafiq sazişlərin yerinə yetirilməsi səviyyəsindən asılı olacaq. Bu baxımdan kosmos sahəsində əməkdaşlığı nəzərdə tutan Anlaşma Memorandumunun imzalanması təsdiqləyir ki, yaxın illərdə biz iki ölkə arasında dialoqun artacağını və bu sahədə konkret birgə layihələrin ortaya çıxacağını müşahidə edəcəyik.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

# Ailə, icma və bələdiyyələr



**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Azərbaycan Bələdiyyələrinin Milli Assosiasiyaları (ABMA) və Dövlət İdarəçilik Akademiyasının birgə təşkilatçılığı ilə “Ailə və icma məsələlərində yerli özünüidarəetmənin təsir mexanizmləri” adlı konfrans keçirilib.**

Akademiyanın rektoru Urxan Ələkbərov Azərbaycanın sürətli inkişaf yolundan danışıb və ölkəmizin hər sahədə yüksək göstəricilərinin olduğunu bildirib. Əlavə edib ki, bu yeni dövlət idarəçilik texnologiyalarının tətbiqinin nəticəsidir.

AQUPDK-nin sədri Bahar Muradova dünyada gedən proseslərin çətinliklərinə daha çox məruz qalan ailənin mənafeyi, maraqları və problemlərinin aradan qaldırılması üçün dövlət qurumları, vətəndaş cəmiyyəti və bələdiyyələrin bu sahədə rolunun artırılmasının vacibliyini bildirib.

Azərbaycan Şəhər Bələdiyyələrinin Milli Assosiasiyasının və Nərimanov Bələdiyyəsinin sədri Təmraz Tağıyev qeyd edib ki, Azərbaycanda bələdiyyələrin fəaliyyəti üçün çoxsaylı sərəncamlar imzalanıb və qanunvericilik istiqamətində atılan addımlar öz müsbət təsirini göstərməkdədir.

Milli Məclisin deputatı, Regional məsələlər komitəsinin üzvü Kamran Bayramov, Ədliyyə Nazirliyi Bələdiyyələrlə İş Baş İdarəsinin rəis müavini Mehdi Abdullayev, Dövlət İdarəçilik Akademiyasının hüquq kafedrasının müdiri İsaxan Vəliyev, Azərbaycan Qəsəbə Bələdiyyələrinin Milli Assosiasiyasının sədri Hümbət Hüseynov, Zabrat Bələdiyyəsinin sədri Nailə Nəsirova çıxış edib.

Konfransın sonunda Bahar Muradova və ABMA-nın Əlaqələndirici koordinatoru Aydın Muradov Anlaşma Memorandumu imzalayıblar. Sənəd Azərbaycan Respublikasının qanunvericiliyinə, habelə AQUPDK-nin əsasnaməsinə və ABMA-nın nizamnaməsinə uyğun olaraq, tərəflər arasında növbəti 3 ildə qarşılıqlı əməkdaşlığı tənzimləyəcək.

***Z.HÜSEYNOVA***
***XQ***

# Xəzər çəkilir geri – yaraya çevrilir yeri

(əvvəli 1-ci səhifədə)



Belə bir şəraitdə 15 milyona yaxın insanın yaşadığı regionda genişmiqyaslı ekoloji fəlakətin yaşanacağı xatırladılır. Qeyd edək ki, sözügedən elmi araşdırmanın nəticələri Böyük Britaniyanın "Communications Earth & Environment" jurnalında diqqətə çatdırılır.

Məqalədə planetin ən böyük endoreik su hövzəsi olan Xəzərin unikal ekosistemin saxlanmasında əsas rol oynadığı bildirilir. Başqa sözlə, Xəzər, eyni zamanda, dəniz suitisi, ağcaqayın, ulduz nərə balıqları və bir çox digər endemik növlərin məskəni kimi tanınır. Hesablamalar göstərir ki, temperaturun minimal artması ilə belə dənizin su səthinin sahəsi 112 min kvadrat kilometr azala bilər. Bu isə İslandiya kimi bir ölkənin ərazisindən böyükdür.

Alimlərin fikrincə, Xəzərin davamlı dayazlaşması perspektivdə biomüxtəlifliyə və yerli əhalinin rifahına mənfi təsir göstərəcək. Məsələn, bu dənizin şimal sahillərində balıqçılığın yoxa çıxması onları əsas gəlir mənbəyindən məhrum edəcək, sərt iqlim şəraiti isə alternativ iqtisadi fəaliyyətlərin, o cümlədən kənd təsərrüfatının inkişafını dayandıracaq. Üstəlik, Bakı və Aktau kimi iri liman şəhərləri yeni sahil zolağından onlarla kilometr aralı yerləşəcək. Bu isə regionda neft hasilatı üçün zəruri olan bütün logistik infrastrukturun köklü şəkildə yenidən qurulmasını tələb edəcək. Nəhayət, Aral faciəsi kimi Xəzərin dayazlaşması da dəniz dibindən duz və sənaye çirkləndiricilərinin yayılması nəticəsində yaranan zəhərli toz fırtınalarına səbəb olacaq.

Tədqiqatçılar isə gözlənilən fəlakətin təsirini yumşaltmaq üçün tədbirlər kimi qoruq ərazilərin yaradılmasını, biomüxtəlifliyin monitorinqinə fəal investisiya qoyulmasını və sahilyanı iqtisadiyyatların şaxələndirilməsini qətiyyətlə tövsiyə edirlər.

Yeri gəlmişkən, Xəzərin dayazlaşması problemi sahilyanı ölkələrin dövlət başçılarında da ciddi narahatlıq doğurub. Rusiyanın dövlət informasiya agentliyi "RİA Novosti"nin məlumatına əsasən, ölkə Prezidenti Vladimir Putin mediaya müsahibəsində bildirib ki, azərbaycanlı və qazaxıstanlı həmkarları İlham Əliyev və Qasım-Jomart Tokayevlə görüşlərində Xəzər dənizində ekoloji fəlakətin qarşısının alınması yolları müzakirə olunub, hamını narahat edən bu məsələyə həssaslıqla yanaşılmasının zəruriliyi vurğulanıb.

Agentliyin yazdığına görə, Rusiyanın dövlət başçısı fikirlərini belə davam etdirib: "Azərbaycanda keçirilən görüşlərdə İlham Əliyev bu barədə danışıb, Qazaxıstanda Qasım-Jomart Tokayev də məsələyə münasibət bildirib. Xəzərin dayazlaşması hər kəsi narahat edir. Əlbəttə, bundan, ilk növbədə, nəzərəçarpacaq dərəcədə əziyyət çəkən heyvan növlərinə diqqət yetirməliyik. Amma, ümumilikdə, bu, böyük problemdir".

Azərbaycan Prezidenti İlham Əliyev isə ötən il noyabrın 13-də Bakıda keçirilən COP29 konfransı çərçivəsində inkişaf etməkdə olan kiçik ada dövlətlərinin sammitində Xəzərin dayazlaşması məsələsinə toxunaraq iqlim dəyişmələrinin hər bir ölkəyə, o cümlədən Azərbaycana təsir göstərdiyini bildirib. "Görürük ki, Xəzər dənizi ilbəil daha da dayazlaşır. Görürük ki, çaylarımızda daha az su, dağlarımızda daha az qar var. Əfsuslar ki, keçmişdə heç vaxt görmədiyimiz daşqınlar və kəskin yağışlar bu gün reallıqdır...".

Dövlətimizin başçısının Xəzərin dayazlaşması ilə bağlı başqa bir fikri də diqqət çəkir. Prezident İlham Əliyevin keçən ilin avqust ayının 19-da Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin Azərbaycana rəsmi səfəri çərçivəsində keçirilən görüşdə Azərbaycan lideri Xəzərdə ekoloji vəziyyət, onun fəlakətli dayazlaşması üzrə həmkarı ilə fikir mübadiləsi aparıb: "Danışıqlar apardığımız otağın pəncərəsindən Vladimir Vladimiroviçə hələ iki il əvvəl suyun altında olan, bu gün isə artıq bir metr yuxarıya çıxan qayaları göstərdim. Biz bunu Abşeron yarımadasının bütün sahili boyu, həm də Azərbaycanın bütün sahilyanı ərazilərində müşahidə edirik. Mümkün ekoloji fəlakətin qarşısını almaq üçün biz birgə səylərlə vəziyyəti təhlil etmək və həm ikitərəfli, həm də beştərəfli formatda həll yollarını müəyyənləşdirmək barədə razılığa gəldik. Yəni, bu ekoloji fəlakətin meydana çıxmasını artıq açıq-aşkar görürük".

Qeyd edilməlidir ki, Azərbaycana həmin dövlət səfərindən sonra Rusiya Prezidenti Vladimir Putin Xəzər dənizinin dayazlaşmasının qarşısının alınması üçün elmi təhlillərin aparılmasına diqqət göstərib. Həlelik isə ötən müddətdə dənizdə yaşanan ekoloji problemlərdən bütün sahilyanı ölkələrin təsirlənməsi davam edir. Belə vəziyyətdə Azərbaycan Xəzər dənizinin xilasının uzunmüddətli beynəlxalq əməkdaşlığın təməl prinsiplərindən birinə çevrilməsini prioritet hesab edir.

Mütəxəssislərin fikrincə, Xəzər boyu 5 dövlət tərəfindən paylaşılan sözügedən dənizin unikal ekosistemini qorumaq çətin olsa da, həlli mümkündür. Azərbaycanın yanaşması isə belədir ki, sahilyanı ölkələr dənizi qorumaq üçün koordinasiyalı səy göstərməlidir.

Yeri gəlmişkən, xatırladaq ki, hələ 2003-cü ilin noyabrında Tehranda 5 sahilyanı dövlət – Azərbaycan, Qazaxıstan, İran, Rusiya və Türkmənistan Xəzər dənizinin qorunmasına yönəlmiş mühüm çərçivə konvensiyasını imzalayıblar.

Beləliklə, 2006-cı ilin avqustundan qüvvəyə minən sənəd təkcə Xəzərin mümkün çirklənmə mənbələrindən qorunmasını deyil, həm də dənizin mühafizəsini özündə ehtiva edir. Dənizdə dayazlaşma davam edərsə, bu, gələcəkdə ekoloji problemlərlə yanaşı, çox ciddi sosial-iqtisadi fəsadlara da gətirib çıxaracaq. Belə ki, dəniz üzərindən daşımalarda, limanların və digər infrastrukturun fəaliyyətinin pozulmasında yaranacaq problemlər milyonlarla insanın, həmçinin bütün Xəzəryanı ölkələrin sosial-iqtisadi həyatına mənfi rakursda təsir göstərəcək.

"Azərkosmos" və "STAR.VISION" Xəzər dənizində iqlim dəyişikliyinin təsirini araşdıran birgə tədqiqat layihəsinə start verib. Azərbaycan Kosmik Agentliyinin ("Azərkosmos") yaydığı məlumata görə, hazırda layihə çərçivəsində süni intellekt və məsafədən müşahidə texnologiyalarının imkanlarından istifadə edilərək, dənizin son 20 ildəki vəziyyəti – su səviyyəsinin dəyişməsi, sahil eroziyası və ekosistem pozuntuları kimi göstəricilər üzrə araşdırmalar həyata keçirilir. Bu təşəbbüsə sahil və ekologiya sahəsində ixtisaslaşmış Çinin Ningbo Universiteti tərəfindən dəstək göstərilir. Bu təşəbbüs Azərbaycan və Çin arasında innovativ texnologiyalarla ətraf mühitin qorunması istiqamətində, eləcə də kosmik texnologiyalar, süni intellekt və Yerin məsafədən müşahidəsi sahələrində davamlı əməkdaşlığın inkişafına təkan verir.

Xəzər dənizinin səviyyəsi tarix boyu dəfələrlə dəyişilməyə məruz qalıb. Lakin son illərdə baş verən azalma təbii proseslərdən daha çox insan fəaliyyəti və iqlim dəyişikliyi ilə əlaqələndirilib. Suyun azalması o qədər sürətlənib ki, bəzi sahilboyu ərazilər artıq Xəzərdən uzaq düşüb. Son 20 ildə Xəzər dənizinin suyu, təxminən, 2 metr azalıb.

Xəzərin geri çəkilməsi təkcə ekoloji problem deyil, həm də mənfi sosial-iqtisadi nəticələr doğura bilər. "Xəzəri xilas et" ekoloji hərəkatının təsisçisi Vadim Ni deyib ki, "biz dənizin şimal hissəsini, xüsusən də Qazaxıstan tərəfindəki şimal hissəsini tamamilə itirə bilərik".

Ekoloq-alim Ənvər Əliyevin sözlərinə görə, son 20 ildə Xəzərin 2 metr aşağı enməsi qorxulu deyil. Çünki dəniz uzun illər, eralar ərzində də belə bir proseslə üzüzə qalıb. Xəzər dənizindən, hətta sahilə quru yol olub. Bu dənizin belə proseslərdən keçməsi yetişdiyi coğrafi məkandan irəli gəlib. Xəzərdə suyun artması da, enməsi də ətrafındakı ekosistemə, təsərrüfat strukturlarına problem yaradıb.

Ə.Əliyev qeyd edir ki, Xəzər dənizi şimaldan cənuba doğrudur. Dənizin ən dərin yeri də cənub zonadadır. Dənizin bütün hissələrində səviyyə enir. Amma indi şimal hissəsində daha çox düşməlidir, çünki burada Yerin əyriliyi də nəzərə alınır. Xəzər dənizinin səviyyə tərəddüdü yaxın vaxtlarda, illərdə yavaş-yavaş özünə qayıdacağı gözlənilir. Ümumiyyətlə, Xəzər dənizini heç kim, heç nə xilas etmək gücündə deyil. Bu, təbii mühitin problemidir. Xəzər dənizinin öz ekosistemini yenidən formalaşdıracağı da istisna olunmur.

Ekoloqlar bildiriblər ki, son aylar Xəzərin suyunun geri çəkilməsi əsasən Astara sahillərində, "Bulvar" kompleksi ərazisində qeydə alınıb. Belə ki, dənizdə son yüzillikdə ən aşağı səviyyə 1977-ci ildə (29 metr) müşahidə edilib. Maksimal səviyyə isə 1995-ci ildə (26 metr) olub. Həmin vaxtdan indiyədək Xəzərin səviyyəsinin düşməsi müşahidə edilib. Sakinlər deyirlər ki, suyun geri çəkilməsi dənizin 150 metrliyində kiçik adaların yaranması və Xəzərdə canlı aləmə öz mənfi təsirini göstərməsi ilə nəticələnib. Bununla bərabər, dəniz suyunun geri çəkilməsi ilə həyətyanı sahələrdəki quyuların suyu azalıb.

Burada narahatlıq doğuran məqam həm də Xəzərin səviyyəsinin aşağı düşməsinin Orta Dəhlizin fəaliyyətinə mənfi təsir göstərməsi ilə bağlıdır. Bununla əlaqədar bir müddət bundan əvvəl Aşqabadda dünyanın müxtəlif ölkələrindən olan 600-dən çox iştirakçı ilə bu məsələ müzakirə edilib. Bu barədə Mərkəzi Asiya üzrə ekspert Serdar Aytakov "Nezavisimaya qazeta"ya bildirib ki, Orta Dəhlizin əsas keçidi Transxəzər marşrutlarıdır. Aytakovun fikrincə, hazırda bu layihələrdə əsas risk Xəzər dənizinin səviyyəsinin fəlakətli şəkildə enməsidir: "İş o yerə çatıb ki, Türkmənistan hakimiyyəti son bir neçə ildə Türkmənbaşı körfəzinin (keçmiş Krasnovodsk) akvatoriyasının girişindən başlayaraq, tələb olunan dərinlikdə gəmiçilik yollarının yaradılması və saxlanması üçün mütəmadi olaraq dərinləşdirmə işləri aparır. Hökumət sırf bu məqsədlər üçün təcili olaraq dredderlər alır. Körfəzdə manevr etmək üçün gəmilər öz çəkilərini (yəni daşıma qabiliyyətini) yarıya endirmək məcburiyyətindədir. Məsələ təkcə dəniz səviyyəsinin aşağı düşməsində deyil, həm də buxta torpağının təbii xüsusiyyətlərindədir ki, bu da yolların dərinliyini məqbul səviyyədə saxlamaq prosesini sabit və sonsuz edir".

Təbii ki, belə bir amil Türkmənbaşı limanı vasitəsilə Transxəzər marşrutu üzrə daşımaların qiymətinə təsir göstərir və bu, Xəzər dənizinin səviyyəsi o həddə qalxmağa və ya azalmağa başlayana qədər təsir edəcək. Bununla da, şübhəsiz ki, limanın sonrakı fəaliyyəti qeyri-mümkün olacaq.

Xəzər dənizinin səviyyəsinin aşağı düşməsinin əsas səbəbi Bakıda keçirilən COP29 iqlim sammiti çərçivəsində də səsləndirilib. Konfransda bu məsələdə əsas problemin bir neçə onilliklər ərzində su hövzələrinə yağıntıların obyektiv azalması (250 millimetr) olduğu bildirilib. Qeyd edilib ki, Xəzər dənizinin səviyyəsinin aşağı düşməsi, prosesin bundan sonra da davam edəcəyi proqnozlaşdırılır. 2011-ci ildən 2023-cü ilə qədər Xəzərin səviyyəsinin ötən illə müqayisədə 1,74 metr, son 3 ildə 55 santimetr, 2024-cü ildə isə daha 15 santimetr aşağı düşüb.

Aytakovun qeyd etdiyi kimi, Qazaxıstan və Azərbaycan hidrometeoroloqlarının Xəzər dənizinin səviyyəsinə dair müşahidə məlumatları fərqlidir ki, bu da müxtəlif hidroloji rejimlər və Xəzər dənizinin səviyyəsindəki mövsümi tərəddüdlərlə əlaqədardır. Lakin hər kəs onun səviyyəsinin aşağı enməsinin davam etdiyini bildirir. Kritik səviyyədən aşağı enmə, yəni əvvəllər elmi olaraq artıq qeydə alınıb.

Xəzərin səviyyəsinin getdikcə azalması artıq 20-30 ildir ki, ciddi şəkildə müşahidə olunur. Mütəxəssislər bildirirlər ki, bunun əsas səbəblərindən biri qlobal iqlim dəyişmələri nəticəsində Xəzərə tökülən çayların suyunun azalmasıdır. Belə ki, suyun səviyyəsinin dəyişməsi əsasən onu qidalandıran çaylardan və düşən yağıntının miqdarından, həmçinin buxarlanmadan asılıdır.

Xəzər dənizinin su balansının 4/5 hissəsini çay axıntıları təşkil edir. 130-dan çox çay Xəzərə axır və onların 9-nun mənsəbi delta xarakterlidir. Bu çaylara misal olaraq Astaraçay, Viləşçay, Volqa, Qaraçay, Kür, Samur, Ural və digərlərini göstərmək olar. Volqa Xəzərə axan ən böyük çay olmaqla su balansının dənizə səth axınının ümumi həcminin 82 faizini təşkil edir. Artıq bir müddətdir ki, Xəzərin əsas qida mənbəyi olan Volqa çayının axarında da azalma müşahidə edilir.

Xəzəri qidalandıran əsas su hövzələrindən biri də Kür və Araz çaylarıdır. Son zamanlar isə bu çayların suyunda da azalma hiss olunur. Əsas səbəblərdən biri də trans-sərhəd su götürmələrinin artmasıdır. Başqa sözlə, Türkiyə, Gürcüstan və İranda Araz və Kür çaylarından daha çox su götürülür. Bu da çaylarda suyun azalmasına səbəb olur.

Onu da qeyd edək ki, Xəzər dənizində suyun ən aşağı səviyyəsi 1977-ci ildə qeydə alınıb. 1977-1995-ci illər ərzində 2,5 metr artıb və növbəti illərdə yenidən azalma müşahidə olunub. 2019-cu ildə isə dənizin orta illik səviyyəsi Baltik sistemi ilə mənfi 27,89 metr (1977-ci ildəki səviyyədən 1,1 metr yüksək) qeydə alınıb.

Yuxarıda vurğulananları yekunlaşdırıb qeyd edək ki, Xəzər dənizində səviyyənin aşağı düşməsi ciddi ekoloji və iqtisadi problemlər yaradır, regionun mövcud nəqliyyat layihələrinə, xüsusilə də Transxəzər marşrutuna mənfi təsir edir, Orta Dəhlizlə yük daşımalarını çətinləşdirir.

***V.BAYRAMOV, M.QULİYEV XQ***

### Ekspert rəyi

**Rövşən ABBASOV, Xəzər Universiteti Ekoloji Tədqiqatlar Mərkəzinin direktoru, coğrafiya üzrə fəlsəfə doktoru, Ekologiya Nazirliyi yanında İctimai şuranın üzvü**



Xəzər beynəlxalq aləmdə ən böyük daxili su hövzəsi kimi tanınır və tez-tez dünyanın ən böyük gölü kimi təsvir edilir. Əhalisinin sıx məskunlaşdığı Bakı, Quba – Xaçmaz , Şirvan – Salyan və Lənkəran – Astara iqtisadi rayonları mühüm iqtisadi potensiala malik olmaqla Xəzər ilə bilavasitə təmasdadır və bu regionlarda iqtisadi fəaliyyət birbaşa bu dənizlə bağlıdır.

Balıqçılıq, qara kürü istehsalı, neft hasilatı, nəqliyyat fəaliyyəti kimi iqtisadi sahələr tarixən Xəzər dənizi ilə bağlı əsas sahələr olub. Ötən əsrin ikinci yarısından etibarən isə mühüm önəm daşıyan turizm və rekreasiya fəaliyyəti Xəzərin ən mühüm xüsusiyyətləri kimi diqqətdə saxlanılıb.

Xəzərin ekosistem dəyərləri çoxşaxəlidir və bu, insan həyatının bütün cəhətlərini əhatə edir. Dəniz ətraf ərazilərdə iqlimin tənzimlənməsində, isti mövsümdə temperaturun aşağı salınmasında, soyuq mövsümdə isə yüksəlməsində müstəsna rol oynayır. Bu tənzimləmə Avrasiyanın sərt kontinental iqlimini yumşaltmağa və Xəzər regionunu daha əlverişli bir iqlimə uyğun yerə çevirməyə təsir göstərir.

Xəzər dənizi, eyni zamanda, sahilində yerləşən iri şəhərlərin havasının keyfiyyətinin yaxşılaşdırılmasına mühüm təsir göstərən su hövzəsidir. Məsələn, Bakıda havanın keyfiyyətini yaxşılaşdıran əsas təbii amil onun Xəzər dənizinin sahilində yerləşməsidir. Belə ki, dənizlə quru arasında əsən davamlı küləklər Bakıdan çirklənmiş havanın çıxarılmasında müstəsna rol oynayır. Hazırda bu küləklərdən enerji almaq üçün genişmiqyaslı layihələr gerçəkləşdirilir və Xəzərin külək enerjisindən gələcəkdə "yaşıl" hidrogen mənbəyi kimi istifadə oluna biləcəyi güman edilir.

Dəniz suyu getdikcə cəmiyyət həyatının ayrılmaz hissəsinə çevrilir. Bunu belə bir məqam da təsdiqləyir: Bu gün Xəzərin Azərbaycan və Türkmənistan sahillərində dəniz suyundan içməli su kimi istifadə etməyə imkan verən duzsuzlaşdırma qurğularının yaradılması daim diqqətdə saxlanılır. İqlim dəyişikliyinin Azərbaycan çaylarında mövcud suyun miqdarını durmadan azaldacağı və Xəzərdən şirin suya olan tələbatı artıracağı gözlənilir.

Xəzər dənizinin ətrafındakı göllər və bataqlıqlar isə su quşlarının yaşaması, qışlaması və ovlanması üçün böyük əhəmiyyət kəsb edir. Hər il milyonlarla köçəri quş o bataqlıqlarda qışlayır. Dənizlə eyni ekosistemi təşkil edən Qızılağac bataqlığı quşların qışda bu yerlərdə məskunlaşması üçün əlverişli yerdir.

Xəzərin Azərbaycan sahillərinin uzunluğu 825 kilometrdir. Dənizin bu hissəsində 20 böyük ada var. Bu adalar, eləcə də çimərliklər ən müxtəlif kurort fəaliyyətləri üçün çox əlverişlidir. Məsələn, Abşeron yarımadasındakı və Nabranın kurort zonasındakı çimərliklər bir sıra turizm fəaliyyəti üçün əlverişlidir.

Xəzərin sahilyanı əraziləri il boyu günəşli olduğundan, incə qumlu çimərliklərdə çoxlu rekreasiya resursları var və buna görə də kurort fəaliyyətinin təşkili üçün böyük potensial mövcuddur. Dənizin Azərbaycan sahillərinin iqlimi əsasən quru subtropikdir, yayda temperatur 40°C-ə çatır. Abşeron yarımadasının yaxınlığında 160-dan çox günəşli gün var və günəşli saatlar daha çox may-sentyabr aylarında müşahidə olunur.

Yay mövsümündə Xəzər dənizində dəniz suyu 30 dərəcəyə qədər qıza bilir və isti suyun temperaturu 4-5 ay dəyişməz qalır. Bu, çimərlik mövsümünün mayın ortalarından sentyabrın sonuna qədər davam etməsinə imkan verir. Qızılı incə qum və turşulu su çimərlik fəaliyyəti üçün çox əlverişli şərait yaradır.

Dəniz səviyyəsindəki dalğalanmalar (azalma-çoxalma) geniş spektrli problemlərə səbəb olur. Məsələn, 1978-1995-ci illərdə dəniz səviyyəsinin qalxması səbəbindən 400 min hektardan çox sahilyanı ərazi su altında qalmışdır ki, bunun da 50 min hektarı Azərbaycandadır. Həmin dövrdə Azərbaycanda 50 yaşayış məntəqəsi uzunmüddətli su altında qalıb. Daşqınlar 250 istehsalat obyektini, Bakı-Astara dəmir yolunun 20 kilometrini, avtomobil yolunun 60 kilometrini, 100 min nəfərlik turizm obyektlərini əhatə edib.

Həmin dövrdə Astara rayonunda çox qiymətli subtropik meşələrə, Lənkəran , Astara, Abşeron , Salyan və Xaçmaz rayonlarında evlərə ciddi ziyan dəyib. Dəniz səviyyəsinin qalxması sahil infrastrukturuna, limanlara, yollara, parklara və kənd təsərrüfatı torpaqlarına ciddi ziyan vurub. Suyun səviyyəsinin qalxması Abşeron sahillərində çirklənmiş ərazilərin su altında qalmasına və bununla da dənizin əlavə çirklənməsinə səbəb olur. Müstəqil mənbələrin məlumatına görə, 1995-ci ilə qədər neftlə çirklənmiş 1500 hektardan çox ərazi su altında qalıb və dəniz ekosisteminə ciddi ziyan dəyib.

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın Çin görüşləri

## Milli İnsan Genomu Mərkəzində

**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva aprelin 24-də Pekində Çin Milli İnsan Genomu Mərkəzində olub.**





Çinin Elm və Texnologiya Nazirliyinin rəyi ilə yaradılmış mərkəz Çində ölkə səviyyəli genom tədqiqat müəssisələrindən biridir. Çin Milli İnsan Genomu Mərkəzi elmi-tədqiqat nəticələrinin kommersiyalaşdırılmasını və Çində genomik sənayenin yaradılmasını təşviq edir. Mərkəz fundamental və kilinik tədqiqatlar, populyasiya genetikası və bioinformatika sahələrində layihələr həyata keçirir. Bildirilib ki, mərkəzin işində ən qabaqcıl texnoloji avadanlıqlardan istifadə olunur.

Leyla Əliyeva mərkəzin laboratoriyalarına və bioloji nümunələr bankına baxıb. Mərkəzin rəhbərliyi ilə söhbət zamanı Azərbaycanın müvafiq qurumları ilə potensial əməkdaşlıq imkanları, o cümlədən onkoloji xəstəliklər, serebral iflic və digər xəstəliklərin müalicəsi zamanı Genom Mərkəzinin metodlarının tətbiqi məsələsi müzakirə olunub.

## Pekin Xarici Dillər Universitetində

**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Pekin Xarici Dillər Universitetində olub.**





Universitetin prorektoru Gao Qanq və burada Azərbaycan dili üzrə təhsil alan çinli tələbələr ilə görüş zamanı Azərbaycanla Çin arasında əlaqələrin genişlənməsində gənclərin, o cümlədən iki ölkənin təhsil sistemində bu istiqamətdə həyata keçirilən layihələrin rolu qeyd edilib. Bu baxımdan Azərbaycan mədəniyyətini öyrənib tədqiq və təbliğ etməyə maraqlı olan Pekin Xarici Dillər Universitetindəki Azərbaycan dili kafedrasının fəaliyyətinin, universitetdə Azərbaycan dili üzrə kadrların hazırlanmasının əhəmiyyəti diqqətə çatdırılıb. Bildirilib ki, universitetin tədris proqramına Azərbaycan dili ilə yanaşı, Azərbaycan tarixi, mədəniyyəti, ədəbiyyatı fənləri də daxildir.

Heydər Əliyev Fondu ilə Pekin Xarici Dillər Universiteti arasında 10 ilə yaxın davam edən əməkdaşlıq çərçivəsində bir sıra layihələrin həyata keçirildiyi, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü və dəstəyi ilə 2019-cu ildən Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində (UNEC) distant Çin dili kurslarının təşkil olunduğu diqqətə çatdırılıb.

Görüş zamanı Heydər Əliyev Fondu ilə Pekin Xarici Dillər Universiteti arasında bu il ərzində anlaşma memorandumunun imzalanması barədə qərar qəbul edilib.

Daha sonra universitetin Azərbaycan dili kafedrası ilə tanışlıq olub. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva kafedranın fəaliyyətinin genişləndirilməsi ilə bağlı nəzərdə tutulan tədbirləri diqqətə çatdırıb. Heydər Əliyev Fondunun müxtəlif sahələr, o cümlədən Azərbaycan mədəniyyətinin tanıdılması üzrə nəşrlərinin Çin dilində çap olunmasının vacibliyi qeyd edilib.

*XQ*



# "Almatı prosesi" konfransında Bakı bəyannaməsi

**Bakıda miqrasiya sahəsində çoxtərəfli regional dialoqun təşviqinə yönəlmiş "Almatı prosesi"nin 3-cü Nazirlər Konfransı yekunlaşıb. Azərbaycan Respublikasının "Almatı prosesi"nə ikiillik sədrliyinin yekunu olaraq təşkil olunan konfransın sonunda Bakı bəyannaməsi qəbul olunub. Eyni zamanda, "Almatı prosesi"nə sədrlik Qazaxıstan Respublikasına keçib.**

Konfransın əsas məqsədi ölkəmizin prosesə sədrliyi dövründə həyata keçirilən fəaliyyətlərə nəzər yetirmək, "Almatı prosesi"nin 3-cü Nazirlər Konfransının Bakı bəyannaməsinin qəbul edilməsi və sədrliyin Qazaxıstan Respublikasına ötürülməsi olub.




"Almatı prosesi"nə üzv, müşahidəçi və dəvət olunmuş dövlətlərin miqrasiya sahəsində fəaliyyət göstərən müvafiq orqanlarının və beynəlxalq təşkilatların yüksəksəviyyəli nümayəndə heyətlərinin iştirakı ilə keçirilən konfransda açılış nitqi ilə Dövlət Miqrasiya Xidmətinin rəisi, II dərəcəli dövlət miqrasiya xidməti müşaviri Vüsal Hüseynov çıxış edib. Onun sözlərinə görə, Azərbaycan "Almatı prosesi"nə 2 illik sədrlik dövründə fəaliyyətini bütün iştirakçı dövlətlərin maraq və ehtiyacları, eləcə də prosesin strateji və institusional inkişafı istiqamətində qurmağa çalışıb: "Azərbaycan "Almatı prosesi"nin işində təşkilatın yarandığı vaxtdan fəal iştirak edir və milli miqrasiya sahəsində əldə etdiyi təcrübəni bütün maraqlı tərəflərlə bölüşərək bu illər ərzində digər iştirakçı dövlətlərin ən yaxşı təcrübələrindən yararlanmışdır. Bu xüsusda Azərbaycanın son 2 il ərzində "Almatı prosesi"nə sədrlik etməsi bizim üçün çox əlamətdar idi".

Beynəlxalq Miqrasiya Təşkilatının Avropa və Mərkəzi Asiya üzrə regional direktoru Artur Erken isə qeyd edib ki, Bakı bəyannaməsinin qəbul olunmasını miqrasiya sahəsində regional əməkdaşlığın gücləndirilməsi istiqamətində atılmış addım kimi qiymətləndirir. O, Bakı bəyannaməsinin regional əməkdaşlığın möhkəmlənməsinə, təhlükəsiz, nizamlı və qanuni miqrasiyanın təmin olunmasına töhfə verəcəyinə ümidvar olduğunu qeyd edib: "Almatı prosesi" iştirakçısı olan ölkələrin hüdudlarından kənarda, təxminən, 8 milyon vətəndaş yaşadığı halda, bu ölkələrin daxilində olan xarici miqrantların sayı 9,5 milyon təşkil edir. Daha geniş çərçivədə – iştirakçı, müşahidəçi və dəvət olunmuş ölkələr üzrə bu rəqəmlər müvafiq olaraq 22 milyon vətəndaş və 25 milyon xarici miqrant təşkil edir".

Türkiyə daxili işlər nazirinin müavini Mehmet Aktaş çıxışında qeyd edib ki, 2023-cü ildən bəri qardaş ölkədə 456 min 851 qeyri-qanuni miqrant saxlanılıb. "Türkiyədə tətbiq edilən "Mobil İmmiqrasiya Məntəqələri" miqrasiya sahəsində dünyada ilkdir. Bununla şəxsiyyət vəsiqəsini təqdim edə bilməyən əcnəbilər lazımi yoxlamalar üçün "Mobil İmmiqrasiya Məntəqələri" adlanan avtomobillərə dəvət edilir və burada İmmiqrasiya İdarəsinin əməkdaşları tərəfindən "Göç-Net" məlumat bazası vasitəsilə biometrik məlumatlarla yoxlanılır".

Qazaxıstan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Askarbek Ertayev isə bildirib ki, "Almatı prosesi"nin növbəti sədrliyi çərçivəsində Qazaxıstan həm Mərkəzi Asiya dövlətləri arasında, həm də hökumət və beynəlxalq təşkilatlar arasında regional əməkdaşlığın gücləndirilməsinə bundan sonra da vasitəçilik etmək niyyətindədir".

Qeyd edək ki, 2013-cü ildən fəaliyyət göstərən "Almatı prosesi" özündə Mərkəzi Asiya ölkələrini, Azərbaycan, Türkiyə, Pakistan, İran və İtaliyanı birləşdirən regional məşvərətçi platformadır. Yarandığı vaxtdan prosesin işində aktiv iştirak edən Azərbaycan Respublikası 2023-cü ilin martın 28-də sədrliyi Türkiyə Respublikasından təhvil alıb.

*XQ*

# Dünyanın tanınmış səyyahları Qarabağda

**Dünəndən dünyanın tanınmış səyyahlarından ibarət geniş heyətin Qarabağa növbəti səfəri başlayıb. Onlar ilk olaraq Füzuli şəhərinə gəliblər.**













"NomadMania" səyyah klubunun təşəbbüsü ilə gerçəkləşən səfərdə dünyanın 30 ölkəsinin – ABŞ, Britaniya, Belçika, Almaniya, İsveçrə, Polşa, Niderland, Fransa, Braziliya, Mərakeş, Danimarka, Çili, Portuqaliya, Sierra Leone, Ruanda, Suriya, Hindistan, Serbiya, Yunanıstan, Albaniya, Türkiyə, Slovakiya, Sinqapur, İtaliya, İspaniya, İran, Kamerun, Çin, Avstraliya və Yeni Zelandiyadan olan nüfuzlu beynəlxalq səyahətçilər yer alır.

Səyyahlar əvvəlcə Füzuli Beynəlxalq Hava Limanı ilə tanış olublar. 2021-ci ildə Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə istifadəyə verilən hava limanı rekord müddətdə tikilib. Bu gün Qarabağın hava qapısı olan Füzuli Beynəlxalq Aeroportu bölgənin iqtisadi, siyasi və mədəni həyatında mühüm rol oynayan nəqliyyat-logistika mərkəzinə çevrilməkdədir.

Səyahətçilər azad edilən Füzulidə dövlətimiz tərəfindən aparılan tikinti-quruculuq işlərinə də şahidlik ediblər. Qonaqlara görülən işlər barədə ətraflı məlumat verilib.

Beynəlxalq səyyahlar Füzulidən sonra Azərbaycanın tarixi və mədəniyyət mərkəzlərindən olan Şuşaya gəliblər. Səyyahların şəhərlə tanışlığı Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvan, Bülbül və Üzeyir Hacıbəylinin güllələnmiş heykəlləri olan mərkəzi meydanla başlayıb. Qonaqlara Şuşa şəhəri, işğal dövründəki vəziyyəti və burada həyata keçirilən yenidənqurma işləri barədə məlumat verilib. Səyahətçilər Xurşidbanu Natəvanın evi, Xan qızı bulağı olan ərazi, qala divarları və Yuxarı Gövhər Ağa məscidi ilə tanış olublar. Sonda Cıdır düzünə gələn səyyahlar buradan açılan əsrarəngiz mənzərəni seyr ediblər.

Xankəndiyə gələn xarici səyyahlar Qarabağ Universitetində müəllim və tələbələrlə görüşüblər. Universitetin rektoru Şahin Bayramov qonaqlara Xankəndi şəhəri və ali təhsil ocağı barədə məlumat verib. Sonra "Sülhün ilk addımları" filmi nümayiş olunub, universitetin kitabxanasına eyniadlı kitab hədiyyə edilib. Xarici səyyahlar tələbələrin suallarını cavablandırıblar.

Sonra səyyahlar Ağdama gəliblər. Əvvəlcə Şəhidlər xiyabanına gələn səyyahlara burada Birinci Qarabağ müharibəsində şəhid olmuş qəhrəman Vətən övladlarının, o cümlədən Xocalı soyqırımında qətlə yetirilmiş dinc sakinlərin bir hissəsinin dəfn edildiyi bildirilib. Onlar şəhər Cümə məscidi ilə tanış olublar. Daha sonra səyyahlar Ağdam İmarət Kompleksinə gəliblər.

Xarici səyyahlara Ağdamda həyata keçirilən bərpa-tikinti işləri barədə də məlumat verilib.

Qeyd edək ki, bu səfər azad edilmiş ərazilərin "black tourism" çərçivəsində tanıdılmasında müstəsna rol oynayır.

Vətən müharibəsindən ötən 5 il ərzində dünyanın əsas beynəlxalq səyyah şəbəkələrinin – ETIC, MTP, TCC, "NomadMania" və əksəriyyəti bu klubların üzvləri olan Türkiyə Gəzginlər Klubu, "Club-100" (İsveç), "Piki Reels" (Böyük Britaniya), "Vagaclub" (Norveç) klublarının geniş tərkibdə heyətlərinin 12 dəfə Qarabağ və Şərqi Zəngəzura səfərləri gerçəkləşib. Budəfəki səfər isə prosesin davamı olmaqla, beynəlxalq səyyahların azad edilmiş ərazilərə 13-cü qrup səfəridir.

*XQ*

Üzeyir Hacıbəyli – 140

# Dahi bəstəkarın əbədiyaşar sənəti

**Prezident İlham Əliyevin sərəncamı ilə Şərqdə ilk operanın yaradıcısı, böyük musiqişünas-alim, istedadlı publisist, dramaturq və pedaqoq, tanınmış ictimai xadim, Xalq artisti, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü Üzeyir Hacıbəylinin anadan olmasının 140 illiyi ölkəmizdə dövlət səviyyəsində qeyd olunacaq. Artıq aylardır ki, bu yöndə təşkil edilən maraqlı tədbirlər bir-birini əvəz edir.**



Adını Azərbycan mədəniyyəti tarixinə qızıl hərflərlə yazdırmış unudulmaz Üzeyir Hacıbəyli zamanın fövqündə dayanan böyük sənətkarlardandır. Onun 140 illik yubileyi ölkəmizdə əsl sənət bayramı kimi Teatrların, digər sənət ocaqlarının afişalarına, tədbir proqramlarına nəzər salanda böyük sənətkarın varlığını hiss edir, sanki bizləri heç tərk etmədiyi qənaətinə gəlirik.

Bildiyimiz kimi, Azərbaycan milli opera sənətinin tarixi dahi Üzeyir Hacıbəylinin 1908-ci il yanvarın 25-də tamaşaya qoyulmuş "Leyli və Məcnun" operası ilə başlanır. Bir əsrdən çoxdur ki, Üzeyir bəyin bu və digər əsərləri Opera və Balet Teatrının səhnəsində oynanılır. Sənətsevərlər düz 88 il əvvəl burada ilk dəfə Hacıbəyli yaradıcılığının zirvəsi sayılan məşhur qəhrəmanlıq rəmzi "Koroğlu"ya baxıblar. Həmin əsərdə Üzeyir bəy ilk dəfə olaraq klassik opera formasına riayət edərək, bitkin ariyalar, kütləvi xor və balet səhnələri, müxtəlif ansambllar yaradıb. Bu 5 pərdəli operaya görə bəstəkar 1941 ildə Stalin mükafatına layiq görülüb.

Bu yubiley ili də istisna deyil. Mart ayında teatrın yaraqdıcı kollektivi bəstəkarın "Arşın mal alan" operettasını təqdim edib. Dirijor Sevil Hacıyeva, quruluşçu rejissor Hafiz Quliyev, quruluşçu rəssam Əyyub Fətəliyev, baletmeysterlər Mədinə Əliyeva və Afaq Məlikova, xormeysterlər Sevzixan Serderov və Zöhrə Həşimovanın zəhməti növbəti dəfə tamaşaçıların təqdirini qazanıb. Rolları Ramil Qasımov (Əsgər), İnarə Babayeva (Gülçöhrə), Cahangir Qurbanov (Soltan bəy), Gülüstan Əliyeva (Cahan xala), Taleh Yahyayev (Süleyman), Səbinə Vahabzadə (Asya), Gülyaz Məmmədova (Telli), Sadiq Məlikov (Vəli) böyük məharətlə ifa ediblər.

Ölkənin teatrları da öz fəaliyyətlərini Üzeyir bəyin ölməz əsərlərinin tamaşaları ilə dolğunlaşdırırlar. Hər dəfə yenidən bizdə belə bir qəti əminlik yaranır ki, ömrünü cəmiyyətin mədəni tərəqqisinə həsr etmiş fədakar ziyalının yüksək mənəvi-estetik dəyərə malik irsi Azərbaycan xalqının XX əsrin ilk onilliklərindən vüsət almış ədəbi-mədəni intibahının aynasıdır.

Azərbaycan Dövlət Akademik Musiqili Teatrı fevral, mart və aprel aylarında dəfələrlə dahi bəstəkarın "Arşın mal alan", "O olmasın, bu olsun", eləcə də "Leyli və Məcnun" əsərlərini sənətsevərlərə təqdim edib. Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında da Üzeyir bəyin möhtəşəm tamaşaları repertuardan düşmür. Bölgə teatrlarımız da bu baxımdan istisna deyil.

Fərəhli haldır ki, ölkəmizin hüdudlarından kənarda da Üzeyir bəyin əsərləri teatrların repertuarını bəzəyir. Məsələn, Batumi şəhərinin sənətçiləri bəstəkarın dramaturji baxımından aparıcı, əsas bədii-ifadə vasitəsi musiqi olan "Arşın mal alan"ını gürcü dilində səhnələşdiriblər. Tamaşa aprelin 2-də Acarıstan Muxtar Respublikasının Batumi Dram Teatrında gürcü dilində nümayiş etdirilib. Səhnə əsəri Azərbaycanın Batumidəki Baş konsulluğunun dəstəyi ilə ərsəyə gəlib. Daha öncə Daşkənddə Beynəlxalq Teatr Günü münasibətilə ilk dəfə olaraq Azərbaycan milli teatrına həsr olunmuş "Dostluq səhnələri" adlı gecədə "Arşın mal alan" və "O olmasın bu olsun" musiqili komediyalarından parçalar göstərilib.

Aprelin 7-də Aşqabaddakı A.S.Puşkin adına Rus Dram Teatrında bu operettanın əsasında hazırlanmış eyniadlı tamaşa nümayiş olunub. Qeyd edilib ki, "Arşın mal alan" Türkmənistanın da mədəniyyət həyatında xüsusi yer tutur. Tamaşa dost ölkənin müxtəlif teatrlarda səhnəyə qoyulur, 1980-ci illərdən etibarən isə bu əsər A.S.Puşkin adına Rus Dram Teatrında müntəzəm olaraq oynanılır, həm yerli, həm də xarici tamaşaçılar tərəfindən böyük rəğbət və maraqla izlənilir, yüksək qiymətləndirilir.

Vyanada isə "Arşın mal alan" 19 ildən sonra yenidən səhnəyə hazırlanır. Yeni quruluşda təqdim ediləcək tamaşa, Avstriyanın mərkəzində yerləşən məşhur "Teatr Aksent"-də oktyabrın sonu–noyabrın əvvəllərində oynanılacaq. Layihənin yüksək səviyyədə hazırlanması üçün yaradıcı heyət Bakıya səfər edib. Ariyalar Azərbaycan dilində, libretto isə alman dilində təqdim ediləcək. Bununla da Üzeyir Hacıbəylinin ölməz irsinin və Azərbaycan mədəniyyətinin Avropada daha geniş tanıdılmasına töhfə veriləcək.



Aprelin 8-də İsrailin Afula şəhərində Üzeyir Hacıbəyli ilə görkəmli bəstəkar, dirijor Müslüm Maqomayevin anadan olmalarının 140 illiyi münasibətilə tədbir keçirilib. Dünyaşöhrətli rusiyalı musiqişünas, "Rus naxışları" Moskva vilayət Filarmoniyasının Dövlət Akademik Orkestrinin bədii rəhbəri və dirijoru İlya Reybarx Üzeyir Hacıbəyli və Müslüm Maqomayev yaradıcılığının Azərbaycan milli musiqi mədəniyyətinin inkişafındakı müstəsna rolu haqqında danışıb. Ədəbi-musiqili gecədə klassik Azərbaycan musiqisinin zənginliyini nümayiş etdirən "Leyli və Məcnun", "İldırımlı yollarla", "Min bir gecə", "Məhəbbət əfsanəsi" kimi məşhur əsərlərdən parçalar, eləcə də "Koroğlu" operasının uvertürası səsləndirilib.

Aprelin 10-da Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin filialı olan Niyazinin mənzil-muzeyində Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası ilə birgə dahi bəstəkar Üzeyir Hacıbəylinin 140 illik yubileyinə həsr olunmuş konsert keçirilib. Dövlət Muzeyinin direktoru, sənətşünaslıq elmləri doktoru Alla Bayramova konsertdən əvvəl çıxış edərək Azərbaycan professional musiqisinin banisi Üzeyir bəyin ömür yolundan və bənzərsiz yaradıcılığından danışıb. Konsertdə Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının professoru, Xalq artisti Ülviyyə Hacıbəyova tələbələri ilə Azərbaycan və dünya klassiklərinin əsərlərindən ibarət rəngarəng musiqi proqramı ilə çıxış ediblər.

Üzeyir Hacıbəylinin ev-muzeyində də daimi qələbəlik hiss olunur. Bir neçə gün əvvəl burada növbəti yubiley tədbiri keçirilib. Ev-muzeyin direktoru, Xalq artisti, bəstəkar Sərdar Fərəcov bu kimi məclislərin əhəmiyyətini vurğulayıb və Üzeyir Hacıbəylinin dünya musiqi tarixində müstəsna yerini qeyd edib. Əməkdar müəllim Təranə Yusifovanın rəhbərliyi ilə təqdim olunan musiqi proqramı çərçivəsində Cahangir Cahangirov adına xor kollektivi "Leyli və Məcnun" operasından bəstələr, "O olmasın, bu olsun" operettasından duetlər, "Arşın mal alan" operettasından əsərlər, xalq mahnıları və digər əsərləri səsləndirib.

Xatırladaq ki, bundan 1 ay əvvəl ev-muzeyində dahi bəstəkarın "O olmasın, bu olsun" operettasının 115 illiyi qeyd edilib. Natiqlər əsər barədə danışıblar, Azərbaycan Dövlət Akademik Musiqili Teatrının aktyorları – Əməkdar artistlər Şövqi Hüseynov, Nahidə Orucova, Səmədzadə Xasiyev və Aydan Həsənova "O olmasın, bu olsun" musiqili komediyasından seçilmiş səhnələri tamaşaçılara təqdim ediblər. Bu il həm də Üzeyir bəyin ev-muzeyinin 50 illik yubileyi ilidir. Mədəniyyət məkanının tarixindən, fəaliyyətindən, dahi bəstəkarın yaradıcılıq irsinin qorunması istiqamətində görülən işlərdən də bəhs edilib.

Daha öncə Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasında professor Tərlan Seyidovun layihəsi əsasında "Üzeyir Hacıbəylinin milli məqam sistemi gənc musiqiçilərin tədris repertuarında" III Respublika müsabiqəsi təşkil olunub. Musiqi tədrisi sisteminə daxil edilən "Üzeyir Hacıbəylinin elmi sistemi əsasında milli lad təfəkkürünün inkişafı Proqramı"nın əhəmiyyəti vurğulanıb.

Hələlik, son anım mərasimi Opera Studiyasının səhnəsində "Arşın mal alan" operettasının premyerası olub. Bakıda keçirilən Fidan Hacıyevanın II Beynəlxalq Opera Festivalının açılışında təqdim edilən tamaşada rolları gənc opera müğənniləri Aysu Əliyeva, Rauf Məmmədzadə, Röya Əliyeva, Şahirə Rzayeva ifa ediblər. Cahan xala rolunu Fidan Hacıyeva, Soltan bəy rolunu Əməkdar artist Fərid Əliyev, Vəli rolunu Əməkdar artist Tural Ağasıyev, Əsgər rolunu "Yuğ" teatrının aktyoru Vüqar Hacıyev ifa ediblər.

Müxbirlərə müsahibəsində Opera festivalının təşkilatçısı, Xalq artisti Fidan Hacıyeva festivalın niyə "Arşın mal alan" operettası ilə açılmasına qərar verilməsindən danışıb.

"Bu il Üzeyir Hacıbəyliyə həsr olunub. Tamaşamız üçün artıq bir neçə dəfə dəvət almışıq. Bu il "Arşın mal alan" İngiltərədə nümayiş etdiriləcək – mahnılar Azərbaycan dilində, personajların dialoqları isə ingilis dilində səslənəcək. Bundan əlavə, sentyabrın 18-də – Üzeyir Musiqi Günündə sənətçilər operettanı Naxçıvanda təqdim edəcəklər.

*Ə.DOSTƏLİ*
*XQ*

# Qırğızıstanda Azərbaycan Mədəniyyəti Günləri başa çatıb

**Qırğızıstanda Azərbaycan Mədəniyyəti Günləri Elbəy Məmmədzadə və qrupunun təqdimatında caz konserti ilə başa çatıb.**

Qırğızıstan Milli Konservatoriyasında keçirilən bağlanış konsertində Azərbaycanın mədəniyyət nazirinin müavini Murad Hüseynov, qırğızıstanlı həmkarı Timurlan Ajımaliyev, Azərbaycanın Qırğızıstandakı səfiri Lətif Qəndilov, hər iki ölkənin mədəni-ictimai xadimləri və media mənsubları iştirak ediblər. Hər iki ölkənin mədəniyyət nazirlərinin müavinləri çıxış edərək beş gün davam edən Azərbaycan Mədəniyyəti Günlərinin yüksək səviyyədə təşkilindən, qırğız ictimaiyyəti tərəfindən göstərilən maraq və diqqətdən söz açıblar.

Çıxışların ardınca Elbəy Məmmədzadə və qrupunun iştirakı ilə caz konserti nümayiş olunub.Qrup yerli və xarici caz nömrələri ilə rəngarəng proqram təqdim edib.



Bununla da aprelin 20-dən başlayan Qırğızıstanda Azərbaycan Mədəniyyəti Günləri başa çatıb.

# Soydaşımızın kitabı özbək dilində

**Özbəkistan Yazıçılar İttifaqında Azərbaycan yazıçısı Pərvinin Daşkənddəki "Dunyo nashr" nəşriyyatında özbək dilində çap olunan "Yaxşı ki, sən varsan" kitabının təqdimatı keçirilib. Kitabı orijinaldan alim və tərcüməçi Babaxan Məhəmməd Şərif çevirib.**

Təqdimat mərasimini Özbəkistan Yazıçılar İttifaqının sədri Siracəddin Səyyid açaraq Pərvinin yaradıcılığı haqqında məlumat verib. O deyib ki, Pərvinin Özbəkistanda "Qar yağacaq" adlı ilk kitabı bir neçə il bundan əvvəl Babaxan Şərifin tərcüməsində işıq üzü görüb və özbək oxucuları tərəfindən maraqla qarşılanıb. Məhz bu marağın nəticəsidir ki, tərcüməçi yazıçının ikinci kitabına müraciət edib.



Daşkənd Dövlət Şərqşünaslıq Universitetinin müəllimi, dosent Adxambek Alimbekov, tanınmış şair və tərcüməçi Tahir Qəhhar, Türkiyənin Özbəkistandakı səfirliyinin mədəniyyət məsələləri üzrə katibi Həmid Turşucu və başqaları çıxış edərək yazıçının əsərləri haqqında söhbət açıblar.

Sonda Pərvin çıxış edərək təqdimat üçün Özbəkistan Yazıçılar İttifaqına, kitabın çapı və tərcüməsinə görə Babaxan Məhəmməd Şərifə və təqdimat mərasiminə qatıldıqlarına görə iştirakçılara təşəkkürünü bildirib.

*Qulu KƏNGƏRLİ,*
*XQ-nin Türküstan üzrə xüsusi müxbiri*
**Daşkənd**

Mikayıl Rəfili – 120

**Onun taleyinə eyni bir gündə – aprelin 25-də anadan olmaq və dünyaya əlvida demək düşüb. Görkəmli şair, ədəbiyyatşünas Mikayıl Rəfili daşlı-kəsəkli, çətin həyat yolu keçsə də, elmə, ədəbiyyata xidmətindən bir gün də qalmayıb, 53 illik ömrünü bütünlüklə sənət amalına həsr edib. Azərbaycan elmində və ictimai fikrində bir sıra ilklərə imza atıb.**



# Şair qəlbli ədəbiyyatşünas

Mikayıl Rəfili 1905-ci il aprelin 25-də Yelizavetpol qəzasının (indiki Goranboy rayonu) Borsunlu kəndində doğulub. Erkən yaşlarından gözəl şeirlər, məqalələr yazaraq qəzet və jurnallarda dərc etdirib. Bakıda və Moskvada ali təhsil alıb, sonra nəşriyyatlarda çalışıb, institutlarda dərs deyib. "Azərbaycan ədəbiyyatının rus mədəniyyəti ilə əlaqələri" mövzusunda namizədlik, "Qədim dövrdən indiki çağlaradək Azərbaycan ədəbiyyatı tarixi oçerkləri" adlı doktorluq dissertasiyalarını uğurla müdafiə edib. Onun elmi məqalə və monoqrafiyaları zamanında əl-əl gəzib.

Şair qəlbli alim olan Mikayıl Rəfili yüksək savadı ucbatından tədricən poeziyadan uzaqlaşıb və həyatını ədəbiyyatşünaslıqla bağlayıb. Onun şəxsində incə ruhlu bir şairi itirsək də, dərin bilikli bir alimimizin olması ilə fəxr edirik. İllərcə dostluq etdiyi böyük türk şairi Nazim Hikmətin onun ölümünə yazdığı poetik ağısında belə bir misralar var: "Nəslimin yarpaq tökümü başlandı...", "Şahi, Mikayıl, şair ola bilərdin, professor oldun".



Azərbaycan ədəbiyyatında formalizm (30-cu illər) və nihilizm cərəyanlarını (50-ci illər) Rəfilinin adı ilə bağlayırdılar. Əslində, hər ikisi sənətdə, ədəbiyyatda və mədəniyyətdə ümumittifaq prosesi idi, sadəcə onun alim təfəkkürünün işığında sanballı şəkildə izah olunub. Moskvada oxuduğu illərdə o, Sovet proletar yazıçılarının 1-ci qurultayında (1929) iştirak edib, müəyyən bir zaman aralığında "proletkult" ideologiyasına aludə olub. Yazıçılar İttifqının üzvlüyündən çıxarıldığı da, haqqında ədəbi kukuarlarda hərzə-hədyanların söyləndiyi də danılmaz faktlardır. Savadlı, bilikli, prinsipial Mikayıl Rəfilini gözü götürməyənlər onun varlı ailədən olduğunu dönə-dönə dəstəvuz edib, mənəvi təqiblərə məruz qoyub, və alimə başağrıları yaradıblar. Guya böyük alim "Azərbaycan sovet ədəbiyyatının böyük nailiyyətlərini inkar etməyə cəhd göstərmişdir".

Mikayıl Rəfili ilə bağlı söz-söhbət "Kitabi-Dədə Qorqud" dastanı ilə də bağlı yaranıb. 30-cu illərin sonlarında Həmid Araslının bu dastanı nəşr etməsi böyük hadisəyə çevrilmişdi və Mikayıl Rəfili də bu barədə yazdığı məqalələrdə onun "vətənpərvərlik və qəhrəmanlıq ruhunu" yüksək qiymətləndirmiş, hətta dastanı yunan eposları ilə müqayisə etmişdi. Mircəfər Bağırov 1951-ci ildə Dədə Qorquda qarşı kampaniya başlayanda bu məqalə Rəfiliyə qarşı, az qala, ölüm ittihamına çevrilib. Guya Həmid Araslı, Əbdüləzəl Dəmirçizadə, Mikayıl Rzaquluzadə və Mikayıl Rəfili "köçəri feodal eposu"na tənqidi yanaşmayıblarmış.

Rəfilinin elmi fəaliyyətində iki böyük klassikin – dahi Nizami Gəncəvinin və böyük mütəfəkkir Mirzə Fətəli Axundovun tədqiqi mühüm yer tutur. Onun Nizami və intibah haqqında fikirlərini görkəmli rus alimləri də yüksək qiymətləndiriblər. "M.F.Axundov (həyatı və yaradıcılığı)" monoqrafiyası Moskvada "Görkəmli adamların həyatı" seriyasından da rus oxucularına çatdırılıb.

Yuxarıda qeyd etdiyimiz kimi, işıqlı şəxsiyyət, böyük ziyalı Mikayıl Rəfili didərgin türk şairi Nazim Hikmətlə, eləcə də repressiya qurbanı, nakam şairimiz Mikayıl Müşfiqlə yaxın dost olub. Nazim Hikmətin fikrincə, Mikayıl Rəfili, doğrudan da, şair idi, sadəcə, elmi yaradıcılıqla müntəzəm məşğul olduğundan, bir müddət şeirin daşını atmışdı. Yalnız ömrünün son illərində bir daha şeirə qayıtmış, hətta "Mingəçevir" adlı poema da yazmışdı. Nazim Hikmətə həsr etdiyi bir şeirdə ona olan məhəbbətini bu misralarla ifadə etmişdi:

**Qarşımda əksin. Əlimdə sadə**
**bir qələm.**
**Gözlərimdə Moskvada keçən**
**gəncliyimizin solmayan yarpaqları.**
**Sən Nazim Hikmətsən,**
**mən-sadə bir tələbən...**

Qeyd edək ki, Mikayıl Rəfili sərbəst şeirin alovlu təbliğatçısı kimi həm özü bu səpkidə şeirlər yazır, həm də sərbəst şeir nəzəriyyəsini anladan məqalələrlə mətbuat səhifələrində çıxış edirdi.

Mikayıl Rəfili dünya ədəbiyyatının ən şedevr əsərlərini dilimizə çevirib. Hüqonun "Gülən adam", "Paris Notrdam kilsəsi", "Səfillər" (5 hissəsi), Balzakın "Qorio ata", "Qobsek", "Novellalar", Tolstoyun "Dirilmə" (I və II hissələr), Puşkinin "Bağçasaray fantanı", "Tunc atlı", "Ərzrus səyahəti" əsərlərinin tərcümələri bədii tərcümə tariximizin qızıl fondunda yer alıb. 1939-cu ildə rusca nəşr olunan "Azərbaycan poeziya antologiyası"nın hazırlanmasında o da yaxından iştirak edib.

Həm ədəbiyyat tarixçisi, həm də nəzəriyyəçi kimi yad etdiyimiz Mikayıl Rəfili xatırlanır. Xalq yazıçısı Anar doğru olaraq qeyd edir: "M.Rəfilinin Azərbaycan ədəbiyyatşünaslığı, ədəbiyyat tariximiz sahəsində gördüyü iş əvəzsizdir. Onun zəngin elmi irsi mədəniyyət tariximizin qiymətli səhifələrindəndir. Rəfili bütün elmi fəaliyyəti boyu doğma ədəbiyyatımıza və daha geniş götürsək, doğma xalqımıza, onun inkişafına, dünyagörüşünün genişlənməsinə, daha artıq maariflənməsinə, mədəniləşməsinə xidmət etmişdir".

Filoloq Vaqif Yusifli isə bu barədə yazır: "Ədəbiyyat tarixinə və ayrı-ayrı sənətkarlara həsr etdiyi tədqiqatlarında onun nəzəri bazasının möhkəmliyinə yalnız heyrət edirsən. Azərbaycan ədəbiyyatşünaslığında ilk "Ədəbiyyat nəzəriyyəsi" kitabının müəllifi də Rəfilidir və bu kitab üstündən onillər keçməsinə baxmayaraq, indi də ali məktəblərdə tədris olunur, ya da tələbələrə tövsiyə olunur ki, ondan istifadə etsinlər".

*Ə.ƏLİYEV*
*XQ*

Bədirxan Əhmədli – 70

# Ədəbiyyatşünas ömrünün dəyəri






**Tanınmış ədəbiyyatşünas, AMEA Ədəbiyyat İnstitutu Azərbaycan–Asiya ədəbi əlaqələri şöbəsinin müdiri, professor Bədirxan Əhmədlinin anadan olmasının 70 illiyini ölkənin elmi-mədəni ictimaiyyəti alimin çoxillik səmərəli fəaliyyətinə, göstərdiyi sanballı xidmətlərə yüksək qiymət və qədirbilənliklə qeyd edir.**

AMEA Mərkəzi Elmi Kitabxanasında yubiliyarın işıq üzü görmüş yeni əsərlərinin – “XX əsr Azərbaycan ədəbiyyatı tarixi” (3 cilddə), “Zamanın yaddaşı ədəbi diskurslar” (Seçilmiş məqalələr), “Bir ömrün missiyası” və “Rabindranat Taqor: Nobelə gedən yol” (ingilis dilində) kitablarının təqdimatı Bədirxan Əhmədlinin yaradıcılığının məhsuldar dövrünə elmi-ictimai baxışa çevrildi.

Mərasimi giriş sözü ilə açan AMEA-nın prezidenti, Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli professor Bədirxan Əhmədlinin həyat və yaradıcılığından, çoxşaxəli elmi fəaliyyətindən, Azərbaycan ədəbiyyatşünaslıq elminə verdiyi sanballı töhfələrdən danışdı. Görkəmli ədəbiyyatşünas bildirdi ki, professor Bədirxan Əhmədli XX yüzil Azərbaycan ədəbiyyatının mərhələli və sistemli şəkildə tədqiqinə yönəlmiş sanballı əsərlərin müəllifidir. O, Azərbaycanla yanaşı, türkdilli xalqların ədəbi irsinin əsryarımlıq dövrünü əhatəli araşdırıb, elmi-nəzəri baxımdan mükəmməl təhlil edib. Alim bu xalqların tarixi və ədəbiyyatı ilə bağlı apardığı tədqiqatlarla ümumtürk elmi mühitinin sərhədlərini aşmağı bacaran istedadlı ədəbiyyatşünas olduğunu sübuta yetirib.

“Professor Bədirxan Əhmədlinin milli ədəbiyyatşünaslıqda özünəməxsus araşdırma arealı və mövzuları olduğunun önəmli göstəricisi Azərbaycan ədəbiyyatı tarixini problemlər üzrə öyrənməsidir”,– deyən AMEA rəhbəri alimin əsərlərində satira janrının inkişafı, ədəbiyyatın ideya-estetik yönləri və ictimai düşüncəyə təsiri kimi məsələlərin aparıcı yer tutduğunu söylədi. Akademik əlavə etdi ki, alim Azərbaycan satirasının həm tarixi köklərini, həm də XX əsrdəki inkişaf mərhələlərini və dövrlərini yüksək elmi nəzəri səviyyədə öyrənib sistemləşdirməyi bacarıb.

AMEA prezidenti Azərbaycan ədəbiyyatının dövrləşdirilməsi məsələsi ilə də məşğul olan professor Bədirxan Əhmədlinin “XX yüzil Azərbaycan ədəbiyyatı: mərhələlər, istiqamətlər, problemlər” adlı monoqrafiyasından da bəhs edərək, bu əsərdə yüzilin ədəbi prosesinə, mərhələ və problem təsnifatına elmi, nəzəri, konseptual baxışın ifadə olunduğunu qeyd etdi: “Bədirxan Əhmədlinin yaradıcılığının önəmli bir sahəsi də XX əsrin əvvəllərindəki demokratik inkişaf tariximizi, istiqlal məfkurəmizi, milli ədəbiyyatımızı və mətbuatımızı azərbaycançılıq platformasında öyrənməsidir.

Akademik İsa Həbibbəyli professor Bədirxan Əhmədlinin təqdimatı keçirilən kitablarını alimin növbəti elmi hesabatı kimi dəyərləndirdi. O, məhsuldar elmi fəaliyyəti və 70 illik yubileyi münasibətilə AMEA-nın Fəxri fərmanını təntənəli surətdə alimə təqdim etdi.

Yubilyarın həyat və yaradıcılığı barədə məruzə edən Ədəbiyyat İnstitutunun XX əsr (sovet dövrü) Azərbaycan ədəbiyyatı şöbəsinin müdiri, professor Asif Rüstəmli bildirdi ki, ömrünün 40 ildən çoxunu elmə və təhsilə xidmət edən görkəmli ədəbiyyatşünas, tənqidçi Bədirxan Əhmədli zəngin yaradıcılığı ilə respublikamızla xarici ölkələr arasında körpü salan alimlərimizdəndir. O qeyd etdi ki, problem müxtəlifliyi ilə seçilən XX əsr Azərbaycan ədəbiyyatının dərin bilicisi və tədqiqatçısı olan Bədirxan Əhmədli milli ədəbiyyatşünaslıq elminə dəyərli töhfələr verib. Alimin mühacirət ədəbiyyatı, orta Asiyanın əksər xalqlarının ədəbiyyatı, İstiqlal mücadiləsi, cümhuriyyət dövrü ədəbiyyatının öyrənilməsi istiqamətindəki tədqiqatları ədəbiyyatşünaslıq elmimizə yeni mövzu və keyfiyyət gətirib.

Elmi məclisdə görkəmli ictimai-siyasi xadim Həsən Həsənov, akademik Nizami Cəfərov, professorlar Qəzənfər Paşayev, Hamlet İsaxanlı, Məmməd Əliyev, Məhərrəm Qasımlı, Nizami Məmmədov, filologiya elmləri doktorları Elnarə Akimova, Bəsirə Əzizəli, “Kredo” qəzetinin baş redaktoru, şair-publisit Əlirza Xələfli yubiliyarın yaradıcılığının müxtəlif yönlərinə nəzər saldılar, təqdim olunan kitabların elmi-nəzəri dəyərinə diqqət yetirdilər.

“Xalq qəzeti”nin baş redaktoru, Azərbaycan Mətbuat Şurası idarə heyətinin üzvü Əflatun Amaşov Bədirxan Əhmədlinin ötən illərdə müxtəlif media qurumlarında uğurlu fəaliyyətinin, geniş publisistik yaradıcılığının onun bioqrafiyasında dəyərli yer aldığını söylədi. Media qurumu rəhbəri bu xidmətinə görə təltif edildiyi Mətbuat Şurasının yubiley diplomunu Bədirxan Əhmədliyə təqdim etdi.

Özbəkistanın Fərqanə Dövlət Universitetinin alimi Əkbər Sadinov, Azərbaycan Ağsaqqallar Şurasının aparat rəhbəri Ramin Həsənli, Qars Qafqaz Universitetinin nümayəndəsi Könül Qulusoy, Daşkənd Uluqbəy adına Milli Universitetin əməkdaşları ədəbiyyatşünas alimi 70 illik yubileyi münasibətilə təbrik etdilər.

Pakistan Ədəbiyyat Akademiyasının prezidenti, professor Nəcibə Arif, Pakistan İslam Respublikasının Müslim İnstitutunun direktoru, doktor Sahibzadə Sultan və Qırğızıstan–Türkiyə Manas Universitetinin alimi videoçarx vasitəsilə professor Bədirxan Əhmədliyə təbriklərini ünvanladılar.

Sonda professor Bədirxan Əhmədli ömür yoluna, xidmətlərinə verilən yüksək dəyərə görə təşkilatçılara və iştirakçılara təşəkkürünü bildirdi. O deyilən xoş sözləri bundan sonrakı fəaliyyəti ilə cavablandıracağını söylədi.

***Tahir AYDINOĞLU***
***XQ***

# Kürdəmirdə Xalq yazıçısı Çingiz Abdullayevlə görüş



**Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin Xaqani Şirvani adına Aran Regional filialı dünya şöhrətli yazar, Azərbaycan Yazıçılar Birliyinin katibi, Xalq yazıçısı Çingiz Abdullayevin kürdəmirli oxucularla görüşünü təşkil edib.**

Kürdəmir şəhər Tofiq İsmayılov adına 1 saylı tam orta məktəbin akt zalında təşkil olunan görüşdə Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru, akademik Rafael Hüseynov görkəmli yazıçının zəngin ədəbi yaradıcılığından söz açıb, Çingiz Abdullayevin ən çox oxunan detektiv yazarlardan biri olduğunu bildirib. O, yazıçının qəhrəmanlarının tipik xüsusiyyətləri və dünya siyasi dedektiv janr ədəbiyyatında Çingiz Abdullayevin yeri və rolu haqqında fikirlərini bölüşüb, görkəmli yazıçını siyasi detektiv janrının müasir dövr üçün ustadı adlandırıb.

Akademik Rafael Hüseynov qeyd edib ki, Xalq yazıçısı Çingiz Abdullayevin əsərləri nəinki Azərbaycanda, eləcə də dünyanın yüzlərlə ölkəsində böyük məhəbbətlə oxunur. O, həmçinin Çingiz Abdullayevin Azərbaycan Yazıçılar Birliyindəki fəaliyyətindən, işinə olan məsuliyyətindən də danışıb.

Daha sonra yazıçının həyat və yaradıcılığını əks etdirən fotoşəkillərdən ibarət videoçarx nümayiş etdirilib.

Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı Elxan İbrahimov Prezident İlham Əliyevin elm və mədəniyyət xadimlərinə, Azərbaycan ədiblərinə daim böyük diqqət və qayğı göstərdiyini vurğulayıb. O qeyd edib ki, Çingiz Abdullayevin Azərbaycan Respublikası Prezidentinin fərmanları ilə “Şərəf” və “Şöhrət” ordenləri ilə təltif olunması, “Xalq yazıçısı” fəxri adına layiq görülməsi yazıçı əməyinə verilən dəyərin bariz nümunəsidir. İcra başçısı bu cür görüşlərin həm rayon ictimaiyyəti, həm də kitabsevərlər üçün böyük bayram olduğunu deyərək, Xalq yazıçısı Çingiz Abdullayevə yeni yaradıcılıq uğurları arzulayıb.

Görüşdə yazıçının əsərləri əsasında çəkilmiş “Dronqo”, “Tərsinə çevrilən dünya” filmlərindən epizodlar nümayiş etdirilib. Məhəmməd Əmin Rəsulzadə adına 2 saylı tam orta məktəb-liseyin 6-ci sinif şagirdi Mehri Ağazadə Xalq şairi Qabilin Çingiz Abdullayeva həsr etdiyi “Zəhmətkeş” adlı şeirini söyləyib.

Sonra Xalq yazıçısı Çingiz Abdullayev həyatından, ədəbiyyata gəlişindən, ona məşhurluq qazandıran əsərlərinin yaranma tarixçəsindən, sujet xəttindən və filmlərindən danışıb. Yazıçı gənclərə vətənpərvərlik ruhunda tərbiyə olunmağı, intellektual səviyyələrini daim yüksəltməyi, dünya görüşlərini məhz mütaliə ilə genişləndirməyi tövsiyə edib. O, görüş iştirakçılarının çoxsaylı suallarını da cavablandırıb.

Akademik Rafael Hüseynov muzey filialının təşəbbüsünə dəyər verərək növbəti dəfə kürdəmirli pərəstişkarları ilə görüşə gəldiyi üçün Çingiz Abdullayevə oxucular adından minnətdarlığını bildirib.

Sonda yazıçı yeni kitablarını muzeyə hədiyyə edib.

***Qabil YUSİFOĞLU***
***XQ***

Gənclik və cəmiyyət

**Hər bir ölkənin gələcəyi onun gəncləridir. Əgər bir ölkənin gələcəkdə necə inkişaf edəcəyini bilmək istəyiriksə, o ölkənin gənclərini müşahidə etmək kifayətdir. Bildiyimiz kimi, dövlətin təməl daşı cəmiyyətdir və cəmiyyətin əsasında da gənclər durur. Buna görə də, ölkə daxilində gənclərin inkişafı və ictimai aktivliyinə xüsusi diqqət yetirilməlidir.**

Respublikamızda gənclərin ölkəmizin ictimai-siyasi, sosial həyatında fəallığını təmin etmək üçün uğurlu addımlar atılır. Uzun illərdir Azərbaycan dövlətinin uğurla davam etdirdiyi əsas istiqamətlərindən biri də gənclər siyasətidir. 2002-ci ildə “Gənclər siyasəti haqqında” Azərbaycan Respublikasının Qanununun qəbul edilməsi, 2005, 2011 və 2017-ci illərdə “Azər-

# “Könüllü gənclər”in xoş məramı



baycan gəncliyi Dövlət Proqram”larının və 2015-ci ildə isə “2015–2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası”nın təsdiq edilməsi bu istiqamətdə atılan uğurlu addımlardandır. Həmçinin 1997-ci ildə təsis edilən və bu il 28-ci dəfə qeyd olunan Gənclər Günü Azərbaycanda gənclərə verilən önəmin daha bir göstəricisidir.

Qeyd etmək lazımdır ki, gənclərin könüllülük hərəkatı onların ictimai və sosial aktivliyinin təmin olunmasında əsas rol oynayır. Çünki beynəlxalq aləmdə ölkəmizin gündən-günə artan nüfuzunun nəticəsi olaraq tez-tez Azərbaycanda keçirilən beynəlxalq tədbirlər, idman yarışları, eləcə də qeyri hökumət təşkilatlarının təşəbbüsü ilə keçirilən mərasimlər könüllülük mühitinin daha geniş miqyas almasına təsir göstərir. Təqdirəlayiq haldır ki, belə tədbirlər gənclərin müxtəlif sahələrdə inkişafına böyük töhfə verirlər. Belə ki, qeyd olunan təşkilatların fərqli sahələr üzrə təşkil etdikləri könüllülük proqramları gənclərin bilik və bacarıqlarının inkişaf etdirilməsində mühüm rol oynayır. Bu fəaliyyətlər, həmçinin gənclərin sosial məsuliyyət hissini artırmaqla yanaşı, onlarda liderlik, kommunikasiya, idarəetmə, komandada işləmək kimi bacarıqları da yüksəlir. Əlavə olaraq gənclərin yiyələndikləri bu bacarıqlar və qazandıqları təcrübələr gələcək karyeraları üçün mühüm bir sərmayə hesab olunur.

Bütün bu qeyd edilənlər də bir daha göstərir ki, könüllülük heç də bəzilərinin iddia etdiyi kimi səmərəsiz zaman israfı deyil, əksinə, gənclərin formalaşması və gələcəyə hazırlanmasına verdiyi töhfə baxımından olduqca mühüm, faydalı və çoxşaxəli məşğuliyyət sahəsidir. Çünki könüllülük fəaliyyəti məhz gənclərin təmənnasız şəkildə yeni bilik və bacarıqlar öyrənməsi, inkişaf etməsi məqsədini daşıyır.

Başqa bir mühüm məqam isə odur ki, könüllülük hərəkatının iştirakçıları olan gənclər yalnız öz fərdi inkişafları üçün çalışmır, həm də cəmiyyətin ortaq maraqları və təqəqqisi üçün səylər göstərirlər. Bu missiya gənclərin bugünkü ictimai həyatda aktivliyini təmin edərək onları daha yaxşı gələcək üçün hazırlayır.

***Xədicə ƏLİYEVA,***
***Azərbaycan Dillər Universitetinin***
***IV kurs tələbəsi***

# Gəncədə alimlər süni intellektdən danışdılar...

**Azərbaycan Milli Elmlər Akademiyasının Gəncə Bölməsi və bu elm ocağının YAP ərazi partiya təşkilatı tərəfindən “Yeni eraya addım: Azərbaycanın süni intellekt strategiyası: 2025 – 2028” mövzusunda dəyirmi masa keçirilib.**



Dəyirmi masanı giriş sözü ilə açan AMEA-nın Gəncə Bölməsinin sədri, akademik Fuad Əliyev toplantının müasir dünyanın, xüsusilə, Azərbaycan kimi sürətli inkişaf yolunu seçmiş ölkələrin qarşısında duran ən aktual məsələlərdən olan süni intellekt və onun tətbiqi sahələrinə həsr olunduğunu bildirib.

Tədbirdə AMEA-nın Gəncə Bölməsi YAP Ərazi Partiya Təşkilatının sədri Vüsal Eminbəyli elmi-texniki tərəqqi və müasir dövdrə, xüsusilə, aktual olan süni intellekt məsələlərinə dair ölkə Prezidentinin qərar və sərəncamlarının mahiyyəti haqqında danışıb.

Müzakirələrdə bölmənin elmi işlər üzrə sədr müavini Əlimuxtar Muxtarov “Prezident İlham Əliyevin süni intellekt strategiyası”, Elektron Xidmətlər şöbəsinin müdiri Fərhad Mirzəyev “Azərbaycanda süni intellekt. Dövlətin rəqəmsal gələcəyi”, Humanitar Tədqiqatlar İnstitutunun Ədəbiyyat şöbəsinin müdiri Ruziyə Quliyeva “Milli-mənəvi dəyərlərin qorunmasında süni intellektin rolu”, bölmənin Elmi Kitabxanasının müdiri Vüsalə Hüseynova “Süni intellekt və elmi məlumatlar (kitabxana, kitablar və jurnallar)”, Beynəlxalq Əlaqələr şöbəsinin müdiri Simuzər Qafarlı “Süni intellekt: yaradıcılıqmı, yoxsa saxtakarlıqmı?”, Diyarşünaslıq İnstitutunun Tarix şöbəsinin kiçik elmi işçisi İlahə Əsədzadə “Tarixi araşdırmalarda süni intellektin rolu” və Azərbaycan Dillər Universitetinin IV kurs tələbəsi Nigar Verdiyeva “Süni intellektlə insanlığın sərhədində” adlı məruzələrlə çıxış ediblər.

Dəyirmi masa iştirakçıları öz sual və təkliflərini səsləndiriblər.

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 82 (30776) 25 aprel 2025-ci il, cümə

İdman

## Avropa çempionatında 2 bürünc



**Monteneqronun paytaxtı Podqoritsada keçirilən Avropa çempionatında komandamızın çıxışı davam edir.**

Yarışda təmsilçilərimiz Əhməd Yusifov (60 kq) və Rəşid Məmmədəliyev (73 kq) bürünc medal qazanıblar.

Qeyd edək ki, Avropa çempionatında ölkəmizi 12 çəki dərəcəsində, ümumilikdə, 15 cüdoçu (9 kişi, 6 qadın) təmsil edir. Yığma həmçinin qarışıq komanda yarışında mübarizə aparacaq.

## Dohadan da xoş xəbərlər gözləyirik



**Bu gün Dohada idman gimnastikası üzrə Dünya kubokunun sonuncu mərhələsi başlayacaq.**

Azərbaycan gimnastı Nikita Simonov seriyanın ümumi hesabının lideri kimi halqalarla hərəkətlərdə çıxış edəcək. İdmançımızın 105 xalı var. Bakıdakı turnirdə qələbə ona 30 xal, Kottbus, Osiek və Antalyada qazandığı gümüş medallar isə hər dəfə 25 xal qazandırıb.

Beləliklə, Simonov ilin əvvəlindən keçirilən bütün reytinq turnirlərində fəxri kürsüyə yüksəlib və ümumi seriyada qalib olmağa yaxındır. Dohada digər təmsilçimiz Rəsul Əhmədzadə də çıxış edəcək. O, sərbəst hərəkətlər, dəstəli at, paralel qollar və turnikdə yarışacaq.

*L.QURBANOVA*
*XQ*

HAVA

## Bu gün də Abşeronda yağmursuz, bölgələrdə yağış və duman...



Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, aprelin 25-də Bakıda və Abşeron yarımadasında hava dəyişkən buludlu olacaq. Əsasən yağmursuz keçəcək. Gündüz havanın qısamüddətə tutulacağı gözlənilir. Şimal-qərb küləyi əsəcək, səhər cənub-şərq küləyi ilə əvəz olunacaq. Gecə 12-16°, gündüz 21-26° isti olacaq. Atmosfer təzyiqi 755 mm civə sütunundan 751 mm civə sütununa enəcək, nisbi rütubət gecə 70-80 , gündüz 55-60 faiz olacaq.

Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüzdən bəzi şimal və qərb rayonlarında arabir yağıntılı olacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli intensivləşəcəyi, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə sulu qara keçəcəyi ehtimalı var. Gecə və səhər bəzi yerlərdə arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 13-17°, gündüz 22-27°, dağlarda gecə 5-10°, gündüz 15-20° isti olacaq.

*Q. QASIMOV*
*XQ*

# Abşeron idmançı yetirmələrini alqışladı

**Abşeron Rayon İcra Hakimiyyəti və Abşeron – Xızı Regional Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə Xırdalandakı Olimpiya İdman Kompleksində "Konstitusiya və Suverenlik İli"ndə idman sahəsində uğur qazanan yerli idmançılarla görüş keçirilib.**



Abşeron Rayon İcra Hakimiyyəti başçısının müavini Gülnar Rəhimova əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan idman siyasətinin Prezident İlham Əliyevin rəhbərliyi ilə yüksək səviyyədə davam və inkişaf etdirildiyini vurğulayıb. Azərbaycan idmançılarının beynəlxalq yarışlarda, olimpiadalarda, Dünya və Avropa çempionatlarında ölkəmizi layiqincə təmsil etdiklərini bildirən rayon rəsmisi qeyd edib ki, görüşün keçirilməsində məqsəd idman sahəsində uğur qazanan Abşeron yetirməsi olan gənclərin tanıdılması, yeni nəslin idmana, fiziki fəallığa marağının artırılması, eləcə də asudə vaxtın səmərəli təşkilini təşviq etməkdir.

Çıxış edənlər Abşeron idmançılarının qalibiyyət əldə etməsində böyük qələbəmizin yaratdığı mənəvi gücdən, ölkə və rayon rəhbərliyinin idmana və idmançılara göstərdiyi diqqət və qayğıdan söz açıblar, gənc idmançılara yeni uğurlar arzulayıblar.

Bugünlərdə kuraş üzrə Avropa çempionu olmuş Xalid Məmmədovun babası, veteran hərəkatı fəalı Xalid Kərimov və məşqçi Elməddin Əhmədov görüşün təşkilinə və rayonda idmançılara göstərilən diqqət və qayğıya görə Abşeron Rayon İcra Hakimiyyətinə öz təşəkkürlərini bildiriblər.

Sonda Abşeron rayonunun yetirmələri Xalid Məmmədov (kuraş), Səma Abbasova (boks), Rəşad Quluzadə (qol güləşi) respublika və beynəlxalq yarışlarda yüksək nəticələrə, rayonun ictimai-siyasi həyatında fəal iştiraklarına və "Konstitusiya və Suverenlik İli" ilə əlaqədar Abşeron Rayon İcra Hakimiyyətinin fəxri fərmanı ilə təltif olunublar.

*L.AZAD*
*XQ*

Futbol tariximizdən

# 1983-cü ilin 13 may axşamının sevinci

**13 may 1983-cü il. Növbəti, 46-cı SSRİ çempionatının güclülər dəstəsində "Neftçi" Moskvanın "Spartak" komandasını qəbul edir. Rəqiblər, eləcə də, oyunun hakimləri artıq meydanın mərkəzindədirlər. İndicə görüşə start veriləcək və azarkeşlər bu dünyada hər şeyi unudub, sevimli komandalarının sovet klub futbolunun əbədi liderlərindən biri ilə mübarizəsini nəfəslərini dərmədən izləməyə başlayacaqlar.**



Saat yarımdan sonra isə hamımızın üzü güləcək. Kapitanımız İsgəndər Cavadov komanda yoldaşları ilə birlikdə ağır sınaqda onları dəstəkləməyə gəlmiş pərəstişkarlarını məzmunlu oyun, layiqli qələbə ilə sevindirərək meydanı alqış sədaları altında tərk edəcəklər. Görüşün başa çatmasına 10 dəqiqə qalanadək hesab bərabər idi. Birinci hissənin ortalarında Səmədağa Şıxlarovun vurduğu qola tezliklə moskvalı Yuri Qavrilov qolla cavab vermişdi.

Hər şey 80-ci dəqiqədə həll olundu. Bakılıların növbəti kəskin hücumu futbolçularımıza penalti qazandırdı və bu işin mahir ustası İqor Ponomaryov "Spartak"ın və SSRİ yığma komandasının əfsanəvi qapıçısı Rinat Dasayevlə dueldən qalib ayrıldı. Qalan vaxt ərzində "Neftçi" müdafiədə səhvsiz oynayıb, qələbə hesabını sonadək qorumağı bacardı – 2:1.

Bu uğur təkcə qolların müəlliflərinin deyil, həmin mülayim may axşamında böyük əzmkarlıq, möhkəm iradə nümayiş etdirib, "vəzifə borcunu" dəqiq yerinə yetirən komandanın qələbəsi idi.

"Spartak"la görüşdə Aleksandr Tişin, Şakir Qəribov, Gennadi Drozdov (Yaşar Vahabzadə, 46), Rəşid Özbəyov, Asim Xudiyev, Əsgər Abdullayev, Səmədağa Şıxlarov (Allahverdi Səfərov, 82), Maşallah Əhmədov, İqor Ponomaryov, Səməd Qurbanov və İsgəndər Cavadovdan ibarət heyət məhz inamlı, fədakar mübarizə dəst-xətti ilə diqqət mərkəzində oldu.

Bu da xatırlanmağa layiq məqamdır ki, 46-cı SSRİ çempionatında finişə 30 xalla 18 komanda arasında 13-cü çatan "Neftçi" yekun turnir cədvəlində qonşu respublikaların hər üç təmsilçisindən üstün mövqedə oldu. Həmin komandalardan "Ararat" (29 xal) 14-cü, Tbilisi "Dinamo"su (27) 16-cı, Kutaisinin "Torpedo" kollektivi (18) 17-ci nəticə göstərdilər.

Çempionatın bir dəst medalına isə Dnepropetrovskın "Dnepr" (49 xal), Moskvanın "Spartak" (45) və Minskin "Dinamo" (43) komandaları sevindilər.

*Oqtay BAYRAMOV,*
*Əməkdar jurnalist*

# Çempionlar Liqasına doğru: Azərbaycan basketbolunda yeni mərhələ



**Azərbaycan Basketbol Federasiyasının prezidenti Emin Əmrullayev və qurumun digər rəsmiləri ilə Beynəlxalq Basketbol Federasiyasının baş katibi Andreas Zaqklis, 3x3 basketbol yarışlarının meneceri Yovana Vukoye və Çempionlar Liqasının kommersiya direktoru Benjamin Qoute arasında görüş keçirilib.**

Azərbaycan Basketbol Federasiyasından verilən məlumata görə, görüşdə Azərbaycanda 3x3 basketbolun inkişafı və bu sahədə mövcud perspektivlər, həmçinin yeniyetmə basketbolçuların Çempionlar Liqasında iştirakı məsələləri geniş müzakirə olunub. Tərəflər Azərbaycanın peşəkar basketbol klublarının növbəti mövsümlərdə başda Çempionlar Liqası olmaqla, intensiv olaraq beynəlxalq arenalarda iştirakının vacibliyini vurğulayıb, bu istiqamətdə atıla biləcək addımlar və mümkün əməkdaşlıq imkanları barədə fikir mübadiləsi aparıblar.

Eyni zamanda, Azərbaycan Basketbol Liqasının mütəşəkkil inkişafı, liqanın strukturunun təkmilləşdirilməsi, kommersiya potensialının artırılması, yerli klubların idarəçilik və infrastruktur səviyyələrinin beynəlxalq standartlara uyğunlaşdırılması və ölkədə basketbolun ümumi inkişaf strategiyası müzakirə olunub.

*XQ*


## Azərbaycan İnşaat və Memarlıq Elmi-Tədqiqat İnstitutu vakant yerlərə *MÜSABİQƏ ELAN EDİR*

Elmi-tədqiqat müəssisəsində işləmək üçün 1 nəfər aparıcı mütəxəssis və 5 nəfər mühəndis tələb olunur.

**Aparıcı mütəxəssis üçün tələblər:** Fəlsəfə doktoru elmi dərəcəli və ya elmi işçi vəzifəsində çalışan, Azərbaycan və rus dillərində bilik və bacarığı olan, kompüter proqramlarını bilmək bacarığı.

**Mühəndis vəzifəsi üçün tələblər:** 5 ildən az olmayan staj, magistratura pilləsini bitirmiş, xarici dillərdə danışıq bacarığı, punktual və şəxsi inkişafa yönümlü, "Windows " əməliyyat sistemi, "MS Office Word", "Excel", "PowerPoint", "Outlook" proqramları və layihə işlərində "Archicad", "Autocad" və sair proqramları bilmək bacarığı.

Yuxarıda qeyd olunan tələblərə uyğun namizədlərdən CV-lərini azimeti@arxkom.gov.az elekton ünvanına göndərməyiniz xahiş olunur.

**Əlaqə nömrəsi – (012) 596-37-28 (daxili 203, 240)**
**Ünvan – Bakı şəhəri, Fizuli küçəsi 65.**


## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin kollektivi həmkarları Lalə Kərimovaya və Gülər Əliyevaya anaları

**LEYLA KƏRİMOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Dövlət İqtisad Universitetinin maliyyə və audit kafedrasının müdiri, professor Əvəz Ələkbərov və əməkdaşları iqtisad elmləri namizədi, dosent

**VAQİF QULİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3432
SİFARİŞ 751
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV
Çapa imzalanmışdır 00:00